***Kitabın üz qapağının müəllifi dəyərli dostum Elçin Hüseynovdur. Kitab korrektə və redaktə olunmayıb. Ol səbəbdən ki, müəllif Nicat Həşimzadə çox zəngin adamdır. Bilir ki, kitabda milyonlarla səhv olsa da şəhərimizin zəngin adamı olduğu üçün çox hörmətli, dəyərli ədəbi tənqidçilər onu tərif edəcəklər. Ol səbəbdən də müəllif Nicat Həşimzadə öz zəngin adam olmasına güvənərək rekdatə və korrektə işlərinə əlavə para sərf etmək istəmir. Eşq olsun. (Burada gərək üç nöqtə qoyaydım, deyəsən kübar yazarlar ilahi, fəlsəfi cümlədən sonra üç nöqtə qoyurlar)***

***Kitabın adının mənası odur ki, bu ölkədə sən varsan, mən varam, o var, amma biz yoxuq. Bəlkə gecikdiyimizi anlayaq və biz olmağa çalışaq?***

## *Ön söz əvəzi*

Sözün düzü bu il kitab çıxarmaq niyyətim yox idi. Siyahıda adı çəkilən dostların, oxucuların bir neçəsi məndən kitab çap etdirməyimi istədilər. "Dedim- dedi" kimi can sıxan dialoq tərzindən qurtulmaq üçün birbaşa həmin söhbəti yazıram:

- Bu ilə kitab düşünürsən?

- Məncə ehtiyac yoxdur. "Boşluqdan qaçış" 1 il olar çap olunub. Oxucuları yormaq düzgün olmaz. Həm də elə hazır kitabım yoxdur axı. Hekayələr də hələ bir kitablıq deyil.

- Bəs yazdığın məqalələr, saytlarda, qəzet və jurnallarda çap olunan yazılar? Niyə onları bir kitabda toplamırsan?

- Axı, bu yazıları oxuyan oxuyub, tərif edən tərifini, tənqid edən tənqidini deyib. İndi

insanların oxuduğu yazıları onlara təkrarmı oxudum?

- Bizim ədəbi mühitdə nə qədər müəllifin yazıları belə itib, yoxa çıxıb. Ancaq indi o yazılara çox ehtiyac var. Axtaranda da tapa bilmirsən. Bir də görürsən ki, 50-dən çox məqalən olan sayt bağlanır. Belə texnoloji problemlər də olur.

- Deyək ki, mətbuatda gedən yazılarımı topladım. Birincisi, hansı vəsaitlə çap edəcəm, ikincisi lap tutaq ki, xərc-borc edib çap etdirdim. Oxunulan yazıları kimə satacam.

- Nicat, uşaqlıq edirsən e. Sənin üç kitabın çap olunub, heç birin də özün çap etdirməmisən, oxucular, dostlar çap xərcini ödəyib.

- İndi nə deyirsən? Belə çətin günlərdə insanları narahat edək?

- Narahat etmirsən, sadəcə kitabını ön satışa çıxar. Ən azı 100 kitab satılsa çap etdirmək olar. Satılmasa, pul yığılmasa insanların pulunu geri verərik.

Söhbətin bu məqamında Aristo adı ilə xitab etdiyimiz dostumuz öz kəskin məntiqi ilə

söhbətə qarışdı. (Aristo – Aristotel adının qısaldılması).

- Bəri bax e, 100 kitab sata bilməyəcəksənsə yazmağın da mənası yoxdur. Bu, həm də sənin üçün seçim olar. Bax, özün düşün, ekzistensialistlər deyir ki...

- Aristo, sən Allah, dayan. Ekzistensialist yeridir bura? Dur, içdiyimiz çayların pulun ver.

Aristo dayanmadı, danışdı.

- Bəri bax e, ekzistensializmə görə içilən çayların pulunu mən ancaq öz azad iradəm əsasında ödəməliyəm.

Çayçı Mirəli dayı Aristoya "azad iradə" əsasında hesabı ödətdirdi.

- Yaxşı, nə deyirsən, Nicat? Kitabı çıxaraq məncə. Axı bu yazılar faydalıdır, ciddi fikirlər var.

- Bəsdir məni tərifədiniz, adamı həvəsə gətirirsiz, sonra istəklə imkanımız düz gəlməyəndə də pis oluruq, sarsılırıq. Bir də ki, mənim yazılarım faydalıdırmı həqiqətən? Bunu bilmirəm, sadəcə

yazıram, ürəyimdəkiləri, beynimdəkiləri yazıram.

- Ay Nici, bəsdir də. Yaxşı olacaq, darıxma.

- Ön satış etmək olar e, amma bu kitabdakı bir neçə yazını oxucular oxuyub. Ondan narahatam. Sonra söyərlər axı adamı.

- İnan ki, söyməyəcəklər. Əgər kitabı başdan sona qədər oxusalar söyməyəcəklər.

- Dəli elədiz e, məni. Yaxşı, siz deyən olsun. Amma Aristo düz deyir. Əgər 100 adam mənə inanıb kitabı ön satışdan əldə etmək istəmirsə başımı aşağı salıb bu yazı aləmindən, kitab dünyasından sakitcə getməliyəm.

**Bu anda Aristo gəldi. Bankamatdan pul çıxarmağa getmişdi.**

- **Həşimzadə, birinci məni yaz. Aristo 20 manat – iki kitab.**

**Cavab verirəm:**

- **Kitab 7 manatdırsa sən niyə 20 azn verirsən?**

- **Həşimzadə, mənə iki kitab lazımdır. Biri özüm üçün, biri də rəhmətlik Aristotel üçün.**

***Zarafatından qalmırdı da.***

- **İki kitab 14 manat edir axı.**

- **Ay daa, sənin nə işinə qalıb? 6 manata da 3 dənə yaşıl paçka Alpen gold alarsan. Çayla içərik.**

**Dəyərli dostlar, sadiq oxucular beləcə məni yoldan çıxartdılar, bəlkə də yola gətirdilər. Bu adamların adı bu siyahıda var. Amma sirr qalsa daha maraqlıdır. Bu söhbətdə iştirak edən bir adamın adısa siyahıda yoxdur. Nə Aristo məni görə biləcək, nə mən ona iki kitab verə biləcəm. Nə də bir daha əsəbimizi qarışdıra biləcək. Aristo artıq aramızda deyil, təəssüf ki, onu itirdik. İtirdik Bizim Olimp kafesinin məntiq atasını. Bağışla bizi, Aristo, haqqını halal et.**

**Aristo, ən çox da "bəri bax e" sözlərin üçün darıxıram. Sən o sözü çox qəribə deyirdin axı.**

**“Bəəəəriii baaaax eeeeeyyyy, Həşimzadə”**

**“Bəəərii baaaxıınn eeyyy, millət”**

**Nədənsə mənə çox zaman Həşimzadə deyərdi.**

**Aristo, bəri baxa bilirsənmi, bizi görə bilirsənmi, ey nisgilli Olimp kafemizin məntiq atası?**

## Xilaskar zabit və xalq yaradan müəllim

Xalqlar böyük şəxsiyyətləri ilə tanınır. Düzdür, ingilislərin məntiqi ilə düşünsək sivil xalqların qəhrəmana ehtiyacı olmamalıdır. İngilislər deyir ki, qəhrəmana ehtiyacı olan xalq bədbəxtdir. Məncə mübahisəli məsələdir. Həqiqətsə budur ki, belə böyük şəxsiyyətlərdən biri Mustafa Kamal Atatürkdür. Mustafa Kamal Atatürk "mümkün deyil" fəlsəfəsini tamamilə darmadağın edən bir paşadır. O insanlara böyük şəxsiyyət deyirlər ki, yüz minlərin, milyonların imkansız saydığını heç gözlənilməyən məqamda bacarır, öhdəsindən gəlir. Atatürkün ən sevdiyim sözlərindən biri budur:

**Başqasının torpağını işğal etmək üçün edilən savaş cinayətdir.**

Mustafa Kamal böyük bir qəhrəman, cəsarətli bir zabit idi. Döyüş taktikasını, hücum və

müdafiə planlarını çox mükəmməl düşünən paşa idi. Fəqət biz onu sadəcə döyüşçü kimi tanımamalıyıq. Şəxsən mənim üçün Mustafa Kamal Atatürk həm də bir sənət hamisidir. Öz ölkəsinə Avropa mədəniyyətini, Qərb təfəkkürünü gətirmək istəyirdi. Əlbəttə ki, bunu etmək çox çətin idi. Əsrlərlə fanatik düşüncəyə vərdiş etmiş topluma modern təfəkkürü belə sürətlə aşılamaq sadə məsələ deyil. Atatürkdən sevdiyim daha bir möhtəşəm aforizm.

**Sənətsiz qalan bir millətin həyat damarlarından biri qopmuş deməkdir.**

Zülfü Livanellinin ssenarisini yazdığı, musiqisini bəstələdiyi, həm də rejissoru olduğu bir film var – "Veda". Çox möhtəşəm filmdir. Baxmayanlar mütləq baxsın. Bu filmə baxdıqca insan sözün həqiqi mənasında təəccüblənir. Bu qədər ağrıya, ciddi xəstəliyə rəğmən dözmək. O, vətəni üçün dözürdü. Anlayırdı ki, dayanmaq, gözləmək zamanı deyil. Filmdə insanı ağrıdan səhnələr var. Osmanlı hökuməti ingilislərin təzyiqi ilə Atatürkü xidmət yerindən geri çağırırlar. Atatürk bu əmri yerinə yetirmir. Bilir ki, bu anlamsız, mənasız qərar ingilis hökümətinin təzyiqi ilə verilib. Nəticədə Atatürkə edam cəzası verilir. Belə ağır durumda Kazım Qarabəkir paşa Atatürkün müt-təfiqi olur. Vəzifə baxımından Atatürkdən böyük olan Kazım paşa Atatürkə

ehtiram göstərir, onunla həmfikir olur. Mustafa Kamala hərbi salam verərək deyir:

- Əmrinizdəyəm, paşam.

Fikir adamlarının biri-birini anlaması üçün rütbənin, vəzifənin əhəmiyyəti yoxdur. Böyük adamlar üçün vəzifə, mənsəb sadəcə məqsədə nail olmaq, hədəfə çatmaq üçün bir vasitədir. Mustafa Kamal Atatürk bir zabit idi. Şərtlər nə olursa olsun xidmətinə davam edəcəkdi. Çünki onun üçün ən ali ideya Vətən idi.

Filmdə Salih Bozokun Atatürkə olan sədaqəti insanı heyrətləndirir. 6 yaşından Mustafa Kamalla dostluq edən bu sadiq adam Atatürkün ölümü ilə barışmır. Onun itkisini həzm edə bilmir. Bütün filmi danışıb marağınızı öldürmək istəmirəm.

Atatürk elə bir şəxsiyyətdir ki, hətta düşmənləri onun haqqında möhtəşəm kitablar yazıblar. Bu kitablardan biri Armstronqun "Boz qurd" kitabıdır. Kitabıstan nəşriyyatı tərəfindən tərcümə və çap edilib, özü də senzurasız. Ən qəribə fakt odur ki, Atatürkün düşməni Yunanıstanın baş naziri Venizelos 1934-cü ildə Nobel Sülh Komitəsinə məktub göndərərək Atatürkün Nobel Sülh Mükafatına namizəd göstərilməsini xahiş edir. Həmin məktubun mətnini tam oxumuşam. Ancaq məktubdakı bir cümlə diqqətimi daha çox çəkdi.

**1930- cu ildə türk- yunan müqaviləsinin imzalanması Yaxın Şərqdə sülh istiqamətində**

**yeni bir dövrə səbəb olduğu zamanda mən Mustafa Kamal Paşanın Nobel Sülh Mükafatına namizədliyini təklif etməkdən qürur duyuram.**

Atatürkün ən böyük zəfəri təkcə onun zabit kimi ağıllı olması deyil, eyni zamanda qüdrətli bir ideoloq olmasıdır. O, inanırdı və bu inancın həddi, ölçüsü yox idi. Məhz bu inam nəticəsində Atatürk bir ata kimi xalqa tərbiyə verir, onu yeni dövrün mədəniyyəti ilə tanış edir. Filmdə ən maraqlı səhnələrdən biri də Atatürklə Kazım Qarabəkir paşa arasında olan islahatlar mövzusunda dialoqdur. Kazım paşa bu islahatların tez zamanda həyata keçəcəyinə inanmır. Atatürksə cavab verir:

- Mən əminəm. Çünki bu fikirlər zamanın tələbidir. Dünyada monarxiyalar devrilir. Yeni düşüncələr yaranır. Zaman bu islahatları tələb edir.

Bəlkə də Atatürk islahatları sürətli etməkdə tələsmişdi. Ancaq mən əminəm, Atatürk bilirdi ki, ömrünə az qalıb. **Böyük adamlar öləcəyi zamanı da bilirlər. Böyük adamlar zamanında getməyi də bacarırlar.**

İki il öncə Nutukdan bəzi hissələri Azərbaycan dilinə çevirmişdim. Bu yazının davamında həmin tərcümə mətnini tirajlayıram.

1915-1916-cı illərdə Çanaqqala yarımadasında Osmanlı İmperatorluğu ilə Antanta dövlətləri arasında Birinci dünya müharibəsi zamanı dəniz və quru döyüşü olub. Müttəfiq dövlətlər Osmanlı İmperatorluğunun paytaxtını ələ keçirərək, İstanbula və Çanaqqala boğazına nəzarəti öz əlinə götürüb Rusiya ilə təhlükəsiz qida və hərbi təchizat yolu açmaq və Almaniyanın müttəfiq dövlətlərindən birini sıradan çıxarmaq üçün hücuma ilk olaraq Çanaqqala boğazından başladılar. Ən güclü hücumlar martın 18-də başladı, elə həmin gün də müttəfiqlər ağır itki verərək dənizdən hücum etmək fikrindən daşındılar. Məhz bu gün də Çanaqqala zəfərinin başladığı gün hesab olunur.

Çanaqqala zəfərindən sonra Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamalın xalq və ordu içində nüfuzu artır. Lakin Osmanlının müharibəsi Çanaqqala ilə bitmir. Birinci dünya müharibəsində məğlub olan Osmanlı Mustafa Kamal Paşanın rəhbərliyi ilə Qurtuluş savaşına başlayır və Türkiyə Cümhuriyyəti qurulur.
Mustafa Kamal Atatürk "Nutuk" (Nitq) kitabında deyir:

*"Yanında böyük Almaniya, Avstriya-Macarıstan varkən məğlub olduğun Antanta ölkələrinə qarşı mübarizə aparmaq ağılsızlıq sayılırdı... Bizim məsum xalqımızı əsir etmək istəyən*

*düşmənlərimizi məğlub edəcəyimizə olan inamım bir dəqiqə də olsa sarsılmayıb".*

* * *

*O zamanın şərtlərinə görə **"əfəndilər, sabah cümhuriyyəti elan edəcəyik"** sözlərini demək belə çətin idi. İnsanlar bir rəhbərin idarəetməsinə öyrəşmişdilər. Özü-özünü idarəetmə fikri onlara qəribə görünürdü. Ancaq Atatürk bu fikri təklif etməklə yanaşı, onu həm də daxildəki və xaricdəki bədxahlara qarşı ən yaxşı şəkildə həyata keçirdi.*

**Etatist.com** Atatürkün cümhuriyyətin quruluşuna qədərki çətinliklərini ifadə edən, "Nutuk" kitabında yazılan 17 önəmli fikri təqdim edir:

1. Əfəndilər, sevgili xalqıma tövsiyə edirəm ki, qoynunda yetişdirərək böyütdüyü və başının üstünə çıxaracağı adamların qanındakı, vicdanındakı cövhərləri çox yaxşı təhlil etmək mövzusunda diqqətli olsun.

2. Əlbəttə ki, Osmanlı xanədanlığının və səltənətinin davam etdirilməsinə çalışmaq türk millətinə qarşı ən böyük pisliyi etməkdir. Çünki millət hər cür fədakarlığı gözə alaraq müstəqilliyini qazansa da, səltənət davam edəcəyi təqdirdə bu istiqlala qazanılmış gözü ilə baxmaq olmazdı. Artıq vətənlə, millətlə heç bir vicdan və

fikir əlaqəsi qalmamış bir neçə dəlinin dövlət və millətin istiqlalının, heysiyyətinin müdafiəçisi qismində görünməsinə necə göz yumula bilərdi?

3. Başlıca prinsip türk millətinin heysiyyətli və şərəfli millət olaraq yaşamasıdır. Bu prinsip ancaq tam istiqlala sahib olmaqla gerçəkləşdirilə bilər. Nə qədər bolluq və zənginlik içərisində olursa-olsun, istiqlalı olmayan bir xalq mədəni insanlıq qarşısında kölədən daha yaxşı rəftara layiq görülə bilməz.

4. Aciz və qorxaq insanlar hansısa fəlakət qarşısında millətin də ruh düşkünlüyünə sürüklənməsinə və bir kənarda səssiz qalmasına səbəb olur.

5. Mütləq müstəqillik əlbəttə ki, siyasət, iqtisadiyyat, maliyyə, məhkəmə, hərbi xidmət, yəni bütün sahələrdə tam azadlıq deməkdir. Sadalanan xüsusiyyətlərdən biri olmasa bu, o deməkdir ki, xalqın, ulusun istiqlalında çatışmazlıq var.

6. Ədalət dilənməklə, başqalarının sənə acımasını gözləməklə xalq işləri, dövlət işləri görülməz, xalqın və dövlətin qüruru, istiqlalı güvəndə olmaz.

7. Lozanna sülh müqaviləsi türk xalqına qarşı yüz illər əvvəldən hazırlanmış və Sevr sazişi ilə

tamamlandığı zənn edilən sui-qəsdin süqutunu bildirən sənəddir. Osmanlı tarixində bənzəri görülməmiş siyasi zəfərdir.

8. İsmət Paşadan sonra rəhmətlik Əbdürrəhman Şərəf bəyin çıxışında bu sözlər də vardı. ***“Hökumət quruluşlarının sayılmasına ehtiyac yoxdur. Hakimiyyət qeyd-şərtsiz xalqa məxsusdur. Kimdən istəyirsiniz soruşun, bunun adı cümhuriyyətdir. Doğulan uşağın adıdır. Amma bu addan kimlərinsə xoşu gəlmir. Qoyun gəlməsin!”***

9. Qurtuluş çarəsi axtararkən İngiltərə, Fransa, İtaliya kimi böyük dövlətləri narahat etməmək təməl prinsip olaraq qəbul edilirdi. Hər kəsdə bir fikir formalaşmışdı ki, bu dövlətlərin heç birinə müqavimət göstərmək olmaz. Onların fikrinə görə Osmanlı dövlətinin yanında böyük Almaniya, Avstriya-Macarıstan varkən hamısını birdən məğlub edən Antanta ölkələrinə qarşı yenidən mübarizəyə başlamaqdan daha böyük məntiqsizlik, ağılsızlıq ola bilməzdi. Bu zehniyyətdə olan sadəcə xalq deyildi. Xüsusilə seçilmiş, aydın hesab olunan insanlar da belə düşünürdü.

10. İstanbul artıq Anadoluya hakim deyil, ondan asılı olmaq məcburiyyətindədir.

11. Əfəndilər, bizim məsum xalqımızı əsir etmək istəyən düşmənlərimizi məğlub edəcəyimizə olan inamım bir dəqiqə də olsa, sarsılmayıb. Bu dəqiqə bu inancımı ali məclisinizə, bütün xalqa, bütün dünyaya elan edərəm.

12. Müdafiə xətti yoxdur, müdafə sahəsi var. Və o sahə bütün yurddur. Vətənin hər qarış torpağı vətəndaşın qanıyla islanmadıqca, düşmənə təslim edilə bilməz.

13. Hakimiyyət qurulması barəsində bunları nəzərdə tutmaqla bərabər, əsl məqsədi qoruyan təklifi yazılı olaraq məclisə təqdim etdim. Qısa zaman kəsiyində baş verən fikir ayrılığının yekun nəticəsinə əsasən bu təklifə nəzər yetirildikdə əsas prinsiplərin aşağdakılardan ibarət olduğu görünür.

*Hakimiyyətin qurulması vacibdir. Müvəqqəti dövlət başçısı və yaxud padşah nümayəndəsi təyin etmək olmaz.*

*Türkiyə Böyük Millət Məclisindən ali güc yoxdur.*

*Qeyd: Xəlifə-padşah təzyiq və məcburiyyətdən xilas olduğu andan etibarən Məclisin təyin edəcəyi hüquqi prinsiplər daxilində öz yerini tutar.*

***Cənablar, bu prinsiplərə söykənən hakimiyyətin xüsusiyyəti asanlıqla başa düşülə bilər. Bu, milli***

***iradəyə dayanan xalq hakimiyyətidir - cümhuriyyətdir.***

14. Sözügedən vəzifə artıq rəsmi məqam və formaya sığınaraq icra edilə bilməz. Millətin haqqı naminə səslənərək, bütün millətin bu səsə qatılmasını təmin etmək lazımdır.

15. Hər gün Nazirlər Heyətinin əsassız səbəblərlə nizamlı şəkildə işləməklərinə maneçilik yaradıldığını gördükdə uyğun zaman gözlədiyim bir fikri yerinə yetirmək vaxtının gəldiyini dərk etdim. Kəmaləddin Sami Paşa və Xalid Paşanı axşam yeməyinə çağırdım. İsmət Paşa ilə Milli Müdafiə Naziri Kazım Paşaya və Fəthi bəyə də mənimlə birlikdə gəlmələrini söylədim. Çankayada məni görmək üçün gözləyən Rizə millət vəkili Fuat və Afyon millət vəkili Ruşen Əşrəf bəyləri də yemək masasına dəvət etdim.

Yemək yeyərkən ***"əfəndilər, sabah cümhuriyyəti elan edəcəyik!"*** dedim.

16. Əfəndilər, yüzillərdən bəri Şərqdə haqsızlığa, xaosa məruz qalmışıq. Türk xalqı təbiətən malik olduğu üstünlüklərdən məhrum edilmişdi. Xalqımız sahib olduğu xüsusiyyətləri və bacarıqları hökumətin yeni adı ilə mədəni dünyaya daha asan göstərə biləcək. Türkiyə Cümhuriyyəti

dünyadakı yerinə layiq olduğunu bacaracağı işlərlə sübut edəcək.

17. Dəyərli əfəndilər, günlərlə vaxtımızı alan uzun və detallı sözlərim nəhayət tarix olmuş bir dövrün hekayəsidir. Burada millətim və gələcək uşaqlarımız üçün diqqət və sayıqlıq yarada biləcək şəkildə nöqtələri müəyyənləşdirə bilmişəmsə, özümü xoşbəxt sayacam. Burada dediklərimlə milli mövcudiyyəti sona çatmış sayılan böyük bir millətin müstəqilliyini hansı yolla qazandığını; elm və texnikanın ən son qanunlarına söykənən milli və müasir bir dövləti necə qurduğunu anlatmağa çalışdım. Bu gün çatdığımız nəticə, yüz illərdən bəri həyata keçirilən milli məhvin yaratdığı şüurun və bu əziz yurdun hər qarışında axan qanların qarşılığıdır. Bu nəticəni türk gəncliyinə əmanət edirəm.

***Ey türk gəncliyi! Birinci vəzifən türk istiqlalını, Türk Cümhuriyyətini daim mühafizə və müdafiə etməkdir. Mövcudiyyətinin və istiqbalının yeganə təməli budur. Bu təməl sənin ən qiymətli xəzinəndir. Gələcəkdə belə səni bu xəzinədən məhrum etmək istəyəcək daxili və xarici bədxahlar olacaqdır. Bir gün istiqlal və cümhuriyyətini müdafiə etmək məcburiyyətində qalsan, vəzifəyə atılmaq üçün içində olacağın vəziyyətin imkan və şəraitini düşünməyəcəksən! Bu imkan və şərait çox namünasib bir***

***mahiyyətdə təzahür edə bilər. İstiqlal və cümhuriyyətinə qəsd edəcək düşmənlər, bütün dünyada misli görünməmiş bir qalibiyyətin təmsilçisi ola bilərlər. Zor və hiylə ilə müqəddəs vətəni, bütün qalaları zəbt edilmiş, bütün limanlarına girilmiş, bütün orduları dağıdılmış və məmləkətin hər tərəfi işğal edilmiş ola bilər. Bütün bu şəraitdən daha pis və dəhşətli olmaqla ölkənin daxilində iqtidara sahib olanlar qəflət və dəlalət, hətta xəyanət içində ola bilərlər. Hətta bu iqtidar sahibləri şəxsi mənfəətlərini, işğalçıların siyasi əməlləri ilə tövhid edə bilərlər. Millət yoxsulluq içində bitkin düşmüş ola bilər.***

***Ey türk istiqbalının övladı! Bax, bu əhval və şərait içində belə vəzifən türk istiqlal və cümhuriyyətini xilas etməkdir. Möhtac olduğun qüdrət damarlarındakı əsil qanda mövcuddur!***

***Mustafa Kamal Atatürk***
***20 oktyabr 1927-ci il***
**Tərcümə: Nicat Həşimzadə**
**Mənbə: "Onedio", "Star", "Posta", "Nutuk"**

## Volter, Russo və çağdaş dünya

**Volter "Kandid, yaxud optimizm" adlı kitabında gələcəyə inamı tənqid edərək bildirirdi ki, biz artıq bütün mümkün dünyaların ən yaxşısında yaşayırıq. Volter gələcəyə inam fəlsəfəsini tənqid etsə də, "biganə adam düşməndən daha qorxuludur" deyirdi.**

Gəcələyin uğurlu olacağına inanmamaq olar, ancaq çağdaş dünyaya, sənətə, mədəniyyətə biganə qalmaq olmaz. Bu biganəlik böyük fəlakətlərə yol aça bilər. Bu əsər haqqında ayrıca esse yazmışam. Həmin fikirləri təkrarlamaq istəmirəm. Maraqlananlar "Qogenin ikinci qadını" adlı kitabımda "Eldoradodakı cənnət" yazısını oxuya bilər. Volter kral əleyhinə yazdığı satiraya görə döyülmüş, sonra həbs olunmuşdu. O, kral hakimiyyətinin məhdudlaşdırılmasını, xüsusi imtiyazların ləğv edilməsini istəyirdi. Dini xurafata qarşı mübarizə aparırdı. Volter "Kandid yaxud optimizm" adlı əsərində Eldoradonun gözəlliyini, mədəniyyətini təsvir edir.

Volteri İngiltərəyə üç illik sürgün etmişdilər. Yəqin ki, Volter Eldorado dedikdə məhz İngiltərəni nəzərdə tuturdu. Volter kvakerlər haqqındakı yazısında göstərir ki, bir çox xristian İncilə yalandan and içir. Ancaq kvakerlərin "hə" və ya "yox" sözlərinə hakimlər inanırlar. Volterin yazdıqlarını və Volter haqqında yazılanları

oxuyanda Əhməd bəy Ağaoğlunun “Sərbəst insanlar ölkəsində” əsərini xatırlayıram. Volter mədəni təşəkkülü İngiltərədə görmüşdüsə, Əhməd bəy Ağaoğlu mədəni təkamülü, sənətin aliliyini Fransada görmüşdü.

Viktor Hüqonun Volterin ölümünün 100-cü il dönümündəki nitqi yüzlərlə kitaba bərabərdir. Bu nitqi oxuyarkən insan sənətin əsl mahiyyətini dərk edir. Volter insanların vicdanına xitab edirdi. Haqq tərəfdarı olmaq çox çətindir. Ədalət tərəfdarı olan insan hər zaman öldürülməyə, döyülməyə, maddi və mənəvi işgəncələr yaşamağa hazır olmalıdır.Volter 82 illik ömrünü əzablar içində yaşadı. 100-dən çox təxəllüsdən istifadə etdi. Volter haqqında danışarkən onun “Fanatizm” əsərindən bu fikri yazmamaq günah olar:

***“Fanatiklərin cilovu, çox vaxt fırıldaqçı adamların əlində olur, onların əlinə xəncəri də bunlar verirlər; deyilənə görə, dağlarda yaşayan bir Qoca, bu sayaq fanatiklərə cənnəti bu dünyada daddırarmış, sonra da bu, dadı damaqdan getməyən yaşamda sonsuza kimi ömür sürə bilməyin tək yolunun, onun dediyi adamı öldürmək olduğunu onlara aşılayarmış, elə bu dediyimiz fırıldaqçılar da, o Qocanın tayıdırlar”.***

***“Beyin, fanatizm qanqrenasına yoluxubsa, bu, artıq sağalmaz bir xəstəlikdir. Mən keçmişdə, çox böyük çılğınlıqla Müqəddəs Parisin möcüzələrindən danışan insanları***

***görmüşdüm, onlar danışdıqca qızışıb özlərindən çıxır, gözləri alışıb yanmağa başlayır, bədənlərini əsməcə tutur, üzlərində ağıl itirməyin əlamətləri görünməyə başlayırdı: bu anda kimsə onların dediklərini dansaydı, onu yerindəcə öldürərdilər".***

*(Tərcümə Araz Gündüzə məxsusdur)*

Volter yazır ki, hətta sərt qanunlar belə fanatizmin qarşısında aciz qalır.

Gəlin, səmimi olaq və düşünək. Azərbaycanda fanatizm varmı? Təbii ki, var. Bunun qarşısını necə almaq olar? Əgər ciddi maarifçilik fəlsəfəsi, sərt qanunlar fanatizmlə mübarizədə uğur qazanmayıbsa, başqa nə etmək olar? Ölkəmizdə fanatizm var. Bunun maddi və mənəvi səbəbləri var. Maddi səbəb odur ki, insanlar pula inanırlar. İnsanların qidaya ehtiyacları var, onlara pul lazımdır. Onlara pul verən adamları dəstəkləyirlər. Onlar üçün pul verənin kimliyi, əqidəsi, dini maraqlı deyil. Onlara sadəcə pul lazımdır. Mənəvi səbəb dedikdə mən həmin adamların iradəsizliyini ifadə etmək istəyirəm. İnsan iradəsiz olanda, mübarizə əzmini itirəndə şikara çevrilir. Təbiət zəifləri bağışlamır.

Bizim də Volterimiz olub. Məsələn, Axundovu Şərqin Volteri hesab etmək olar. İnanın ki, mən mübaliğə etmirəm, tam səmimi deyirəm. Əhməd Ağaoğlunu Azərbaycanın Russosu hesab etmək olar.

Jan Jak Russonun həyat tərzi çox qəribədir. O, digər filosoflarla münasibətində həmişə əziyyətlər çəkib. Feytxvangerin "Qəribə adamın müdrikliyi, yaxud Jan Jak Russonun ölümü və ölməzliyi" romanını oxuyarkən Russonun həyat tərzi ilə tanış olmaq olar. Yeri gəlmişkən, gərək bu romanı təkrar oxuyum. Bəzi hissələri unutmuşam. Roman haqqında danışmaq niyyətində deyiləm. Maraqlananlar tapıb oxuya bilərlər. Şərq-Qərb nəşriyyatında Dünya Ədəbiyyatı Kitabxanası seriyasında çap olunub.

Russo Maarifçi filosofların bəzi fikirləri ilə razılaşmırdı. Maarifçi filosofların zəkanın aliliyini, fərdi maraqları, şəxsi istəkləri ön plana çıxardıqları vaxt Russo bu fikirlərə qarşı özünün ümumi iradə nəzəriyyəsini təklif edirdi. Həmçinin Russo zəkanın aliliyi ilə bərabər hislərin də əhəmiyyətli olduğunu bildirirdi. Russo haqqında danışarkən mən onun azad tərbiyə ideyasını xatırlayıram. O bildirir ki, insan həyatı özü yaşamalı, özü-özünü tərbiyə etməlidir. Onu heç nəyə məcbur etmək olmaz. İnsanın gərək öz yaşamı, öz təcrübəsi olsun. Kimlərinsə sənə dediyi, aşılamağa çalışdığı həqiqəti sən sadəcə dinləməklə anlaya bilməzsən. Ancaq yaşayaraq, düşüncələrini təcrübədən keçirərək, yıxılaraq, qalxaraq həyatın həqiqətini, yalanını, fəlsəfəsini anlaya bilərsən. Maarifçi filosoflara görə şərə ancaq elmlə, rasional təfəkkürlə qalib gəlmək olar. Yəni, bilik dərinləşdikcə şərə qalib gəlmək olar.

Russo isə hesab edir ki, şər sivilizasiyanın, dünyanın özündədir, insanın öz təbiətindədir.

## 20 Yanvar - Milli Qürur Günü

**Bəzən biz anlayışları qarışdırırıq. Ən cəsarətli günlərimizi ən fəciəvi gün kimi qələmə veririk. Görəsən, 20 Yanvara Qanlı Yanvar demək kimin ağlına gəlib? Mən 20 Yanvarı Qanlı Yanvar hesab etmirəm, əksinə Şanlı Yanvar hesab edirəm. Xalqımızın həmrəylik, qardaşlıq, bərabərlik nümayiş etdirdiyi ən möhtəşəm tarixi hadisələrdən biridir 20 Yanvar.**

1989-cu ildə Cənubi Azərbaycanla Şimali Azərbaycan arasındakı sərhədlər dağıdılanda necə həmrəy idiksə, 20 Yanvar günü də o cür həmrəy idik. Qışın şaxtasına, soyuğuna baxmayaraq insanlar meydanlardan çəkilmir, azadlıq tələb edirdilər. 90-cı ilin yanvar ayında xalqımıza qarşı daha bir soyqırım etdilər, bir daha bizi bölmək, parçalamaq, məhv etmək istədilər. Ancaq məqsədlərinə çata bilmədilər. Bu hadisə xalqımıza qarşı törədilən daha bir cinayətkarlıq hadisəsi idi.

Qəribə məqamlardan biri də budur ki, 20 Yanvar hadisəsinə ən tez reaksiya verən yazıçılardan biri məşhur qazax yazıçısı Oljas Süleymanov olub. Terror hadisəsini kəskin şəkildə pisləyib. Bu prosesdə bizim yanımızda olduğunu

ifadə edib. Ancaq Qırğızıstan yazıçısı Çingiz Aytmatov 20 Yanvar hadisəsinə heç bir münasibət bildirmədi. Nə 1990-cı ildə, nə də sonrakı illərdə. Hətta, hadisədən uzun illər keçdikdən sonra azərbaycanlı müxbir məşhur Çingiz Aytmatova sual verdi:

Siz nəhayət, 20 Yanvar hadisəsi ilə bağlı mövqeyinizi bildirəcəksinizmi?

Çingiz Aytmatov çıxılmaz vəziyyətə düşdüyünü anlayır və cavab verir:

— 20 Yanvar Bakıda nə olmuşdu ki?

Bilirəm, bu yazımdan sonra da bəzi sənətsevərlər yazacaqlar ki, əsas sənətdir, ədəbiyyatın əsas işi mətn yazmaqdır. Bu sözləri mənə deyən adamlar anlamır ki, ən müasir ölkələr belə ədəbiyyata mətn hadisəsindən əlavə həm də ideya kimi baxırlar. Hər bir bədii mətnin ideyası olur. Məsələn, Hariyyet Biçet Stounun "Tom dayının daxması" romanı zəncilərin hüquqlarını müdafiə edirdi. Hətta, Amerikanın o zamankı prezidenti Avraam Linkoln Hariyyet Biçer Stouya xitabən demişdi:

— Amerikanı bu balaca qızcığaz dəyişdi.

Əldə olunması çətin olan azadlıq əlbəttə ki, qurbanlar tələb edir. Təbii ki, bu qurbanlar bizi bu gün də ağrıdır, əzab çəkirik, üzülürük. Amma İlham və Fərizəyə yazıq demək elə vətənə, xalqa xəyanət etməkdir. Ülviyə yazıq demək onun azadlıq eşqini təhqir etməkdir. Şəhidlər yazıq deyillər. Şəhidinə dəyər verə bilməyən cəmiyyət

yazıqdır. Görəsən, biz 20 Yanvara Qanlı Yanvar, Qara Yanvar deməkdən nə zaman imtina edəcəyik? Xalqın qəhrəmanlıq gününü yas günü kimi təqdim etməklə necə böyük nöqsana yol verdiyimizi dərk edirikmi?

20 Yanvar Azərbaycan tarixinin ən möhtəşəm, ən mübariz, ən qürurlu günlərindən biridir. 20 Yanvar şəhidlərinin azadlıq eşqi, istiqlal mübarizəsi hər birimiz üçün sağlam nümunədir. Şəxsən mən onları yazıq saymıram, onlar qəhrəmanlardır, qəhrəmanlar da yazıq olmurlar. Qəhrəmanlarımızı gözümüzdə yazıqlaşdırmayaq, acizləşdirməyək. Məmləkətimiz Azərbaycan naminə yaşayaq, yaradaq və 20 Yanvarı faciə kimi deyil, milli qürur, milli istiqlal mübarizəsi günü kimi qeyd edək. Mənim üçün 20 Yanvar milli qürur günüdür. Dünyanın ən böyük imperi-yalarından biri öz vətəndaşlarına güllə atmaqla əslində “ömrümün son günlərini yaşayıram” mesajını vermişdi. Tanrı Azərbaycanımızı qorusun, amma hər şeyi Tanrıdan gözləməyək, özümüz də çalışaq, mübarizə aparaq, azadlığımızın qədrini bilək. Azadlıq həm də həddini bilməkdir, həddimizi bilək ki, tale bizə bir daha məğlubiyyət, itki yaşatmasın. Milli Qürur Günümüzlə fəxr edin. Şəhidlərimizin istiqlal mübarizəsi ilə fəxr edin. Şəxsən mən qanım qara olanda, özümü gücsüz hiss edəndə Şəhidlər Xiyabanına gedirəm, şəhidlərimizin ruhundan güc alıram və düşünürəm: onların cəsarətli

mübarizəsinə, şərəfli ölümünə faciə demək olarmı? Bu, faciə deyil, azsaylı xalqın böyük qəhrəmanlığı, sarsılmaz inancıdır.
**İnancınızı heç vaxt itirməyin, inanc həyat qüvvəsidir.**

## Faciəmiz nağıllarımızdan başlayır

Bu haqda uzun müddət düşünmüşəm. Görəsən, niyə bizim nağıllarımızda vahid ideoloji xətt yoxdur? Nağıllarımızın uşaqlara verdiyi mesaj nədir? Azərbaycan nağılları uşaqların düşüncəsinə necə təsir edir?

Ən məşhur nağıl qəhrəmanımız Məlikməmmədin məqsədi nə idi? Atasının alma bağını qorumaq. Yəni mahiyyət budur ki, ən məşhur nağıl qəhrəmanımızın məqsədi padşah atanın alma bağındakı almaların oğurlanmasına mane olmaqdır. Məlum olur ki, məqsəd maddidir. Padşah ata gənc qalmaq üçün cavanlıq alması yemək istəyir. Həmin bu zalım ata başa düşür ki, cənnət almasına gedən yolda övladları ölə bilər. Amma o, buna əhəmiyyət vermədən oğullarını ölümə göndərməkdən çəkinmir. Məlikməmmədi qardaşları quyuya atmırmı?

Biz iki mənfi hadisəni ilk baxışdan görürük. Bu nağıl bizə lazımdırmı? Folklor xalqın yaddaşıdır. Xalqımızın təhtəlşüurunda Məlikməmməd necə xatırlanır? Atasının almalarını qorumaq məqsədinə görə gecə yatmamaq üçün əlini kəsib yarasına duz basan, fırıldaqla divi məğlub edən uğurlu obraz kimi. Amma dərin düşünək. Məlikməmməd bizə lazımdırmı? Bizim nağıllarda da məqsəd maddidir. Tıq-tıq xanım nə istəyir, kimi axtarır? Onu müdafiə edəcək, maddi-sosial tələbatını ödəyəcək dost.

Müasir təfəkkürlə baxsaq Məlikməmmədin atası hansısa bol gəlirli rayonun icra başçısıdır. Div isə vergi sistemi və ya korrupsiyaya qarşı mübarizə idarəsidir. Məlikməmməd atasının mülklərini, pulunu bu divlərdən qorumaq üçün min bir fırıldağa əl atan "qəhrəman" oğuldur. Və Məlikməmməd onu da gözəl bilir ki, atasının ən ərköyün oğlu odur. Axı, son beşikdir. Məlikməmməd onu da yaxşı bilir ki, Div atasının mülkünü, var-dövlətini müsadirə eləsə o, qara "Qalenvagen"dən məhrum olacaq. Əgər bahalı maşından məhrum olsa, rayonun fiqurallı səy qızları daha sevməyəcək onu.

Ümumiyyətlə bizim nağıllarımızda həmişə divi "neprav" çıxarırlar. Div bizim nağıllarımızın ən bədbəxt qəhrəmanıdır. Bəlkə bu səbəbə görə biz div, əjdaha olmaqdan qorxuruq və taleyimizə Tıq-

tıq xanımı aldadan siçan, qarğanı aldadıb pendiri oğurlayan, həccə gedən tülkü olmaq yazılır.

Axı Cırtdan da divi aldatmışdı. Bizim nağıl qəhrəmanlarımız yaxşı yalan danışa bilirlər. Fırıldağı, aldatmağı çox əla bacarırlar. Axı bizim bu Tıq-tıq xanım da dozanqurdudur. Görəsən, başqa heyvan yox idimi? Niyə məhz dozanqurdu? Tıq-tıq xanım siçanla dost olmaq istəyir. Bizə çətin məqamda, bataqlığa batanda mütləq uzun quyruqlu varlıqmı lazımdır? Əgər Tıq-tıq xanıma müasir düşüncəylə baxsaq o, ən yaxşı halda heç bir savada, xüsusi istedada malik olmayan, məktəbi zorla bitirən, bəzək-düzək xəstəliyinə tutulmuş qızdır. Onu ancaq varlı adama ərə gedib, gələcəyini təmin etmək maraqlandırır. Nitsşenin təbirincə desək, onun üçün uşaq məqsəd, kişi vasitədir. Bəlkə də savadına dərin rəğbət bəslədiyim Abdulla Şaiq bu nağılda tülkü və çobanın simasında o zamankı hökumətin idarə etməsindəki qüsurlarını göstərməyə çalışıb.

Hərçənd ki, bu nağılı mənim nəzərdə tutduğum ideoloji istiqamətlərə aparmaq çətindir. Padşahın, haqqında danışdığımız əlahəzrət icra başçısının ən birinci məqsədi cavanlıq almasından yeyib gəncləşmək və qadınlarla əylənməkdir. İndi bu yaşımda bu nağılları oxuyanda dəhşətə gəlirəm. Biz bu nağıllarla uşaqlara nə öyrətmək istəyirik? Belə faciəvi nağıllar olarmı?

Ədəbiyyatımızda belə hədsiz pafoslu məqamlar çoxdur. Məsələn, İsgəndərə anası

deyirdi ki, sən Zevsin oğlusan və qəribə məqam odur ki, həmin İsgəndərə Nüşabə ədalət dərsi keçir.

Süjet xətti eynən Məlikməmməd nağılına bənzəyən bir rus nağılı var. Söhbət "Yeraltı hakimiyyət" nağılından gedir. Sadəcə iki nağıl arasında ciddi fərqlər də var, məsələn, Məlikməmməd hökmdar ataya xidmət edirdi və nağılın gedişində də görürük ki, xilas etdiyi qız da hökmdar qızıdır. Xilas etdiyi qıza qədər artıq neçə qız Divin qurbanı olmuşdu. Məlikməmmədsə növbə hökmdarın qızına çatanda xilaskar rolu oynayır. Rus nağılının qəhrəmanı İvansa məhəbbətinə qovuşmaq üçün hökmdar atasına qarşı mübarizə aparır. Fərq odur ki, biz hətta folklorumuzda da padşahların çirkin məqsədlərinə xidmət edirik. Bu ənənə sonra ədəbiyyatımızda davam etdi. Məsələn, Mirzə Cəlil "Ölülər" əsərinin girişində yazır ki, Allah sənə rəhmət eləsin, Qoqol. Mirzə Cəlil bu əsəri Qoqolun "Ölü canları"ndan təsirlənərək yazmışdı. Bu səbəbə görə Qoqola xitab edir. Ancaq fərqli bir məqam var. Qoqol əsərində kübar cəmiyyəti, sistemi tənqid edirdi. Mirzə Cəlilsə sistemi tənqid etmir. Şeyx Nəsrullahı yetişdirən, göndərən sistemə bir söz demir. Ziyalı İsgəndəri nüfuzdan salan rejimə söz demir. Sadəcə cahil camaatı günahkar çıxarır. Bir sual da meydana çıxır: "Kefli İsgəndər" ziyalı idimi? Əli Şəriətinin gözəl bir sözü var. Deyir ki, **xalqının cahilliyinə gülən adamdan ziyalı**

**olmaz**. Əgər sən ziyalısansa, o zaman cəhalət niyə var?

Sizi deyib gəlmişəm, ey mənim müsəlman bacı və qardaşlarım. Dəxi innən belə çalışaq ki, xalqımızın inkişafı naminə həmrəy olaq. Ol səbəbdən ki, biz məğlubiyyətə haqqı olmayan sonuncu nəsilik. İncildə deyilən, Ata, Oğul və Müqəddəs ruh anlayışlarından ən sonuncusu bizik. Müqəddəs Ruh məğlub olsa, gələcək nəsillərimiz unudulmaz məğlubiyyətlə doğulacaqlar.

## Pol Osterin Qaranlıqdakı adamı

Pol Oster 1947-ci ildə ABŞ-ın Nyu Cersi ştatında doğulub. Ədəbiyyata gəlişi təsadüfi olmayıb. İngilis, fransız və italyan ədəbiyyatı üzrə təhsil alıb. "Qaranlıqdakı adam" romanı ən məşhur əsərlərindən sayılır.

Avqust Brill 72 yaşlı bir kitab tənqidçisidir. Arvadı Sonya vəfat edib, qızı və nəvəsi ilə birlikdə yaşayır. Qəza keçirir, ayağından xəsarət alır, qoltuq ağaclarından istifadə etməli olur. Xatirələrini bölüşmək üçün kitab yazmaq istəyir. Həmişə xatirələri haqqında, keçmişdə baş verənlər haqqında düşündüyü üçün iztirab yaşayır. Xatirələrdən xilas olmaq məqsədilə gecələr

hekayələr uydurur, xəyallara qapılır. Bəzən paralel dünyaların mövcudluğu haqqında düşünür. Bir gün Avqust Brill Ouen Brek adlı xəyali obraz uydurur. Ouen günlərin biri yuxudan oyananda özünü qapalı bir məkanda görür. Ouen Brekə deyirlər ki, Amerika İraqla müharibə aparmır, Amerika Amerika ilə savaşır və 11 Sentyabr hadisələri olmayıb. Oueni həmçinin tarixi gedişatların ardıcıllığı və mahiyyəti düşündürür. Ouenin Flora adlı arvadı olsa da o, eyni anda Virciniyanı da sevir. Əsərin əsas mahiyyəti Lou Frisk ilə Ouen arasındakı dialoqda göstərilir. Frisk izah etməyə çalışır ki, paralel dünyalar mövcuddur və eyni anda müxtəlif dünyalarda müəyyən hadisələri yaşaya bilərsən. Bu zaman Ouen hədəfin dəyişdiyini öyrənir, öncə ona Blenk soyadlı birini öldürmək tapşırığı verilmişdi, indisə Avqust Brillin fotosu göstərilir. Bəli, düz anladınız, məhz həmin 72 yaşlı kitab tənqidçisi Avqust Brill. Ouen obrazı da, bütün bu hadisələr də bütövlükdə Brillin öz xəyal məhsuludur. Sanki Ouen Brillin varlığını əlindən almış, şüuruna hakim kəsilmiş obrazdır. Ouen Brillin qətiyyətini əlindən alıb.

Sonra həyat davam edir, Ouen Çexov, Kalvino və Kamyunu oxuyur. Bir gün Frisk yenidən gəlir. Ouen Brilli öldürməyəcəyini söyləsə də Frisk ona bir həftə vaxt verildiyini bildirir. Bu qədər yazdım amma, "Ouen Brilli niyə

öldürməlidir" sualına dəqiq izah vermədim. Brill öldürülsə Amerika Amerika ilə vuruşmayacaq, müharibə bitəcək. Bu, dəqiq müəyyən edilməyib sadəcə ehtimaldır. Amerikanın Amerika ilə müharibə etməsi məsələsi çox maraqlıdır. Romanı oxuyarkən biz postmodern romanlara xas olan şəxsiyyət ikiləşməsinin və ya şəxsiyyətin ikidən daha çox hissələrə bölünməsinin şahidi oluruq. Ouenin yeganə istəyi evinə qayıtmaqdır. Şərtlərə əməl etmədən bunun mümkünsüzlüyünü başa düşən Ouen, Brill haqqında məlumatlar öyrənmək istəyir. Səbəbin nə olduğunu konkret demək çətindir. Ancaq romanda daha bir maraqlı məqam odur ki, Avqust Brillin arvadı ölüb, Brillin qızının əri 5 il öncə onu tərk edib, nəvəsinin sevgilisi həlak olub. Pol Osterin romanının qəhrəmanları təklikdən əziyyət çəkirlər. Bu təkliyin vurduğu psixoloji zərbələr nəticəsində onlarda şizofrenik amillər yaranır. Brill xəyalında başqa hekayələr uydurараq Ouendən özünü xilas etməyə çalışsa da cəhdləri uğursuz olur.

Romanı oxuyarkən Bodriyarın bir fikrini xatırladım. Bodriyar postmodernist nəzəriyyəçilərdən biridir. "Mütləq həqiqət yoxdur, o, hissələrə bölünüb və biz indi bu hissələrlə oynayırıq" fikrinin müəllifi Bodriyardır. Yapon əsilli Amerika alimi Fukuyama insanın xoşbəxtliyə və kamilliyə qovuşmasını tarixin sonu adlandırırsa da, Bodriyar hesab edir ki, bəşər

övladı heç zaman xoşbəxtliyə və kamilliyə qovuşa bilməz. Tarixin sonu məsələsinə gəlincə, düşünürəm ki, tarix daim yenilənir, sadəcə mahiyyətini, hadisələrini, proseslərin gedişatını dəyişir. Ancaq sona çatmır. Bu mənada biz Pol Osterin müxtəlif ziddiyyətlərə malik şəxsiyyətlərə parçaladığı obrazın hansısa ülvi bir məqsəd axtardığını, mütləq həqiqətə qovuşma ehtiyacını hiss etmirik. Avqust Brill 72 yaşlı yazardır. Onun istəyi ruhi rahatlıq tapmaqdır. Onun zehni yorğunluğunun səbəbi uydurduğu hekayələrin qurbanına çevrilməsidir. Romanın bir hissəsində Avqust Brill uydurduğu hekayəni unudub Katya haqqında düşünməyə başlayır.

Pol Osteri dəqiq başa düşmək çətindir. Çünki onun əsərlərində ifadə etdiyi fikirləri, təsvir etdirdiyi obrazların xarakterlərini müxtəlif formalarda anlamaq olar. Pol Osterdən oxuduğum ilk kitab oldu - "Qaranlıqdakı adam". Digər kitablarını oxuduqdan sonra bu yazının ikinci, bəlkə üçüncü hissələrini də yazacağam.

**Ədəbiyyat qəzeti, 03. 01. 2018**

## Oblomov bizikmi?

İvan Qonçarov 1812-ci ildə Simbirskdə, tacir ailəsində anadan olub. Atası Aleksandr İvanoviç Qonçarov taxıl alveri ilə məşğul idi. Qonçarovlar yarı zadəgan idilər. Onun həyatı ilə bağlı maraqlı faktlardan biri budur ki, yazıçı 1852-ci ildə Sankt-Peterburqdan gəmi ilə yola düşərək Yaponiyaya qədər gəlib çıxıb. Yol qeydlərini üzdüyü gəminin adına uyğun olaraq "Pallada freqatı" adlı kitabında təsvir edib. "Oblomov" əsəri 1857-ci ildə çap edilib. Oblomov ümumiləşdirilmiş rus obrazıdır. Hərdən mənə elə gəlir ki, Oblomov obrazı ruslardan daha çox, bizim xarakterimizi əks etdirir. Oblomov çox tənbəl insandır. Xoşniyyətli, safqəlbli olsa da davamlı olaraq öz işlərini təxirə salır. Layihələr təklif etsə də bütün işlərini ertələyir. Onun kitab oxumağı bizim cəmiyyətimizdəki bəzi insanların kitab oxumasına bənzəyir. Kitabı vərəqləməyə başlayır, ancaq sona qədər oxumağa səbri və iradəsi çatmır. Kitab oxumaq təkcə maraq və səbr hadisəsi deyil, həm də iradə hadisəsidir. Əsərin bəzi hissələri insanı əsəbiləşdirir. Kitabla bağlı ən maraqlı məqamlardan biri budur ki, 620 səhifəlik kitab cəmi 1 aya yazılıb. Kitabın səhifə sayı sizi qorxutmasın, axıcı dildə yazılıb, rahatlıqla oxuya biləcəksiniz. Qonçarov bu suala belə cavab verib ki, kitab beynimdə çoxdan hazır idi. Sadəcə, özümü yazmağa hazır hiss etmirdim. Yazmaq fürsətim və həvəsim olandasa kitabı bir aya yazıb

bitirdim. Romanın bir hissəsində Qonçarov rusları almanlarla müqayisə edərək yazır ki, bir almanın evində bir əşya xarab olanda onu dərhal düzəltməyə çalışacaq, ancaq oxşar hadisə rusun evində olanda heç nə dəyişməyəcək. Rus kişiləri buna laqeyd münasibət göstərəcək. Yazıçı göstərir ki, rus bədbəxtliyinin səbəbi tənbəllikdir. Oblomov tənbəlliyindən sevməyi də düz-əməlli bacarmır. Onun laqeydliyi, tənbəlliyi həyatının bütün sahələrində özünü göstərir. Oblomov psixoloji xəstəlik yaşayırdı, yoxsa həqiqətən tənbəl-liyin, məsuliyyətsizliyin qurbanı idi? Axı Oblomov ruhən bəsit adam deyil. Çağdaş dünyamızın ən ciddi problemlərindən biri olan yadlaşmanı Qonçarov 1850-ci illərdə anlamışdımı? Bəlkə, Oblomov həyatdan yorulmuşdu, çalışmağın, vuruşmağın, ömür boyu pul qazanmaq üçün insan sağlamlığının, zamanın və enerjinin qurban verilməsinin mənasızlığını dərk etmişdi?

Oblomovun yaşamaq üçün xüsusi səbəbi yox idi. İnsan, sadəcə, doğulduğu üçün yaşaya bilməz. İnsanın yaşamaq üçün məqsədi, istinad nöqtəsi lazımdır. Ancaq təbiətin biz insanlar üçün müəyyən etdiyi təyinatlar var. Bayaq da qeyd etdiyim kimi, Oblomov başı boş, bəsit adam deyildi. Bəs milyonlarla qəlbə təsir edən sevgi nəyə görə Oblomovu dəyişə bilmir? Oblomov tənbəldir, ancaq mənə elə gəlir ki, Oblomovun

tənbəlliyinin səbəbləri yetərincə ciddidir. Oblomov dedi-qodulardan, xəyanətlərdən, insanların saxtakarlığından, riyakarlığından bezmişdi.

Oblomov soruşur:

Axı həyatda, dünyada nə var? Kiçik ehtiras oyunları, rəqabətlər, dedi-qodular və s. belə işlər. İlk baxışdan hamınız zəkalı insanlarsınız. Ancaq bütün söhbətləriniz pulla bağlıdır.

Oblomov özünə sual verir:

**Bu adamlar arasında yaşamaq olarmı?**

Bu səbəblərə görə Oblomovu tənbəllikdə günahlandırmaqdan daha çox onu anlamaq lazımdır. Amma yenə də Oblomov kimiləri ittiham etmək lazımdır. Çünki vicdanlı insanların fəaliyyətsiz qalmağa haqları yoxdur, əgər intellektin və vicdanın varsa sən də bir işin qulpundan yapışmalı, cəmiyyət üçün faydalı olmağa çalışmalısan. Bəzən Oblomov kimiləri mənə sual verirlər ki, mənim fərdi maraqlarım var. Niyə cəmiyyət üçün yaşamalıyam? Ancaq cəmiyyətdəki problemlərin bir ucu bu fərdiyyətçilərə toxunanda hamıdan daha çox qışqırırlar, daha çox inciyirlər. "Oblomov"u oxuyaq, amma Oblomova bənzəməyək.

**Ədəbiyyat qəzeti, 17. 11. 2018**

## Sənət anlayışı və şöhrət

*Şöhrət sənət adamının Axilles dabanıdır. (Milan Kundera)*

Ədəbi fəaliyyətə yeni başladığım zamanlarda şöhrət istəyim çox idi. Oxunulmaq, tanınmaq, məşhur olmaq istəyirdim. Gənc bir yazarın tanınmaq, məşhur olmaq istəyinə təbii baxmaq olar. Burada qeyri-adi heç nə yoxdur. Ancaq 40 yaşını keçmiş yazıçı şöhrət istəyinə hələ də mübtəladırsa, eqosuna məğlub olursa bu, ciddi problemdir. Sovet dönəmində kommunizmi təbliğ edən xeyli yazıçı var idi. Zaman onları çeynəyib bitirdi. Bunun səbəbi onların kommunizmi təbliğ

etməsi deyildi. Səbəb əsərlərin uğursuz olmasıdır. İndi, müstəqil Azərbaycanda yaşayaraq Sovet dövründə yazıb-yaratmış yazarları, şairləri tənqid etmək asandır. Stalin dövründə yaşamayan adamlar o illərin proseslərini dərk edə bilməzlər. Mən də o dövrü görmədiyim üçün həmin dönəmdəki ədəbi proseslər haqqında çox ehtiyatla danışıram. Tənqid sənəti ciddi, çox vacib sənətdir. Tənqid haqqında danışmazdan öncə bu suala cavab tapmalıyıq. Bizim tənqid etməyə haqqımız və intellektimiz çatırmı? Azərbaycanda kimisə tənqid etmək də problemdir. Həmin adamın oxucuları səni özünü reklam etməkdə ittiham edirlər. Hansısa əsəri bəyənmədiyini yazırsan, bəyənməmə səbəblərini arqumentlərlə göstərirsən. Bəzi adamlar deyir ki, bunu reklam xətrinə edirsən. Kitab reklam etməyin, yazıçı kimi reklam olunmağın yollarını yaxşı bilirəm. Ucuz reklam, ucuz şöhrət sənət adamına utancdan başqa heç nə gətirmir. Özümə sənət adamı, yazıçı demirəm. Hələ gəncəm. Hər şeyi gələcək göstərəcək. Özünü yazıçı, filosof, psixoloq adlandıran, sutkaya iki kitab yazanlardan fərqli olaraq həyama qısılıb "mən yazaram, sənət adamıyam” sözlərini demirəm. Sovet dövründə "N” qədər yazıçı yüzlərlə əsərlər yazdılar. Çoxu makulatura oldu. Yazıçı zəngin yaşayır deyə nə qədər adam kitab yazmaq istədi. Balzakın fikrini yada salaq. **Şöhrət çox bahalı, lakin tez xarab olan maldır.** Ancaq Sovet yazarları arasından bir neçə istedadlı imza

çıxdı. Səbəb onların həqiqətən istedadlı olmasıdır. İstedad özünü mütləq göstərir, gec də olsa özünü sübut edir. İstedadsız adamın uğuru müvəqqətidir. O, bu günün qəhrəmanıdır, gələcəkdəsə unudulacaq. Hüqonun dövründə Fransada yazar, şair çox idi. Ancaq fransızlar Hüqonu Fransanın vicdanı hesab edir. Biz Hüqonu daha çox oxuyuruq, daha yaxşı tanıyırıq. Bəlkə də bu, ilahi ədalətdir. Hər kəsi layiq olduğu yerə qoyur. Yeri gəlmişkən, bir məsələni qeyd edim ki, Viktor Hüqo krala şeir həsr etmişdi. Kral ona pul mükafatı ayırmışdı. Ancaq bu gün fransızlar Hüqoya yaltaq demirlər. Maksim Qorki, Şoloxov Stalini tərifləyiblər öz yazılarında. Ancaq rus xalqı Şoloxovla, Qorki ilə fəxr edir, onlara yaltaq demir. Bizdəsə vəziyyət başqa cürdür. Adətən qapalı və uğursuz cəmiyyətlər nifrətlərini boşaltmaq üçün səbəb axtarır, məqam gözləyirlər. Çalışmaq lazımdır ki, cəmiyyətin nifrətinin qurbanı olmayasan. Özünü bəyənməzlik, özünə ikrah belə çıxır ki, ancaq bizdə var.

Azərbaycan istedadlar ölkəsidir deyəndə kiməsə elə görünə bilər ki bu, mübaliğədir. Mən mübaliğə etmədən deyirəm ki, Azərbaycanda istedadlı insanlar çoxdur. Tarixən də olub. Önəmli məsələ istedaddan düzgün istifadə etməkdir. Ölkəmizdə savadlı, enerjili gənclər çoxdur. Onlar potensiallarını doğru istiqamətdə sərf etsələr

böyük uğurlar qazana bilərlər. Biz potensialımızdan lazımınca faydalana bilmirik. Enerjimizi sosial şəbəkələrə qurban verməsək ciddi işlər görə bilərik. Facebook insanlara şöhrət arzusunu gerçəkləşdirməkdə yardım edir. Heç bir faydalı işlə məşğul olmayan, ömrünü adamlara lağ etməyə, gülməyə, məsxərəyə qoymağa sərf edən yararsız adamlar da "mənim fikrim var” deyirlər.

Martin İden deyirdi ki, mənə şöhrət yox, şöhrətə gedilən yol maraqlıdır. Həvəsdən düşməməliyik.. Dünyanın hər yerində belədir. Sənət kütləvi deyil. Folkner deyirdi ki, ədəbiyyat dünyanı yox, fərdləri xilas edir. Sənət fərdlər üçündür. Hər kəsin anlamaq iqtidarında olduğu nəsnəyə sənət demək olmaz. Sənət şöhrətpərəst adamları bağışlamır və onları amansız tale ilə mübarizədə tək qoyur. Şöhrətpərəst adamlar dinləməyi, gözləməyi, razılaşmağı bacarmırlar. Onlar həmişə özlərini haqlı sayır və heç kəslə hesablaşmaq istəmirlər. Yazını dahi Anri Berqsonun fikri ilə bitirmək istəyirəm. **"Gördüyü işin əbədiliyinə əmin olan şəxs heç vaxt şöhrət dalınca qaçmır, çünki o, şöhrətsiz də çox rahatdır”**

**Ədalət qəzeti, 30. 10. 2018**

## Ədəbiyyat və kütlə

**Sənət kütləviləşəndə öz həqiqi mahiyyətini itirir. Ədəbiyyatı məna ağırlığına görə iki qrupa ayırmaq olar.**

1) Ciddi intellektual ədəbiyyat
2) Kütləvi ədəbiyyat

İntellektual ədəbiyyatın oxucusu çox azdır. Çünki robotlar insanların əvəzinə çalışmağa başlayandan sonra bəşər övladı tənbəlləşib. Müasir insan hər şeyi zehni və fiziki əmək sərf etmədən texnoloji imkanlar sayəsində tez zamanda əldə etməyə çalışır. Ükmumiyyətlə bir həqiqəti etiraf etməliyik ki, bizim cəmiyyətimizdə insanların özlərinə yazığı gəlir, onlar başqalarından mərhəmət umurlar. Əgər insanın özünə yazığı gəlirsə və özünə qarşı mərhəmətli davranış gözləyirsə demək ki, böyümək, inkişaf etmək, güclü olmaq istəmir. İnsan özünə qarşı amansız olmağı bacarmalıdır. Ancaq bu halda insan ciddi uğurlar qazana bilər. İntellektual ədəbiyyat heç yazıçıların arasında da

bir o qədər geniş yayılmayıb. Təbii ki, söhbət ən yeni dövrün Azərbaycan ədəbiyyatından gedir. Yazıçılarımızın ən birinci problemi oxucu problemidir. Lakin biz "oxucu yoxdur” fikri ilə razılaşa, barışa bilmərik. Əgər çatışmazlıq varsa və biz yazıçı kimi baş vermiş bütün problemlərə görə cəmiyyəti qınayırıqsa demək ki, hələ məqsədsiz, hədəfsiz yaşayırıq. Bu gün qeyri ciddi kitablar oxunur. Lakin ən azından oxunur. Qeyri-ciddi əsərlər yazdığını düşündüyümüz adamlar bizdən daha zəngindirlər. Xalq bizə yox, onlara inanır. Çünki onlar yaxşı geyinirlər, bahalı maşınlar sürürlər və s. Hər şeyin öz vaxtı var. Lakin təəssüflər olsun ki, biz gənc yazıçılar üzə çıxmaqda çox tələsdik. Yoxsul adamın dilində həqiqət öz dəyərini itirir. Xalq istəyir ki, həqiqətləri ona yüksək nüfuz sahibi olan şəxslər desin. Xalq qarşısında kasıb adam görmək istəmir. Azərbaycanda ciddi intellektual ədəbi nümunə tapmaq çox müşkül məsələdir. Bir zamanlar yaradıcılıq fakültəsində Əli Şirin müəllim gənc nəsil yazarlarına intellektual poeziya nümunələrini izah edirdi. İndi həmin yazarların əksəriyyəti ədəbiyyatdan tamamilə və ya qismən uzaqlaşıb başqa işlərlə məşğul olurlar. Ötən nəsil yazıçıları hələ də sübut etməyə çalışırlar ki, Sovet dövründə yaranmış ədəbiyyat həqiqətən də Azərbaycan dilini çöküşdən xilas edib. Sovet ədəbiyyatı kütləviləşmiş ədəbiyyat idi. Əxlaq cəmiyyətin diqtə etdiyi normalar sistemi olduğu kimi Sovet

yazıçıları da öz dövrlərinin övladı olmaqdan daha çox Sovet imperiyasının övladları idilər. Biz Stalin dövrünü görmədiyimiz üçün xoşbəxtik. Ədəbiyyatın kütləviləşməsinin əsas göstəriciləri intim hadisələr, ölüm, qanlı səhnələr, xəyanətdir. Kütlə bu hadisələri rahatlıqla oxuyub başa düşür. Kütlə sözünü istifadə edərkən çox diqqətli olmalıyıq. Kimsə bizə sən kütlə adamısan deyərkən xətrimizə dəyə bilər. Lakin biz kütlə sözünü çox asanlıqla işlədirik.
Yazının sonunda belə bir nəticəyə gəlmək olar ki, kütləvi ədəbiyyatın aktuallığı, oxunaqlılığı təbii haldır. İntellektual ədəbiyyat isə sanki tənəzzül mərhələsini yaşayır. 21-ci əsr insanları başlarını intellektual ədəbiyyat oxumaqla yormaq istəmir. İndi klassiklər kimi 5000 səhifəlik kitab yazsaq əlbəttə ki, oxucular üçün maraqsız olacaq. Dünya çox dəyişib və biz dəyişikliklər astanasındayıq. Artıq ədəbiyyatdan bəşəriyyəti xilas etmək məsuliyyətini gözləmirlər.

**Ədalət qəzeti, 06. 11. 2018**

## Mükəmməllik dərdi, həyəcanlarımız və ölüm

**Sübutsuz nəzəriyyələr elmdə ciddi qəbul edilmir. Bəs sübut olunan nəzəriyyələr tam mənada həqiqəti ifadə edə bilirmi? Bir çox qeydlər ehkam şəklində ifadə olunan fikirlərdən ibarətdir.**

Con Faulz özünün də qeyd etdiyi kimi, "Aristos" esselər və aforizmlər toplusunda bədii təsvir formalarının zənginliyi, müxtəlifliyi ilə öz fikirlərini beynimizə yeritmək istəyindən uzaqdır, yazıçının məqsədi bizə öz fikirlərini aşılamaq, bizi forma gözəlliyi ilə deyil, məzmun dərinliyi ilə tanış etməkdir. Con Faulz inanır ki, insana təbiət tərəfindən sağlam düşüncə, doğru mühakimə qabiliyyəti verilib. Bu, ziddiyyətli fikirdir. İnsan doğuluşdan ağıllıdırmı, yoxsa ağıl zəhmət hesabına əldə edilən mükafatdırmı? İnsanın yaşamı, dünyanın indiki vəziyyəti sağlam məntiqə uyğundurmu? Çağdaş dünyanın ciddi texk2noloji uğurları sadəcə məntiq hadisəsidirmi? Bəlkə də "insan doğuşdan ağıllıdır" fikrindən daha çox "doğuluş iradə hadisəsidir və insan doğuşdan iradəlidir" fikri daha düzgündür. Con Faulz hesab edir ki, bəşəriyyət bəşər övladları üçün əlverişli şəraitdədir. 1929-cu ildə doğulan Faulzun gəncliyi böyük dəyişiklik dövrünə rast gəlib. İkinci Dünya Müharibəsinin başlaması onun yeniyetməlik dövrünə təsadüf edir. Bəşəriyyət iki böyük imperiyanın qarşıdurmasına şahidlik edib, milyonlarla insan bu müharibənin qurbanı olub.

Maraqlıdır ki, gəncliyində bu dəhşətləri görən, eşidən, duyan Faulz nəyə görə insanların sağlam məntiqə sahib olduğunu düşünür?

İnsanlar həzz almaq istəyirlər, bəlli bir məqam üçün yeni bir həzz üsulu düşünüb tapırlar, ancaq zövq almaq istəyi yarananda beynində yaratdığı, düşündüyü həzzi həmin anda yaşaya bilmir. Con Faulz yazır ki, həyatımızda təsadüflərin də böyük rolu var, müəyyən bir hadisədən həzz almaq, başqa bir hadisədən isə bunu duymamaq təsadüflərə bağlıdır. Varlığımızın bir mahiyyəti, bir mənası olsun deyə içindəki bütün fərdi mahiyyətlərə tam biganə olan bir bütövlük içində yaşamağımız lazımdır. Bu cümləni oxuyarkən Mövlana Cəlaləddin Ruminin oğluna nəsihətini xatırladım. Mövlana oğluna məsləhət görür ki, namazını təklikdə yox, camaat içində qıl. Həmin an anladım ki, Allahın həqiqətən də məscidə, təkkəyə ehtiyacı yoxdur. Məscid, təkkə insanların öz dərdlərini, tənhalıqlarını bölüşəcəyi, sevinclərini, paklıqlarını paylaşacağı yerdir. İnsan öz içindəki bozluğa, qaranlığa, tərki-dünyalıq istəyinə uduzmamaq üçün təklikdən qaçmalıdır. Düzgün tərbiyə olunmuş fərdlərdən ibarət cəmiyyətdə azadlıq ciddi bir nailiyyət sayılır. Con Faulz yazır ki, yüz il sonra həyat indikindən qeyri-mükəmməl olacaq, iki yüz il sonra insanlar yüz il öncəni ən mükəmməl dövr sayacaqlar. Mükəmməlliyin

xiffətini çəkmək mənasızdır. Çünki dünya sonsuz proseslər çoxluğundan ibarətdir.

Biz ölümə iki səbəbə görə nifrət edirik. O, həyata vaxtından əvvəl son qoyur və biz ölümdən sonra nə olacağını bilmirik. Ölüm hər yaş üçün tezdir, heç kəs ölüm yatağında olanda “mən vaxtında ölürəm” sözlərini demir. Ekzistensialistlərə görə, insan öləcəyini bilən bir varlıq olduğu halda necə xoşbəxt olsun, necə sevinsin? Əgər sən fikir adamısansa, sənəti dərk edirsənsə, bir musiqi, bir kitab səni həyəcanlandıra, kövrəldə bilirsə, demək ki, tez-tez ölüm haqqında düşünürsən. İnsan həyatının böyük vaxtını ölüm haqqında düşünərək keçirir. Bəşəriyyətin savadlı qisminin böyük əksəriyyəti həyatdan sonrakı həyatın varlığına inanmır. Amma bu vəziyyətdə mümkün olan yeganə elmi yanaşma aqnostisizm mövqeyidir, biz sadəcə olaraq bilmirik. Ölümdən sonra həyatın olub-olmaması fikri bizi daim təqib edir. Bəzən biz, xüsusən də qocalanda, ölüm anı yaxınlaşanda həyatdan sonra həyatın varlığı ideyasına inanaraq özümüzə təsəlli vermək istəyirik. Həyəcanlarımızın çoxunun səbəbi də budur. İnsanda nələr həyəcan yaradır? Həyəcan anlayışı özündə müxtəlif mənaları ehtiva edə bilər. Məsələn, həyatın mənasını bilməmək həyəcanı, anlaşılmamaq, başa düşülməmək həyəcanı, istedadlı olub-olmadığını müəyyən edə bilməmək həyəcanı, düzgün seçim etmək, doğru qərar

verməmk həyəcanı, yadlaşma, unudulma, uğur qazana bilməmə həyəcanı və ən dəhşətlisi ölüm həyəcanı. Bütün bu həyəcanlar daim, yaşadığımız, nəfəs aldığımız, düşündüyümüz hər an bizi təqib edir. Biz özümüz öz təqibimizə məruz qalırıq, bu səbəbə görə də Con Faulz deyir ki, cəmiyyət, bəşəriyyət ya bütövlükdə azad olacaq, ya da məhv olacaq, əgər məqsəd xeyirxahlıqdırsa bu anlayış bütün bəşəriyyəti əhatə etməlidir. Əgər fərdi maraqlar, eqoist yanaşmalar olsa, bəşəriyyət bəşər övladı üçün öz əlverişlilik qabiliyyətini itirəcək və yaşanılmaz məkana çevriləcək. Yəni daha sadə dillə desək, yazıçı anlatmağa çalışır ki, ya hamımız birlikdə insan olacağıq, ya da məhvimiz qaçılmazdır. Labüd ölüm qorxusu belə bizi birləşdirmək iqtidarında deyilsə, başqa hansı duyğu, hansı qorxu, hansı ehtiyac bizi birləşdirəcək? Biz özümüzü eqoist fərd kimi yox, bəşəriyyətin vicdanlı nümayəndəsi kimi hiss edəcəyik.

Faulzun "Aristos" toplusu məni heyrətə gətirdi, həyəcanımı artırdı, mən bu ciddi fikirlərin ağırlığı altında əzilməkdən özümü böyük çətinliklə xilas edə bildim. Gəlin, bu ağır fikirləri hamımız birlikdə daşıyaq, əks halda tək-tək, hissə-hissə məhv olarıq.

**525-ci qəzet, 10. 11. 2018**

## Stendalın düşüncə və davranış modeli

**"... Bu roman indinin yox, gələcəyin romanıdır", "Məni uzun illər sonra anlayacaqlar, qəbul edəcəklər"...**

Sənət adamlarının bu cümlələri deməsi, təəssüf ki, şablon hala çevrilib. Ancaq bu sözləri Stendal kimi dahi yazar deyirsə, qəbul etmək lazımdır. Bəs Stendal yaradıcılığı, misal üçün, "Qırımızı və qara" romanı ilə özünün dediyi kimi, uğur qazanmasaydı, nə baş verərdi? Deyə bilərsiniz ki, önəmli olan özünəinamdır. Hansı yazar kitab yazarkən özünə inamsız olur ki? Məsələyə məntiqlə yanaşsaq, başa düşərik ki, Stendal bu sözləri romantizmin dünyanı cənginə aldığı dövrdə realist bir yazıçı kimi deyib və düşünüb ki, gələcək nəsillər daha rasional təfəkkürlü olacaqları üçün realizm romantizmi üstələyəcək.

I Napoleonun ordusunun tərkibində hərbi səfərlərdə iştirak etdiyi üçün Stendalın əsərlərində tarixi təsvirlərə geniş yer verilir. Ancaq Stendal istedadını təkcə tarixi hadisələrin mükəmməl təsviri ilə izah etmək yanlış olar. Dahi yazıçı

əsərlərində həm də insan düşüncəsinin dərin psixoloji qatlarına enməyi bacarıb. Onun yaradıcılığında hadisələrin ardıcıllığı, insan hisslərinin, narahatlığının ustalıqla təsviri bizi çaşdırır, o, qəbul olunmuş riyakar əxlaq qaydalarını gülüş hədəfinə çevirərək tənqid edir. Özlərini yüksək elita adlandıran savadsız, saxtakar adamlara layiq olduqları əsl yeri göstərir. Məşhur romanının adındakı "qırmızı" əsas qəhrəman Julienin zabitlik həyatını, qara rəng isə keşişliyini bildirir. Julien Sorel bu iki sahənin heç birində uğur qazana bilmir və əksər eqoist adamlar kimi öz uğursuzluğunun qisasını başqalarından almağa çalışır. Bu, intiqam hissi onun mübarizə əzmini artırır.

Stendalın romanları çətin anlaşılan əsərlər deyil. Stendal oxucunu çaşdırmaqdan, romanı anlamsız tərzdə ifadə etməkdən daha çox obrazların mahiyyətinin dərinliyinə xitab etmək, bütün həyat fəaliyyəti maddi prinsiplərə əsaslanan insanları cəzalandırmaqdır. "Qırmızı və qara" əsərində müəllif şöhrətpərəstliyin, bütün həyat fəaliyyətinin maddi dünyaya hesablanmasının insan üçün necə ağır fəlakətlər yarada biləcəyini göstərir.

Stendal bir gün qəzetləri vərəqləyərkən maraqlı məhkəmə prosesi ilə tanış olubmuş. "Qırmızı və qara" əsərinin yazılma ideyası həmin məhkəmə prosesindən qaynaqlanıb. Bu əsərdə biz Stendalın

Napoleona olan vurğunluğunu da görürük. “Qırmızı və qara” əsərini oxuyarkən Dostoyevskinin “Cinayət və cəza”sını xatırlamamaq mümkün deyil. “Qırmızı və qara”nın qəhrəmanı Julien Sorel özünü Napoleonla müqayisə edir. “Cinayət və cəza” romanının qəhrəmanı Raskolnikov da özünü Napoleonla tutuşdururdu. İkisi də məğlubiyyətə uğrayırlar. Çünki hər iki obraz əslində, Napoleonun həyatını mənimsəməyə, uğurlarını oğurlamağa çalışırlar. İnsan özünü başqa şəxsiyyətlərlə müqayisə edə bilər, amma başqalarının həyatını mənimsəməyə, uğurlarını oğurlamağa can atmaq yanlış münasibətdir. Biz niyə öz xarakterimizdən, həyata münasibətimizdən və həyatın bizə münasibətindən məmnun deyilik? Niyə əksər insanlar böyük şəxsiyyət olmaq istəyirlər? Yəqin razılaşarsınız ki, hər birimiz ən azından uşaqlığımızda gələcəkdə böyük adam olacağımızı xəyal etmişik. Bəs böyük adam kimdir? Kimləri böyük adam hesab etmək olar? Böyük adam deyərkən öz həyatlarını maddi dünyaya hesablayanlar vəzifə tutmağı, çoxlu pul qazanmağı düşünürlər. Elə haqqında bəhs etdiyimiz əsərin qəhrəmanı Julien Sorel də, savadlı gənc olmasına baxmayaraq, bütün həyat fəaliyyətini maddi uğurlar üzərində qurmaq istəyir. Juliken bələdiyyə sədrinin uşaqlarına təhsil vermə təklifini qəbul edir, ancaq onun arvadını, üç övlad anası, 30 yaşlı Matildanı başdan çıxarır.

Julienin istəyi həqiqi məhəbbət deyildi, məhəbbət ona özünü isbat etmək üçün önəmli idi. Julien yepiskop olsa da, Allaha inanmır, kilsəyə nifrət edir. Bu mesaj ədəbiyyatda yeni bir dövrün başlanğıcı sayıla bilər. Julien ərli qadını sevdiyini cəmiyyətdən gizli saxlamaq istəmir. Matildasa Julieni həqiqətən sevirdi. Bu məqamda Stendal bizə qadın psixologiyasının əzab çəkməyə necə həvəs göstərdiyini yazır. Qadınlar öz əzablarıylamı yüksəlirlər? Matilda sona qədər onu sevdi, son anadək onu xilas etməyə çalışdı. Ancaq Julienin sonu müsbət ola bilməzdi. Başqalarına əzab yaşadanlar daha tez boğulurlar. Özgələrinin əzablarından həzz almaq və bunu sənət adlandırmaq nə dərəcədə doğrudur? Biz real həyatda Julien kimi adamların tutulub cəzalandırılmasını, bədii əsərlərdə və filmlərdə isə belə fırıldaqçıların polisdən qurtulmasını istəyirik. Stendal bələdiyyə başqanının ailəsindəki uçurumu təsvir edərək, əslində, ümumilikdə elit təbəqəyə məxsus ailələrdəki ciddi travmanı, əxlaq böhranını, səmimiyyətin olmamasını ifadə edir. Səmimi münasibətlərin olmadığı cəmiyyətlərsə inkişafdan qalırlar.

**525-ci qəzet, 24. 11. 18**

## Coys narahatlığı, Mirzə Cəlil üsyanı

Ceyms Coysla aramızdakı yeganə oxşar cəhət bəlkə də, hər ikimizin çap olunan ilk yazımızın esse olmasıdır. Mənim də çap olunan ilk yazım Dostoyevskinin əsərləri haqqında yazdığım esse olub. Coysun çap olunan ilk essesi İbsenin "Biz ölü olanda oyanırıq" adlı əsəri haqqında idi. Bu cümlələri oxuyan bəzi oxucular düşünməsin ki, özümü Coysla müqayisə etmək niyyətindəyəm. Modernist irland yazıçısının "Ölülər" əsəri haqqında danışmaq istəyirəm. Coys bu əsəri 1907-ci ildə, 25 yaşında yazıb. Mirzə Cəlil də iki il sonra 1909-cu ildə eyni adda əsər yazıb. Görəsən, Mirzə Cəlilin Ceym Coysun bu əsərindən xəbəri var idimi? Bəs bu əsərlər arasında oxşar və fərqli cəhətlər nədir? Mirzə Cəlilin "Ölülər" pyesinin məqsədi cəmiyyət həyatında baş verən problemləri göstərmək idi. 2-3 il öncəki düşüncəmlə bu əsərləri müqayisə etsəydim təbii ki, üstünlüyü Coysun povestinə verərdim. İndisə məsələyə fərqli yanaşıram. Əslində bu iki müəllifi və bu iki əsəri müqayisə etmək ədalətsizlikdir. Çünki dövrlər eyni olsa da, şərtlər, sistemlər, xalqlar, coğrafi məkanlar fərqli idi. Novruzəli poçt qutusuna məktubla birlikdə düşünmə qabilliyətini də atırsa

buna Mirzə Cəlil neyləsin? Haqqında danışdığım əsərlərin ən önəmli fərqi də elə budur. Mirzə Cəlil cəmiyyətin cahilliyini, naqis cəhətlərini, çatışmaz tərəflərini izah etdiyi halda, Coys povestində klassik düşüncə ilə modernist düşüncə arasındakı sərhədləri müəyyən etmək, insanın daxili mahiyyətini anlamaq, ruh halını dərk etmək kimi məsələlərə toxunub. Məsələn, Coys bizə nəsillər arası savaşın səbəblərini izah etməyə çalışır. Hələ bir əsr əvvəl Ceyms Coys yazıb ki, yeni nəsillər həyata yeni düşüncə, yeni enerji ilə atılıblar. Onların yolu hətta yanlış olsa belə anlamağa, dəstək olmağa dəyər. Bu məqam mənə Dostoyevskinin bir cümləsini xatırlatdı: "Başqalarının doğruları ilə yaşamaqdansa öz səhvlərinlə yaşa". Povest 80 səhifədir, 80 səhifədə yazılan söhbətlər bir ziyafətdə baş verir. Müəllif hadisələr yaradıb, onları müxtəlif məna qatları ilə təsvir etməkdən daha çox öz fikrini bizə ziyafət zamanı yaranan dialoqlar vasitəsi ilə çatdırır. Povesti oxuyarkən qəribə hislər yaşadım. Kafkanı sevməsəm də onun bir fikri yadıma düşdü: "Mənim tənhalığım insanlarla doludur".

Coys 25 yaşı olarkən niyə belə bədbin olub? 25 yaşlı gənc həyatı belə dərindən anlaya bilərmi? Keçmişimiz niyə bizi daim təqib edir? Keçmiş nifrətlər, keçmiş uğursuzluqlar, keçmiş sevgilər niyə bizdən əl çəkmir? Ümumiyyətlə, hansısa bir hadisəni nəyə əsasən "keçmiş"

adlandırmaq olar? Əgər insan zaman maşınında öz həqiqi mahiyyətini itirirsə nəyin keçmiş, nəyin indi, nəyin gələcək olduğunu hansı zaman vahidi ilə müəyyən edirik? Əgər biz də cansız əşyalar kimi atomlardan ibarətiksə var olduğumuzdan necə əmin ola bilərik? İnsan özünü hansı şərtlərə əsasən “var” saya bilər? Yatmaq, oyanmaq, nəfəs almaq yaşamaqdırmı? Mən belə anladım ki, Ceyms Coys klassik ədəbiyyatdan fərqli olaraq düşünən adamları canlı, cahil adamlarısa ölü adlandırmır və ən əsası irland yazıçı ölülər deyərkən məzarda yatanları nəzərdə tutmur. Ölülər bizim unutmağa çalışdığımız, ancaq unutmağı bacarmadığımız, yaddaşımızın künc-bucağında gizlənib qalan adamlar və hadisələrdir. Modernist ədəbiyyatın klassik ədəbiyyatdan fərqlərindən biri də bu idi. İnsanın altşüuruna enmək, onu daha yaxından tanımaq, teatrı, ədəbiyyatı cəmiyyətdəki hadisələr əsasında qurmaqdan imtina edib, insanın daxili dünyasına nüfuz etmək. Bu mənada Mirzə Cəlilin “Ölülər”i ilə Coysun “Ölülər”i biri-birindən kəskin fərqlənir. Bəs görəsən, hansı obrazlar daha bədbəxtdir? Novruzəli, Şeyx Nəsrullah yoxsa Qabriel Konroy, Qreta, Meri Ceyn? Mirzə Cəlilin qəhrəmanları öz bədbəxliklərindən xəbərsiz idilər. Coysun qəhrəmanlarısa necə bədbəxt olduqlarını bilirlər. Qonorar qarşılığında qəzetə yazılar yazdığı üçün Qabriel Konroyu aşağılayırlar. Bu hadisə mənə cəmiyyətimizin yazarın öz yazılarından pul

qazanmasına necə mənfi münasibət göstərdiyini xatırlatdı. Qustav le Bon "Kütlələrin psixologiyası" kitabında yazır ki, cəmiyyətdə köhnəlmiş çürük fikirlər hakim olduğu üçün yeni fikirlər nifrətlə, ikrahla qarşılanır. Ceyms Coys da məlum povestdə bunu vurğulamaq istəyib. Coys öz povestində insan nə üçün var, nə üçün yaradılıb, insanın təyinatı nədir suallarına cavab axtarıb. İnsanlar yalanları bir həqiqətmiş kimi yaşayırlar. Bunu anlayan zamansa çox gec olur və gecikdiyin üçün yaddaşınınküncündə gizlənib sənə əzab verən keçmişin gələcəyinə qalib gəlir.

Keçmiş nəsil daha intellektual idimi? Keçmiş nəsil yerinə yaşlı nəsil desək daha nəzakətli olar. Dövrləri müqayisə etsək yaşlı nəsli 50-60 il əvvəlki zaman üçün intellektual saymaq olar. Amma 2018-ci ildə informasiyaların miqdarı, həcmi və sürəti o qədər çoxalıb ki, insan bu sıxlıqda ağlını itirir, dəli olmaq həddinə çatır. Coys "Ölülər" əsərində yazır ki, yeni nəsil əvvəlki nəsildən fərqli olaraq öz hislərini itirib. Bu məntiqlə bizə məlum olur ki, ən müasir insanda ümumiyyətlə hissi qavrayışlar yoxdur. Bu fikir çox da inandırıcı görünmür. Nə üçün biz həmişə keçmişin nostalgiyası ilə yaşayırıq, keçmiş günlərimizi geri qaytarmaq istəyirik? Gəcələyimizin uğursuz olacağını düşünürük, ya da keçmişdəki nöqsanların peşmanlığını yaşayırıq? Hər addım başı yaşlı nəsli tənqid edirik. Bizdən əvvəlki nəsil ciddi travmalar yaşayıb. Atalarını

ikinci dünya müharibəsində itirən həmin nəsil övladlarını Qarabağ savaşında itirib. Repressiya illəri, ikinci dünya müharibəsi, Qarabağ savaşı və digər dəhşətli hadisələr bizdən öncəki nəsillərdə ciddi psixoloji sarsıntı yaşadıb. Mirzə Cəlil bəlkə də Coysun əsərlərindən daha möhtəşəm əsərlər yaza bilərdi, ancaq Mirzə Cəlilin məqsədi dünya ədəbiyyatının ən müdhiş əsərlərini yazmaqdan daha çox Novruzəliyə kömək etmək idi. Bəzən sənət adamını xilası uğrunda mübarizə apardığı cəmiyyət məhv edir, ancaq ən ağır şərtlər altında belə doğma məmləkətinin inkişafı naminə çalışmaq, mübarizə aparmaq vacib və faydalıdır.

**Ədəbiyyat qəzeti, 24. 11. 18**

## "Martin İden" – uşaqlıq yalanımız

"Martin İden" ən çox oxunulan, ən çox sevilən romanlardan biridir. Əksər oxucular Martini müdafiə edirlər. Martin Rufun söhbətlərindən öyrənir ki, yazıçılara qəzetlər, jurnallar yüksək qonorar verirlər. Ağır zəhmətlə pul qazanmaqdan bezən Martinin ədəbiyyat

sevgisində maddi maraqlar var idi, O, öz eqosuna, öz şöhrətpərəstliyinə məğlub olur. Kübar həyata lağ etsə də məhz elit təbəqədə təmsil olunmağın həsrətini çəkir. Müəllif Cek London burada kübar görünüşlü ailələrin necə cahil olduğunu göstərir. Martin İden istəyinin ən maksimumuna çatır. Onun məqsədi Rufa qovuşmaq deyildi. Əslində onun məqsədi Rufu əldə etmək imkanına sahib olaraq öz eqosunu təmin etmək idi. Martin ali duyğularla yaşamaqdan daha çox hayqıraraq, bağıraraq demək istəyirdi ki, mən varam, mən mövcudam. Sənətin yaranışının səbəblərindən biri də insanların öz mövcudluqlarını isbat etmə ehtiyacı
deyilmi?

Romanı müxtəlif zamanlarda 4 dəfə oxumuşam. İlk dəfə Martin İdenə yazığım gəlib. 15 yaşım vardı. Onu anlamağa çalışmışam. Martin İdenın ədəbiyyat sevgisinin həqiqi olduğuna inanmışam. O zaman ağlıma gəlmirdi ki, Martinin məqsədi həqiqi ədəbiyyata xidmət etmək deyil, cəmiyyətdə öz yerini tapmaqdır. Bəs ümumiyyətlə

öz yerini tapmaq nə deməkdir? İnsan öz yerini tapdığından necə əmin ola bilər? Öz yerində olub-olmadığını təyin edən bir cihaz varmı? İnsanlara "yerindəsən" sualını vermək doğrudurmu? İnsanlar eqolarına sığınıb deyə bilərlər ki, mən öz yerimdə deyiləm, daha üstün yerlərdə olmalıyam və s. Axı insanlar özləri haqqında yüksək fikirdə olurlar. Əsəri oxuyarkən iki tərəf arasındakı ziddiyəti görürük.

1) Kitab oxuyub anlamayanlar və sənətə, mədəniyyətə dəxli olmayan söhbətlər edənlər.

2) Sənəti anlayıb aclıqdan əziyyət çəkənlər, cəmiyyət tərəfindən ciddi qəbul edilməyənlər

Bu müqayisə indi məmləkətimizdə də aktualdır. Çünki ölkəmizdə neçə yaltaq, xaraktersiz, qətiyyətsiz adam cəmiyyətə məcburən istedadlı şair, dəyərli yazıçı kimi təqdim edilib? Martin İdenin aşiq olduqdan sonrakı inkişafı Şərq poeziyasındakı ilahi eşqin doğurduğu zərurət deyil. Martin aşiq olduqdan sonra Rufla arasındakı ziddiyətlərin nə qədər dərin olduğunu anlayır. Bu məqamdə belə bir sual yaranır: İnsan özünü isbat

etməyə cəhd etməlidirmi? Özünü isbata cəhd göstərmə eqo deyilmi? Əlində Martin dənizçilik fəaliyyətinə davam etsəydi daha uğurlu olmazdımı? Martin İden cəsarətsiz deyil, sadəcə köntöydür, bizim kəndimizdə beləlderinə yontalanmamış adam deyirlər. Onun cəsarəti küçə döyüşlərində açıq-aşlar görünür. Martinin israrını, iradəsini yüksək qiymətləndirmək lazımdır. Nəşriyyatlar onun yazılarını dəfələrlə geri qaytarsalar da, o iddiasından imtina etmir, yazmağa davam edir. Əsas sual da budur ki, o çap olunmağı həsrətlə gözləyir yoxsa çapdan gələn pulu? Bunu bəlkə heç Cek London özü də bilmirdi.

Martin İdeni 15 yaşımda gecə saat 12- dən səhər 6-ya qədər birnəfəsə oxumuşdum. Anam deyirdi ki, maraqlı əsərləri çalış tez bitirməyəsən. Sonra belə maraqlı əsərlər tapmaya bilərsən. Kitabı oxuyub bitirəndən sonra peşman oldum. Gərək tez oxumayaydım. İrvinq Stounun "Yaşamaq yanğısı" əsərini də belə sürətli oxumuşam. Zamanla anladım ki, sürətli oxumaq kitabı yaxşı mənimsəməyə imkan vermir. Martin İden uşaqlıq yalanımızdır. Uşaq sadəliyi ilə Martinin saf qəhrəman olduğunu düşünürdük. Bu

əsər SSRİ- də yüksək səviyyədə təbliğ olunurdu. Təbii ki, səbəb Cek Londonun sol meyilli olmasıdır. Martin İdeni qazandığı böyük pullar və hədsiz şöhrət məhv edir. Məsələn mən bu yaşda böyük pul və şöhrət əldə etsəm bu cür yüksək uğurları idarə etməkdə çətinlik çəkərəm. İndi mən yüksək şöhrətə hazır deyiləm. Bu gün bizik saytlarda 500-1000 nəfər oxuyur, bir gün yuxudan qalxıb görsək ki, 500 min, 1 milyon soydaşımız kitab oxuyur. O halda nə edəcəyik? Biz belə sürpriz yeniliklərə hazırıqmı? Mən şöhrətin və pulun sənət adamlarını necə bitirdiyini görmüşəm. Martin Pajın dediyi kimi, sənətə pul və şöhrət mənbəyi kimi baxmaq tərbiyəsizlikdir. Martin İden şöhrətə hazır deyildi, Martin İdeni şöhrətə hazır olmaması məhv etdi. Bəlkə elə Cek London da şöhrətə hazır deyildi.

Bütün mənfi və müsbət tərəflərinə baxmayaraq bu romanı dəfələrlə oxumağa dəyər. Oxuyun ki, özünüzü bayağılaşmaqdan xilas edə biləsiniz.

**Olaylar qəzeti, 13.11. 18**

## Çağdaş dünya – mənasızlığın təntənəsi dövründə

Çağdaş dünya ədəbiyyatının ən nüfuzlu yazıçılarından biri Milan Kunderadır. Məndən Kunderanı bir cümlə ilə ifadə etməyimi istəsələr, cavab verərdim ki, o, insanı özündən daha yaxşı tanıyan, insan psixologiyasının peşəkar bilicisidir. Onun kitablarını oxuyarkən insanda belə bir təəssürat yaranır ki, yazıçı obrazların daxilində yaşayır. Sanki obrazların beyni ilə oynayır, istədiyi anda onların sinir nöqtələrinə toxuna bilir, obrazların şüuruna müdaxilə edir. Kundera deyir ki, roman müəllifdən daha ağıllı olmalıdır. Nümunə kimi Fransa ədəbiyyatını göstərir. Kunderanın son romanı "Mənasızlığın təntənəsi" haqqında danışmaq bir qədər çətin olsa da, cəhd göstərməyə dəyər. Öncəlikələ onu qeyd edim ki, kitabın üz qabığındakı rəsmi müəllif özü çəkib. Bu rəsmi müxtəlif yerlərə yozmaq olar. Mkən onu təqribən belə anladım. İnsan çox şey deməyə cəhd edirsə, əslində, deyəcək sözü yoxdur. Taleyranın dediyi kimi, nitq insana danışmaqdan daha çox fikrini gizlətmək üçün verilib. Əgər çox danışırsansa mahiyyətsiz, məzmunsuz danışırsan. İnsan hər şeyi görməyə cəhd edirsə əsas hədəfini itirir, əsl məqsədini unudur. Yaşadığımız dövrdə

hər gün minlərlə informasiya qəbul edirik. Bunun nəticəsində öz həqiqi mahiyyətimizdən uzaqlaşır, özümüz özümüzə yad gəlirik. Yadlaşmanın, mənasızlaşma duyğusunun səbəbləri bunlar deyilmi? Biz çağdaş dünyanın insanları öz yaratdıqlarımıza məğlub oluruq. Bizim nöqsanlarımızı indi psixoloqlardan, müəllimlərdən daha çox robotlar, maşınlar, ağıllı texnoloji cihazlar müəyyən edir. Kundera özü mənasızlığın təntənəsini belə izah edir: "Ən ciddi problemləri işıqlandırmaq, ancaq ciddi söz söyləməmək, müasir dünyanın reallığına heyran qalmaq, bununla belə hər cür realizmdən uzaq durmaq."

Əsərdə çox ciddi suallar verilir və bu suallara cavablar axtarılır. "Xəstə olmadığımız halda niyə xəstəlik uydururuq, niyə cəmiyyətə mən ağır xəstəlikdən əziyyət çəkirəm" mesajını veririk. Kundera müsahibələrindən birində deyib ki, insanlar daim diqqət mərkəzində olmağa çalışırlar. Bunu intellektləri ilə bacarmayanda diqqət çəkmək üçün qeyri-adi hərəkətlər edirlər. Bu qeyri-adi hərəkətlər içində bəzən ən ağlasığmaz olanlarını da görürük. Diqqət mərkəzində olmaq istəyi nədən qaynaqlanır? Bu istək eqoya xitab edir. İnsanın içindəki eqoizm qışqıraraq "mən varam" demək istəyir. Diqqət çəkmədən danışmaq asan məsələ deyil, həmişə danışmaq, ancaq heç vaxt eşidilməmək insandan məharət tələb edir. Bu cümlədə Kundera bizə müasir dünyada yaşamağın

yolunu öyrədir. Müasir dünyaya qarşı sözlə, qılıncla və başqa vasitələrlə mübarizə aparmaq mənasızdır. Müasir dünyaya qarşı mübarizə aparmağın tək yolu onu ciddiyə almamaqdır. Dünyanı ciddiyə alsaq da, almasaq da hamımız onun ağır şərtləri ilə hesablaşmağa məcburuq. Dünyada baş verən hadisələr bizim iradəmiz xaricindədir. Əslində, bizim dünyanı anlama tərzimizdə bir yanlışlıq var. "Astagəllik" romanında Kundera yazır kı, astagəllik həmişə aldadır, tələskənlik isə unutdurur. Biz yaşadığımız dünyada astagəl və ya tələskən, aldadan ya unudan, aldadılan və ya unudulan olduğumuzu müəyyən edə bilmirik. Bu halda da dünyanın daha ciddi proseslərini öyrənməyə cəhd göstəririk.

"Mənasızlığın təntənə"sində Kundera yazır ki, Biz həyatın amansızlığını görüb özümüz də amansız olmaq istəyirik, öz amansızlığımıza "həyat amansızdır" deyərək haqq qazandırırıq. Biz insanlar sakit olduğumuz qədər də təhlükəliyik. "Astagəllik" romanını oxuyanda özümə sual verirdim: Astagəl olmaq lazımdır, ya tələskən? Təəssüf ki, mən həmişə tələskən oldum. Ancaq astagəl olmaqda daha böyük fayda var imiş. Tələskənlik gəncliyə məxsus cəhətdir, gəncliyin səhvi də elə bundadır.

Vaxt uçur, əvvəlcə vaxtın içində yaşayırıq, sonra ölürük, bir neçə il bizi tanıyanların xatirəsində qalırıq, amma aradan qısa vaxt keçir və

hər şey dəyişir. Ölülər köhnə ölülərə çevrilir, daha heç kəs onları xatırlamır və onlar heçlikdə itib batırlar. Kunderanın haqqında danışdığımız sonuncu romanı insanda pessimist düşüncələr yaradır, insanı həyatdan soyudur. Çağdaş dünya ədəbiyyatında insanı mübarizəyə səsləyən, insanda həyat eşqi yaradan düşüncələrə çox nadir hallarda rast gəlirik. Dünya ən ciddi problemlərini həll edib bitiribmi, yoxsa Kunderanın "Zarafat" əsərində dediyi kimi, öz ciddiliyini itirib, zarafatdan sonrakı dövrünü yaşayır və ya bütün həqiqətləri deməyi bacarsa da, əslində, eşidilməmək istəyir? Yazını ən çox sevdiyim yazıçılardan biri Aziz Nesinin Milan Kundera haqqında söylədiyi fikirlərlə bitirmək istəyirəm: "Romanların mənbə kimi həyati hadisələrə istinad etməsi bəlli məsələdir. Ancaq Kundera bu həyati hadisələri lazım olan zaman, ehtiyac duyulan yerdə elə ustalıqla təsvir edib ki, əsəri həyati hadisə məcrasından çıxarıb roman halına salıb. Önəmli olan budur ki, Kundera detalları incəliyinə qədər, yerli-yerində, oxucuların zövq almasını və özlərini hiss etməsini təmin edərək təsvir etməyi bacarıb. Əks etdirdiyi hər təsvirdə öz duyğularımızı tapırıq".

**Kaspi qəzeti, 24. 11. 2018**

## Kitablar bizi aldadırmı?

Kitablar həyatımızı dəyişirmi, xarakterimizə təsir edirmi? Orhan Pamukun "Yeni həyat" romanı bu cümlə ilə başlayır. "Bir gün bir kitab oxudum və həyatım dəyişdi". Mənə elə gəlir ki, həyatımızı təkcə bir kitab yox, ani bir hadisə, gözlənilməz bir dialoq dəyişə bilər. Bəlkə kitaba mistik dəyər qazandıran səbəblərdən biri də budur. Karlos Mariya Domingez "Kağız ev" povestində yazır ki, Hessenin "Demian" əsəri sayəsində minlərlə gənc hinduizmə tapındı, Heminquey onları idmançılara çevirdi. Düma minlərlə qadının həyatını alt-üst etdi və həmin qadınları kulinariya kitabları xilas etdi. "Kağız ev" əsərinin həcmi az olsa da oxuculara tövsiyə edirəm ki, bu kitabı tələsik oxumasınlar. Hər abzasdan, hər səhifədən sonra düşünsünlər, təhlil aparsınlar. Kitabı ana dilimizə Əziz Rzazadə tərcümə edib. Xanım Blyuma Lennon Emili Dikkinsonun şeir toplusunu alır və yolda sonetləri oxumağa başlayır. Bu zaman onu maşın vurur. Professor Robert Lorel mərhum haqqında bəlağətli nitq söyləyir:

- Blyuma həyatını ədəbiyyata həsr elədi, lakin ağlıma da gəlməzdi ki, onu aramızdan məhz ədəbiyyat aparar.

Bir neçə gün sonra Con Bernon Lorel ardıcıllarına deyir:

- Onu maşın öldürdü, poeziya deyil.

- Con Bernon reallığı sərt şəkildə dediyinə görə onu sevmirlər.

Kitablarımızın sayını nəyə görə artırırıq? Qəhrəmanımız deyir ki, tanıdığım bir professor evinə qonaq gələrkən qəhvəni qəsdən gec gətirirdi ki, qonaqları onun kitabxanasına baxsınlar, kitablarla tanış olsunlar. Çox vaxt kitablardan qurtulmaq onları əldə etməkdən daha çətindir. Bəzənsə kitabxanamız aşıb-daşır. Kitabların sayı sürətlə çoxalır. Bir zaman qürur mənbəyimiz olan kitabxanamız sonra əziyyətli yükə çevrilir. Domingez bu əsərdə həm də yazıçı-nəşriyyat probleminə toxunub. Nəşriyyatlar çap etmək üçün ciddi kitab tapa bilmədiklərini, yazarlarsa hər cür mənasız yazıların çap olunduğunu deyirlər. Bəs, hansı tərəf haqlıdır? Yazıçı hər şeyi nəşriyyatdan gözləməkdə haqlıdırmı? Bir zaman biz işsiz olarkən istədiyimiz kitabları ala bilmirik, ancaq işlə təmin olunduqdan, pul qazandıqdan sonra istədiyimiz kitabları ala bilsək də onları oxumağa zamanımız və enerjimiz çatmır. Kitablar taleyimizə təsir etdiyi kimi biz də kitabların taleyinə təsir edirik. Hətta bəlkə kitabların rəflərimizdəki düzülüş qaydası həm bizim, həm kitablarımızın taleyinə təsir

göstərir. Dominguez bu əsərdə iki əsas suala cavab axtarır:

1) Kitabların taleyi varmı?
2) Kitablar insanların taleyinə təsir göstərə bilirmi?

Əsərdə yazıçı simvollardan istifadə edib. Əsərdə bənnaya pəncərə dayaqlarının kitablardan hörülməsi tapşırığı verilir. Kitabın toxunduğu vacib məqamlardan biri budur: "Kitablardan ev qurmaq olarmı". Bütün həyatımızı kitablar əsasında qursaq məğlub olarıq. Gərək öz təcrübələrimizə, öz təhlil etmə bacarığımıza istinad edək. Söhbət kağızlardan fiziki mənada ev qurmaqdan getmir. Səadət bütün ömrünü tozlu kitabxana rəfləri qarşısında keçirmək deyil. Əsərin ən maraqlı obrazı Delqadodur. Kitab eşqiylə yaşayan adamlar əsəri oxusalar yəqin ki, onlar da mənim kimi Delqado obrazına üstünlük verəcəklər. Delqado Xanım Blyumanın ölümünün təsvir etdiyi kimi olduğunu biləndə çox da təəccüblənmədi. Xanım Blyumaya göndərilən kitabın üzü sement və tozla örtülmüşdü. Kitablardan yuva qursaq da dağılır. Karlos Brauerlə xanım Blyuma sanki bəsirətçilik yarışı aparırlar. Brauer qadını təəccübləndirməyi bacarır. Həyatda da belədir. Bəzən özümüzü sübut

etmək, kiməsə göstərmək üçün ağlasığmaz hərəkətlər edirik.

Məişət avadanlıqları sıradan çıxır, güldanlar sınır, televizorlar xarab olur, ancaq kitablar sahibi istəmirsə cırılmayacaq, yandırılmayacaq. Son hərbi diktatura dövründə Argentinada bir çoxları kitabları unitazlarda, vannada yandırır, topladıqlarını evin uzaq guşəsində məhv edirdilər. O zamanlar kitablar adamların üzünə dururdu, insanları sındırırdı. Kitablara bəşəriyyətin münasibəti heç də hər zaman birmənalı olmayıb. Bəzən kağızlar zərərli aludəçilik əlamətləri yaradırlar və insanlar bu aludəçilikdən xilas ola bilmirlər.

Həyat ziddiyyətlərlə doludur. Hegel fəlsəfəsi bizə öyrədib ki, təbiətdə hər şey öz ziddi ilə mövcuddur. Təbiət, həyat durduqca hər şey öz ziddi ilə mövcud olmaqda davam edəcək. Xeyirlə- şərin mübarizəsi də həmişə davam edəcək. Makedoniyalı İsgəndər Əhəməniyyə imperiyasına hücum edərkən minlərlə kitabın saxlanıldığı kitabxananı yandırdı, yanan kitablar arasında Avesta da var idi. Nasistlər Almaniyada hakimiyyətə gələrkən “Cinsi münasibətlərin araşdırılma institu” nun kitabxanasını, arxivini

yandırıblar. Şri- Lankadakı Caffna xalq kitabxanasında 1981-ci ildə səbəbi bilinməyən yanğın nəticəsində 90 min kitab məhv oldu. 1984-cü ildə kitabxana yeniləndi, təmir olundu, ancaq xalq arasındakı silahlı toqquşmalar zamanı kitabxana döyüşçülərin iqamətgahına çevrildi və bir daha dağıldı, xarabalığa çevrildi. 2004-cü ildə hökümətin və xeyirxah adamların dəstəyi nəticəsində kitabxana yenidən istifadəyə verildi. Misirin "Bilgi məbədi" Ərəb baharı zamanında atılan Molotov kokteyllərinə görə yandı. Yuli Sezarın hücumu nəticəsində İsgəndəriyyə kitabxanası yandı, deyilənlərə görə kitabxanada 700 min kitab var idi. Məqsədim yanan kitabxanalar haqqında informasiya vermək deyil. Bu haqda internetdə yetərincə məlumatlar var. Mən başqa məsələyə toxunmaq istəyirəm. Hökmdarların hücumları nəticəsində kitabxanalar yandırılıb, minlərlə kitab məhv edilib. Ancaq sonra kitabxanalar yandıran həmin hökmdarlar haqqında yüzlərlə, minlərlə kitablar yazılıb. Kitab yandıran adamlara kitablar həsr edilib. "Kağız ev" əsərini oxuyarkən bunları düşündüm. Beynimdə ən çox səslənən cümləsə bu oldu. Kitabları

yandırmaq səadət gətirmir, kitabdan ev qurmaq da bizə xoşbəxtlik vəd etmir.

**Ədəbiyyat qəzeti, 08. 12. 2018**

## Estebanın möcüzəvi kəndi

***Bu cür adamın adı şübhəsiz ki, Esteban olmalı idi. Bu, həqiqət idi. Onun adının Esteban olduğunu bilmək üçün ölüyə ötəri bir nəzər salmaq kifayət idi.*** (“Dünyanın ən gözəl ölüsü” hekayəsi).

Hekayəni Natiq Səfərovun tərcüməsində oxumuşam. Estebanın cəsədini balaca kəndə gətirib çıxaran səbəb şübhəsiz ki, Markesin mistik təfəkkürü, ədəbi yaradıcılığının əsasını təşkil edən magik realizmdir.

Azərbaycan oxucusu Markeslə 1978-ci ildə İshaq İbrahimovun tərcümə etdiyi “Polkovnikə məktub yoxdur” əsəri sayəsində tanış olub. Bu əsər “Ulduz” jurnalında çap olunmuşdu. Təbii ki, Markesin sovet xalqlarına təqdim edilməsinin səbəbləri siyasi idi. Cek London sosialist düşüncəyə meyl etdiyinə görə Sovet dövründə “Martin İden” romanı rus dilinə tərcümə edilmişdi. Sonra bu roman digər sovet xalqlarının dillərinə də

tərcümə edildi. Markesin Sovet dövründə Azərbaycanda tərcümə edilib çap olunmasının da əsasında siyasi motivlər dayanırdı. Markes haqqında düşünərkən yazarlarımızın məşhur bəhanəsini xatırlayıram. Bizim bəzi yazarlarımız iddia edirlər ki, qəzetlərə, saytlara qonarar qarşılığında yazı yazmaq onlara ciddi kitablar yazmağa mane olur. Dünya ədəbiyyatına nəzər salanda məlum olur ki, əksər yazıçılar ədəbi fəaliyyətlə yanaşı alternativ sahələrdə də çalışıblar. Ədəbiyyat insana ya pul qazandırmır, ya da çox gec qazandırır. Dahi Markes də jurnalistika, müxbirlik fəaliyyəti ilə yanaşı kitablar yazırdı. Qabriel Qarsiya Markes haqqında yazmaq həm çətindir, həm də asan. Asandır ona görə ki, Markesin kitabları Azərbaycan dilinə tərcümə edilib, həm Şərq-Qərb nəşriyyatında, həm də Qanun nəşriyyatında çap edilib. Yəni, hətta xarici dilləri bilməsəniz də bu kitabları doğma ana dilimizdə oxuya bilərsiniz, üstəgəl də internet Markes haqqında informasiyalarla doludur. Onu tanımaq üçün imkanlarımız çoxdur. Sadəcə səbirli olub oxumaq, araşdırmaq, təhlil etmək lazımdır. Çətindir ona görə ki, Markes haqqında çox yazıblar, çox danışıblar. Həm də Markes kimi dahi yazıçı haqqında nə danışmaq, nə yazmaq olar? Nəsə yazmağa cəhd etsən deyəcəklər ki, Markesi tanıyırıq, tanımadığımız yazıçılardan yaz. Ancaq bu məqamda sual oluna bilər: Markesi həqiqətən tanıyırıqmı, yazıçının əsərlərini düzgün təhlil edə

bilmişikmi? Eqomuzu kənara qoysaq yəqin ki, bu suala böyük bir "YOX" cavabını verərik.

Yazar dostlarımızın əksəriyyəti Markesin "Yüz illik tənhalıq" əsərini çox bəyəndiklərini deyirlər. Oxucuların əksəriyyətisə "Vəba günlərində eşq" kitabını sevirlər. Markesin bütün əsərləri möhtəşəm olsa da mən daha çox "Dünyanın ən gözəl ölüsü" hekayəsini və "Polkovnikə məktub yoxdur" povestini sevirəm. Müsahibələrindən birində yazıçı bildirib ki, "Yüz illik tənhalığı" ona görə yazmışam ki, "Polkovnikə məktub yoxdur" u oxusunlar. Markesin müsahibələrində belə ironik məqamlar çoxdur. Müsahibələrini oxuyarkən onun hansı anda ciddi, hansı anda qeyri- ciddi olduğunu müəyyən etmək çətindir. "Yüz illik tənhalıq" da biz bir nəslin bir əsrlik faciəsini görürük və anlayırıq ki, doğulan, yaranan hər kəs və hər şey zamanla tənəzzülə məhkum olur. Əksər əsərlərində olduğu kimi bu romanda da Markes mifoloji, mistik məqamlara istinad edib. Yazıçı romanı iki ilə yazsa da, romanın hadisələri, ziddiyyətli məqamları haqqında 16 il düşünüb. Markes "Yüz illik yalnızlıq" kitabında yazır ki, ancaq bəsit həqiqətlərlə yaşayan adam özünü xoşbəxt saya bilər. Bəşər övladı daim bu suala cavab axtarır: " Mən xoşbəxtəmmi, xoşbəxtlik nədir, xoşbəxt olmaq üçün nə etmək lazımdır". Markes bizi öz yaşadıqlarımıza təkrarən

qayıtmağa, keçmişimizi bir daha təhlil etməyə çağırır. Markes deyirdi ki, özümdən heç nə uydurmuram, Latın Amerikasında gördüyüm hadisələri və həyat tərzini yazıram. Tənqidçilərsə bu sözlərə inanmırdılar və Markesin bu fikrini təkzib edirdilər. Markes özünün dediyinə görə gənc yaşlarında bir həmyaşıdı ilə mübahisə edərək deyib ki, o da yaza bilər, onun da nəslindən dünya şöhrətli yazıçı çıxa bilər. O, şübhəsiz ki, dünya şöhrətli yazıçı ola bildi. Ölümündən sonra yox, məhz yaşadığı dövrdə o artıq zirvənin ən üst pilləsində idi. Onun yaradıcılığında xalq dilinin nağılvari üslubunu, magik realizmə xas ədəbi fəndləri görmək olur. Arakataka şəhərində doğulsa da Markes Makonda şəhərini daha məşhur etdi və dünyaya tanıtdı. Babasının ölümündən sonra Markes doğulduğu şəhəri tərk etdi. Markesin babası polkovnik idi. Polkovnik obrazı Markesin yaradıcılığının əsas obrazlarından biridir. Sözün düzü "Polkovnikə məktub yoxdur" əsərinin qəhrəmanının onun babası olub-olmadığını demək çətindir. Bu əsərdə ən sevdiyim cəhət polkovnikin qürurlu olmasıdır. Oğlunu itirən 75 yaşlı polkovnik təqaüdün gələcəyini gözləyir. Ancaq polkovnikə heç kim yazmır. Markesin əsərlərinin ən qeyri-adi cəhətlərindən biri də budur ki, onun əsərləri haqqında nəsə yazmaq, nəsə danışmaq olmur. Onun hansısa bir romanı haqqında təhlil yazmaq çətindir. Markesin yaradıcılığından hər kəs fərqli nəticələr çıxara bilər. Məsələn,

“Dünyanın ən gözəl ölüsü” hekayəsini oxuyan adamlar müxtəlif nəticələrə gələ bilərlər. 5 il əvvəl bu hekayəni oxuyan zaman gəldiyim nəticə indikindən çox fərqli idi. Dünən hekayəni bir daha oxudum, Bu dəfə tam fərqli nəticələrə gəldim. Yəqin ki, mütaliənin möcüzəvi, sirli tərəflərindən biri də budur. Yazıçı mətni hansı ovqatda yazıbsa oxucu da gərək əsəri həmin ovqatda oxusun. Yazıçının ovqatını bilmədən əsəri anlamaq olmur. Ədəbi tənqidçilər Markesi hoqqabazlıqda günahlandırırlar. Nobel mükafatçısı deyir: Yazıçı olmağıma görə balıqlar bürcü altında doğulmağıma və arvadım Mersedesə borcluyam. Markes jurnalist təcrübəsinə sahib olduğu üçün özünü reklam etməyin, daim diqqət mərkəzində olmağın yollarını yaxşı bilirdi. Eşq həm gündəlik, həm də daimi həqiqətdir, insan eşqsiz qalanda qocalır. Bunu mən demirəm, Markes deyir. Bu məqamda mən də Markes kimi düşünürəm. Ahıl çağında da yazıçı dünyanı, insanları sevirdi. Ölüm qocalıqla deyil, unudulmaqla gəlir deyən yazıçını ömrünün sonlarına yaxın görəsən kimlər hansı səbəblərə görə unutmuşdu? Onun əsərlərində pessimist fikirlər olsa da, bizi həyata bağlayacaq ciddi fikirlər də var. Maraqlıdır ki, Markesin nikbin fikirləri aforizmlər kimi çoxlarının yaddaşında qaldı. Bu aforizmlərə bir neçəsini nümunə göstərmək olar:

“Bütün dünya üçün adi bir adam ola bilərsən, ancaq bir insan üçün bütün dünya ola

bilərsən”

“Hər zaman gülümsə, unutma, kimsə təbəssümünə aşiq ola bilər”

“Dərdlərini zəkaya çevir”

Belə aforizmləri uzatmaq olar. Məqsədim bu, deyil. “Dünyanın ən gözəl ölüsü” hekayəsi haqqında danışmaq istəyirdim. Markesin sehri məni hekayə haqqında danışmaqdan uzaqlaşdırdı. Bu hekayəni oxuyarkən insan özünə sual verir: “Esteban kimi ölü olmaq yaxşıdır, yoxsa sıradan bir adam kimi diri olmaq”. Qadınlar bir cəsədə aşiq olurlar. Markes cəsədi elə möhtəşəm təsvir edib ki, insan heyran olur. Cəsədin kiçik bir kəndə gəlib çıxması qadınlar üçün bayram olur, hətta qonşu kəndlərdən Estebanı görməyə gəlirlər. Onun dəfni xüsusi təntənə ilə qeyd olunur. Hekayəni oxuyarkən insan düşünür: Estebana sağlığında belə diqqətli yanaşıblarmı, ona qayğı göstərənlər olubmu? Onu bu balaca kəndin qadınları kimi sevən olubmu? Özümdən asılı olmadan bu hekayəni oxuyarkən Conatan Sviftin “Qulliverin səyahəti” əsərini xatırladım. Balacalar dünyasında xoşbəxt olan Qulliver böyüklər diyarında bədbəxt idi. Bu əsəri uşaq ədəbiyyatına aid etmək nə dərəcədə doğrudur? Görəsən, Esteban da Qulliver kimi sadəcə balacalar diyarında böyük sayılırdı?

***... Baxın, baxın, yaxşı baxın, orda külək elə mülayimdir ki, gecə-gündüz çarpayının***

***altında dincələr, günəş elə işıqlıdır ki, günəbaxanlar hansı səmtə boylanacağını bilməzlər; orda, bəli, orda Estebanın kəndi yerləşir.***

Esteban ölmüşdümü?

**525-ci qəzet, 12. 08. 2018**

## Həqiqətin uzaqlarda axtarışı

Nəyə görə həqiqəti daim uzaqlarda axtarırıq? Bu sual ətrafında çox düşünmüşəm. Mörfi qanunu bizə deyir ki, nəyisə gizlətmək istəsən onu insanların ən çox olduğu yerə at. Bəlkə həqiqət də elə insanların çox olduğu yerdədir. Sadəcə insanlar biri-birilərinə inanmadıqları üçün zənn edirlər ki, həqiqət onların yanında deyil, uzaqlarda- insanların olmadığı, ya da az olduğu yerdədir. Siddhartha ailəsi ilə birlikdə yaşayır, məktəbə gedir. Ancaq hər zaman axtarışda olur. Nə axtardığını müəyyənləşdirmək istəyir. Dünyada acgözlüyün, tamahın, yalanın, riyakarlığın, müharibələrin olduğunu görən gənc dərin bir mənəvi boşluq yaşayır. Bu zamanadək öyrədilən təlimlər ona kömək olmur. O, mənəvi boşluğunu doldurmaq üçün müxtəlif yollar axtarır. Siddhartha brahman övladı idi, o da Budda kimi zəngin həyat tərzindən imtina edir, həqiqəti tapmaq üçün öz yerindən, yurdundan didərgin düşür. Siddhartha gənc yaşında doğma insanlarını və evini tərk edir. Gəncin məqsədi öz ağlı və qəlbi

üzərində hakimiyyət qurmağı öyrənmək idi. Əgər sən həqiqəti tapmaq üçün sahib olduğun hər şeydən imtina etməyə qadirsənsə demək ki, həqiqət axtarışında səmimisən. Əgər sənin sahib olacağın heç nə yoxdursa, və ya cüzi imkanlar varsa, bu imkanlardan da imtina etmə cəsarətinə sahib deyilsənsə həqiqət axtarışında səmimi deyilsən.

Əsəri Azərbaycan dilinə Kifayət Haqverdiya tərcümə edib. Kitab 2011-ci ildə Qanun nəşriyyatında çap olunub. Bu əsər haqqında təhlili bir neçə il öncə yazmışdım, təəssüf ki, o yazını itirdim. Bəlkə də yazının itməsinə sevinməliyəm. Yazdığım esse itməsəydi, indi bu əsər haqqında yazmaq zərurətim yaranmazdı.

Bu məqamda mən bir məsələ ətrafında ciddi-ciddi düşündüm. Həyatda heç bir uğuru olmayan adamla, bir çox uğurlar əldə etmiş adamın vicdan, ədalət kimi nəsnələrə baxışları fərqli olur. Heç nəyə sahib olmadan vicdandan, ədalətdən danışmaq asandır. Ancaq ən böyük imkanlara sahib olduğun zaman vicdan, ədalət haqqında heç nəyin olmadığı zamandakı kimi əminliklə danışa biləcəksənmi? Axı həqiqət axtarışı, vicdanlı olmaq, ədalətli davranmaq bizdən ciddi qurbanlar verməyimizi tələb edir. Biz bu qədər ağır bədəl ödəməyə hazırıqmı? Yoxsa, sadəcə eqoist zehniyyətimizə sığınıb özümüzü vicdanlı, ədalətli göstərmək istəyirik? İnsanların

düşüncəsində elə bir fikir yaratmaq istəyirik ki, biz imtina etməyə hazırıq. Yetər ki, dünyada sülh, vicdan bərqərar olsun. Sizcə də çox pafoslu səslənmirmi? Ya da sualı belə qoyaq: Dünyanın bizim qurbanlarımıza ehtiyacı varmı?

Dostu Qovinda da Siddhartha ilə birlikdə getmək istəyir:

"Mən də səninlə gəlirəm, mən də həqiqəti tapmaq, özümə, özlüyümə qovuşmaq istəyirəm"

Rahiblərlə tanış olurlar. Rahiblər daim çöllərdə, aclıq, səfalət içində yaşayırlar. Kəndlərə gedirlər, meditasiya ilə məşğul olurlar. Getdikləri yerlərdə kənd sakinləri onlara çörək verir. Onlar öz bədənlərinə ağlasığmaz işgəncələr verirlər. Uzun illər sonra Siddhartha bütün bunların mənasızlığını anlayır və dostuna deyir ki, bu işgəncələrlə, bu məhrumiyyətlərlə axtardığım məmnuniyyəti, hüznü, səadəti tapa bilmirəm. İki dost hər kəsin fəlsəfəsinə, təliminə heyran olduğu Qautama Şakyamunini dinləməyə gedirlər. Ancaq əsəri oxuduqca bizə məlum olur ki, Siddhartha yenə də özünü tapdığına, ali həqiqətə, yüksək ruha nail olduğuna əmin olmur. Ali həqiqətə çata bilməmək qorxusu onun təlatümlərini artırır. Bu məqamda dostu Qovinda ilə onun arasında ziddiyət yaranır. Qovinda mürid kimi Şakyamuninin yanında qalmaq istəsə də, Siddhartha oradan uzaqlaşır və axtarışlarına davam edir. Siddhartha fəlsəfi

düşüncələrə dalmayan, nə üçün yaşadığını bilməyən və sualları olmayan, bu suallara cavablar axtarmayan insanları uşaq adlandırır. Onlara yazığı gəlir, hətta daha sərt desək özünü onlarsan üstün tutur. Siddhartha bir qadınla tanış olana qədər pessimist düşüncədə qalır. O Kəmalədən eşqi öyrənmək istəyir. Qadından xahiş edir ki, ona eşqi öyrətsin. Kəmalə də bunun qarşılığında ondan hədiyyələr istəyir. Siddhartha bu hədiyyələri almaq üçün bir tacirin yanında çalışmağa başlayır. Bir müddət keçəndən sonra bizə bəlli olur ki, Siddhartha çox dəyişib. Bir zamanlar insanlara yardım edən qəhrəmanımız indi insanlara qarşı soyuyub. Bəyənmədiyi, küçümsədiyi insanlar kimi yaşayır. İnsanlara qarşı soyuq münasibət göstərir. Bir zamanlar aclığı, səfaləti həqiqətə çatmaq yolları kimi görən Siddhartha indi bütün mənəvi dünyadan uzaqlaşıb və həyatını maddi əsaslara görə qurmağa çalışır, varlanmaq istəyir. Qəhrəmanımızın hissləri, iztirabları, varlanmaq istəyi bizə yad deyil. Çünki biz də bu hissləri yaşamışıq və ya yaşayırıq. Siddhartha haqlı olaraq deyirdi ki, başqalarının təlimlərini dinləyərək, başqalarının həyatlarını mənimsəyərək Budda olmaq olmaz. Gərək, sənin öz həyat tərzin, öz baxış bucağın, öz taleyin olsun. Hadisələri özün yaşayaraq, öz üzərində təcrübələrdən keçirərək Budda ola bilərsən.

Herman Hesse bu əsəri Hindistan səfərindən sonra yazmışdı. Əsəri oxuyarkən mən

də qəhrəmanımız Siddhartha kimi ümidli idim. Daha doğrusu əsərin əvvəlləri oxucuda ümid yaradır. Ancaq əsərin sonunda Hesse bizi yenidən pessimist düşüncəyə qaytarır. Kəmalənin ölümü, oğlunu tək böyütməli olan Siddharthanın dalğın düşüncələri və özünü tapma məsələsindəki şübhəsi, suallarına dəqiq cavab ala bilməməsi oxucuda bədbinlik yaradır. Mən əsəri oxuyarkən zənn edirdim ki, Hesse bizə çıxış yolu göstərəcək. Amma ümidlərim puç oldu. Əsərin sonunda belə bir nəticəyə gəldim ki, həqiqət naminə mübarizə aparanlar bəzən özləri  həqiqətə ən böyük xəyanəti edirlər. Əsərin bir hissəsində Siddhartha dostu Qovindaya deyir ki, ən yaşlı şamanın neçə yaşı var, 60 yaşı keçsə də həqiqətə, ilahi nura qovuşa bilməyib. 70, 80 yaşa çatacaq, ancaq yenə də əbədi işığa, ali həqiqətə qovuşa bilməyəcək. Siddharthanın məntiqindən belə anladım ki, hansısa ritualları həyata keçirərək həqiqətə çatmaq olmaz, həqiqət işığı insanın qəlbin olmalıdır. O işıq ya var, ya da yoxdur və heç vaxt da olmayacaq. Çalışın, qəlbinizdəki o işıq heç zaman sönməsin. Görəsən, Hesse ali həqiqəti dərk etmişdimi, qəlbindəki işığı unudub ali həqiqətə çatmaq üçün başqa parıltılar axtarmaq ona uğurlu nəticə qazandırmışdımı?

**Kaspi qəzeti, 22 dekabr, 2019**

## Ədəbiyyatımızın Ramiz Rövşən dövrü

Yazmağa başlamazdan öncə uzun müddət yazıya qoyacağım adı düşündüm. Sonra alman dostumun Almaniyanın Höte dövrü sözlərini xatırladım. Eşitdiyimə görə, rus və fransız ədəbiyyatlarında da belə anlayışlar var. Məsələn, Fransanın Hüqo dövrü, Rusiyanın Tolstoy dövrü və b. Elə doğma məmləkətimizdə də belə anlayışlar var, Nəsimi dövrü, Nizami dövrü və b. Ramiz Rövşən 72 yaşında olsa da, mənə görə müasir şairdir. Ümumiyyətlə, ədəbiyyatda zaman anlayışı əksər hallarda özünü doğrultmur. Əgər ədəbiyyat insan duyğularının obrazlı təsviridirsə, bu məntiqlə ədəbiyyatı zamanlara görə təsnifatlandırmaq olmaz. Nəzərə alaq ki, zaman anlayışı özlüyündə də nisbilik ehtiva edir. Ədəbiyyat adamları da əksər hallarda bu suallar ətrafında düşünürlər və cavab tapmadıqca təlatümləri, axtarışları çoxalır. "Bizmi zamanın içindəyik, zamanmı bizim daxilimizdədir". Bizmi zamanı aparırıq, yoxsa zaman bizi çəkib harasa aparır". Bəzən görürəm ki, gənc müəlliflər Ramiz

Rövşəni fəlsəfi şair kimi təqdim etməkdən çəkinib sentimental şair kimi təqdim edirlər. Əlbəttə ki, həssas bir şairin yaradıcılığında sentimental məqamlar olur. Ancaq ustad şairin fəlsəfi şeirlərini görməzdən gəlmək düzgün deyil. Mənə görə ədəbiyyat mətn hadisəsi olduğu kimi, həm də səmimiyyət ifadəsidir. Şair gərək şeir yazanda özünü tərifləməsin, naqis cəhətlərini gizlədib müsbət cəhətlərinə görə öyünməsin. Ramiz Rövşən şeirlərində başqalarını günahlandırmaqdan daha çox özünü mühakimə edir. Özünü tərifləmir. Onun poeziyası fikir hadisəsidir, "mən" eqosu deyil. O, yaratdığı misralarda səmimidir. Özünü gizlətməyə, özünü başqası kimi təqdim etməyə çalışmır, səmimi olmaqdan qorxmur. Ramiz Rövşənin ən sevdiyim cəhətlərindən biri yalançı təvazörkarlıqdan uzaq olmasıdır. Əgər bir insan istedadından əmindirsə və yüz minlərlə insanın sevgisini qazana bilibsə, onun qeyri-səmimi təvazökarlığı insanlara qeyri-təbii görünəcək. Ramiz müəllim bu cəhətdən də bəxti gətirmiş şairlərdən biridir. Ustad müsahibələrindən birində deyir ki, insanda şairlik halı həmişə olmur, şair özü də həmişə şair olmur. Bu məqam mənə Seyran Səxavətin Viktor Hüqo haqqında danışdığı əhvalatı xatırlatdı.

- Bir gün Hüqo küçədə gəzəndə bir qadın onu tanıyır və yaxınlaşır:

- Mən sizi tanıyıram, siz Viktor Hüqosunuz?

- Bəli, hərdən.

Ustad deyir ki, biz maddiləşmiş dünyada yaşayırıq. Ramiz Rövşənə görə, gedən bizik, zaman deyil. Həyatda mövcud olan hər şey zamanın müxtəlif şəkilləridir. Sevimli şairimizin müsahibəsində dediyi bir məqam məni sarsıtdı, kövrəldim. Ustad deyir ki, yaşadığım anlar bir xatirə kimi yadımda qalır, xatirələrimə səyahət edə bilirəm, ancaq dəhşət odur ki, o xatirələrin yarandığı yerə - Qubadlıya qayıda bilmirəm.

Ramiz Rövşən 1970-ci illər nəslinin nümayəndəsidir. O illərdə nə qədər adam şeirlər yazıb, özünü şair olmağa inandırıb. Görünür ki, ədəbiyyat zaman məsələsidir fikrini ilk dəfə deyən adam çox doğru deyib. Ramiz Rövşən poeziyası uzun illərdir ki, köhnəlmir. Dərin mənalı fəlsəfi qatlara sahib poeziya həmişə müasir qalacaq. Çünki şairin poetik nəfəsi tükənməyib. Əksinə, illər keçdikcə, təcrübəsi artdıqca daha gözəl şeirlər yazıb.

Bulud kimi ölmək

bir yaz yağışında.

Ümid kimi ölmək,

bir qız baxışında.

Bir yel qanadında

yarpaq kimi ölmək

Bir qəbir altında,

torpaq kimi ölmək.

Bir şairin ölüm-həyat dilemması haqqında düşünməsi təbiidir. Ramiz Rövşən bu şeirində ölümü həyat kimi gözəl təsvir edib. Bunun səbəbi şairin pessimist olması deyil. Səbəb şair qəlbinin həssaslığı, gözəlliyidir. Axı, şairlik peşə, vəzifə, öhdəlik deyil. Şairlik ruh halıdır. Bu gün kədərli şeir yaza bilərsən, sabahsa insanlarda mübarizə əzmi yaradan optimist şeirlər yazarsan. Ustad deyir ki, əgər insan uçub dağılırsa, bütün tərəqqilər tənəzzüldür. İnsan iztirabları Ramiz Rövşən yaradıcılığının əsas qayəsidir.

Ramiz Rövşən haqqında yazı yazmaqla, əslində, riskə yol verirəm, çünki nüfuzu bu qədər böyük ustad haqqında yazmaq insandan cəsarət tələb edir. Ramiz Rövşən poeziyası və şəxsiyyəti haqqında çox fikirlər yazılıb. Onun haqqında yeni söz demək böyük məsuliyyətdir. Ramiz müəllim şeirlərində Azərbaycandan danışır. Mən Ramiz Rövşənin şeirlərində Azərbaycan insanını görə,

duya bilirəm. Ramiz Rövşən Azərbaycan insanını bizə olduğu kimi təqdim edir.

Sən də daşlamağa özgəsini tap

Məni ömür boyu daşlayan adam

Gilası mürəbbə, quzunu kabab

Şairi heykəltək xoşlayan adam.

Şair bizə demək istəyir ki, maddi dünyaya bu qədər aludə olmayın. Təbiətdən zövq almağı bacarın. Təbiətin gözəlliyini duymağı öyrənin. Ustad deyir ki, şairləri heykəl kimi sevməyin, onları oxuyun, anlamağa çalışın. Ramiz Rövşənin şeirlərini oxuyanda insan həm də əzab çəkir. Düşünürsən ki, bu boyda əzabla necə yaşamaq, necə tab gətirmək olar. Ramiz Rövşən özünün iç dünyasına enərək insanın daxili mahiyyətini bizə göstərir. O, özünü insanlardan ayırmır, əksinə, özünün insanlarla vəhdətini yaradır. Yaşadığımız dövr gələcək nəsil ədəbiyyat adamlarının, ədəbi tənqidçilərin yaddaşında Azərbaycan ədəbiyyatının Ramiz Rövşən dövrü kimi qalacaq. Mənim yaddaşımdasa Ramiz Rövşən öz üslubu, öz xarakteri olan, insanın təhtəlşüuruna xitab edən, onu düşünməyə, özünü axtarmağa məcbur edən dəyərli, səmimi şair kimi qalır və qalacaq. 10 ildir ki, Ramiz Rövşəni oxuyuram. 10 il əvvəl ilk dəfə şeirlərini oxuyarkən gəncliyin romantikasına qapılmışdım. 17 yaşım

var idi. İllər sonra həmin şeirlərə təkrarən qayıtdığım zaman fəlsəfi qatları, dərin mənaları anlamağa başladım. Allah Ramiz Rövşənə ömür versin. Ustadın 72 yaşı oldu. Müdriklərin qocalığı da əzmli, şərəfli olur. Ustad ömrünü uduzduğunu yazır, Ramiz Rövşən poeziyasını yaratmaq üçün bir ömrü yox, 72 ömrü uduzmağa dəyər. Yazını Ramiz Rövşənin bir bəndi ilə bitirirəm.

Bir qış günü yatdım, ancaq

Durub gördüm, payızdı.

Bu kartları dəyiş, Allah,

Mən bu ömrü uduzdum.

**"Ədəbiyyat qəzeti", 23. 12. 2018**

## Volterin cənnətinə səyahət

Volter "Kandid" əsərini bekarçılıqdan yazdığını deyirdi. Hətta bu əsərin müəllifliyindən imtina edirdi. Bəs görəsən dahi yazıçı nə dərəcədə səmimi

idi? Kandid əsəri ciddi mesajlarla zəngindir. Əsərin əsas ideyası budur: "Bütün pisliklər yaxşılığa doğru atılan addımdır". Volter idarəetmədəki qüsurları kəskin şəkildə tənqid etdiyinə görə daim təqiblərə məruz qalmış, Bastiliya qalasında həbsdə olmuşdur. O, dini fanatizmin, edamların əleyhinə olmuş, bu səbəblərə görə mühacirət həyatı yaşamış, bir ölkədən digərinə qaçmışdır. "Kandid" əsərini oxumaq hər bir yetkin insan üçün faydalıdır. Volter insan faciəsinə görə əzab çəkirdi. Onun zamanında edam cəzasından, savaşdan ölən insanlar təbii fəlakətlərdə ölənlərdən daha çox idi.

Kandid baron nəslindən olan qızı sevir. Qızı Kandidə layiq bilmirlər. Baronessanı öpmək şərəfinə layiq olan qəhrəman bu hərəkətinə görə malikanədən qovulur. Təsadüfən bolqarlara rast gələn Kandid sonra həbs olunur. Onu təhqir edir, çubuqlayırlar. Lakin bolqarların əlindən qaçmağı bacarır. Kandid düşünür ki, heç bir səbəb nəticəsiz deyil, baş verən hər şey zərurətdən yaranır. Bəzi anlarda yanılır. Müəllimi Panqlos ona mövcud bədbəxtliklərin, gərgin çətinliklərin gələcək inkişafa doğru addım olacağını öyrədir. Kandidsə fikrində yanılır. Ona Kuniqundanın öldüyünü deyirlər. Bu xəbərdən sarsılan Kandid həm də sevgilisinin zorlandığını, işgəncəylə öldürüldüyünü eşidir.

Panqlos filosofdur, hikmətli insandır. Paketa ilə cinsi əlaqə zamanı sifilis xəstəliyinə tutulur. Panqlos söyləyir ki, Avropaya bu xəstəliyi Xristofor Kolumbun dəstəsi gətirib. Lakin o, məlum səyahətə getməsəydi, Avropa bir çox həqiqətlərdən xəbərsiz olacaqdı. Sənət, ixtiralar ciddi qurbanlar tələb edir. Avropa mədəni rifaha çatmaq üçün böyük qurbanlar verib, iki dünya müharibəsi, gilyotinlər, inkvizisiyalar, vətəndaş müharibələri görüb.

Əsərin ən qəribə məqamlarından biri Kuniqundanın zorlanmasını, alçaldılmasını bilən Kandidin öz sevgisindən imtina etməməsidir. O dövr üçün belə davranış yeni düşüncə naminə atılan inqilabi addımlardan biri idi. Panqlos isə ona xəstəlik keçirən Paketaya nifrət etmir. Volter bu əsəriylə nifrətə meydan oxuyur. Sübut edir ki, insan qəlbi sevgiyə məhkumdur, nifrətdən uzaq olmalıdır. Bəşəriyyətin xilası naminə nifrət duyğusunu öldürmək lazımdır.

Volter yaradıcılığı ərzində yüzdən çox təxəllüsdən istifadə etmişdi. O, mühafizəkar cəmiyyətə nifrət etsə belə, cəmiyyətlərdə yaşamaqdan xilas ola bilmirdi. Əsərdə məhkəmə hakimiyyətinə qarşı kəskin tənqidi münasibət var. Rəhbər şəxslərin qadın düşkünü olmaları onların ədalətli qərar vermələrinə əngəl törədir. Kandid sadiq nökəri

Kakambonun "optimizm nədir" sualına belə cavab verir.

- Mənim indi anladığıma görə, optimizm çox pis anlama gələn sözdür, hər şey çox pis durumda olanda, hər şey çox yaxşıdır demək - optimizm adlanır.

Volterin optimizmə inamı bu fikirdə əks olunur. Müəllimi Panqlos Kandidə həyatın nikbin olduğunu söyləmişdi, fəqət əsir düşən Kandid insanların edamını, tonqalda yandırılmasını görür. Bu hadisələr onun iradəsini sındırır, Kandid sevdiyi Kuniqundanın qardaşının qatili olur. Çünki baron hər zaman Kandidi alçaldırdı. Kandidə öz nəslinin tarixini bilmədiyini, aşağı təbəqə nümayəndəsi olduğunu deyirdi. Volter əsərində sosial təbəqələşmənin bəşəri inkişafa vurduğu zərbələri təsvir edir. Dahi yazıçı çox sevgilər yaşayıb, bütün sevgiləri də uğursuz olub. Yazdığı əksər əsərlərdə tənhalıqdan, sevgisizlikdən yaranan gərginlik hiss olunur.

Əsərdə qarı obrazı var. O da zorakılıqların qurbanıdır. Həyatda heç nə əbədi deyil, zadəgan nəslinin nümayəndəsi olan bu qarı yoxsulluq içində yaşayır. Kakambo sahibi Kandidin ədalətli qərarlarını, səxavətli olmasını sevir, ona bağlanır. Sahibini sevdiyi qadına qovuşdurmaq üçün çox çalışsa da bir nəticə hasil olmur. Bir çox dahilər

qadınlara qarşı kinli münasibət bəsləyiblər. Volter yaradıcılığında da eyni vəziyyət var. Sanki uğursuzluqlarına görə qadınlardan qisas almaq fikri var. Hətta monarxlar da Voltera qarşı vəhşi münasibət bəsləyirlər.

Kandidlə Volter arasında oxşar xüsusiyyətlər mövcuddur, dini təqiblərdən qaçan mütəfəkkirə katoliklərin və protestantların olmadığı şəhər haqqında bəhs edirlər. Bəlkə də, Kandidin Eldorado sandığı məkan Volterin təqiblərdən qaçmaq üçün yaşadığı həmin ölkədir. Eldorado gözəl ölkədir, insanlar nifrətlə yaşamır, sevgi, ali duyğular onların həyat tərzidir.

Kandidin özünə bələdçi seçərkən istifadə etdiyi üsul çox qəribədir. O, ən bədbəxt insanı bələdçi kimi işə qəbul edir. Martenlə Kandidin fəlsəfi söhbətində Volterin yazıçıdan daha çox filosof olduğunu görürük. Bütün dünya Volteri əvvəlcə filosof, sonra yazar hesab edir.

Kilsəyə qarşı kəskin fikirlərinə görə İngiltərəyə sürgün olunan Volter həmin illər ərzində daha çox inkişaf etmişdir. Gənclik illərində Şekspiri gənc şairlərə nümunə göstərən filosof bir neçə ildən sonra Şekspirdən daha yüksək istedada malik olduğunu demişdi.

Volterin yazdıqlarını və Volter haqqında yazılanları oxuyanda Əhməd bəy Ağaoğlunun "Sərbəst insanlar ölkəsində" əsərini xatırlayıram. Volter mədəni təşəkkülü İngiltərədə görmüşdüsə, Əhməd bəy Ağaoğlu mədəni təkamülü, sənətin aliliyini Fransada görmüşdü. Viktor Hüqonun Volterin ölümünün 100-cü ildönümündəki nitqi yüzlərlə kitaba bərabərdir. Bu nitqi oxuyarkən insan sənətin əsl mahiyyətini dərk edir. Volter insanların vicdanına xitab edirdi. Haqq tərəfdarı olmaq çox çətindir. Ədalət tərəfdarı olan insan hər zaman öldürülməyə, döyülməyə, maddi və mənəvi işgəncələr yaşamağa hazır olmalıdır. Volter 82 illik ömrünü əzablar içində yaşadı. 100-dən çox təxəllüsdən istifadə etmişdi. Volter haqqında danışarkən onun "Fanatizm" əsərindən bu fikri yazmamaq günah olar:

"Fanatiklərin cilovu, çox vaxt, fırıldaqçı adamların əlində olur, onların əlinə xəncəri də bunlar verirlər; deyilənə görə, dağlarda yaşayan bir Qoca, bu sayaq fanatiklərə cənnəti bu dünyada daddırarmış, sonra da bu dadı damaqdan getməyən yaşamda sonsuza kimi ömür sürə bilməyin tək yolunun, onun dediyi adamı öldürmək olduğunu onlara aşılayarmış, elə bu dediyimiz fırıldaqçılar da, o Qocanın tayıdırlar".

"Beyin, fanatizm qanqrenasına yoluxubsa, bu, artıq sağalmaz bir xəstəlikdir. Mən keçmişdə, çox

böyük çılğınlıqla Müqəddəs Parisin möcüzələrindən danışan insanları görmüşdüm, onlar danışdıqca qızışıb özlərindən çıxır, gözləri alışıb yanmağa başlayır, bədənlərini əsməcə tutur, üzlərində ağıl itirməyin əlamətləri görünməyə başlayırdı: bu anda kimsə onların dediklərini dansaydı, onu yerindəcə öldürərdilər".

**Ədəbiyyat qəzeti, 30. 02. 2019**

## Yəhudi əlifbası – Azərbaycan dilində

Seyran Səxavətin bir yazıçı kimi ən böyük uğuru öz üslubunu yarada bilməsidir. Öz üslubunu yaratmaq hər yazıçıya nəsib olmur. Əslində, bu məqamda "nəsib olmur" sözlərini yazmaq doğru deyil. Üslub yaratmaq istedad, intellekt və zəhmət hadisəsidir. Seyran müəllim həm də Azərbaycan dilinin təmizliyini, gözəlliyini qorumaq istəyən dəyərli ziyalımızdır. Ədəbiyyat dil və təfəkkür hadisəsidir. Dahi alman filosofu Haydeger yazırdı ki, dil varlığın evidir. Voltersə deyirdi ki, yaxşı danışmağı yaxşı yazan müəllifləri oxumaqla öyrənmək olar. Seyran Səxavət bizə yaxşı danışmağı öyrətmək öhdəliyini üzərinə götürməyib. Gənc yazıçıların "Azərbaycan dilində yazmaq olmur" fikrinə əks arqument kimi çox hallarda Seyran müəllimin, Saday Budaqlının,

Vaqif Nəsibin, Cəlal Bərgüşadın (siyahını uzatmaq olar) bu dildə necə gözəl əsərlər yazdıqlarını deyirəm. Ədəbiyyat dil və təfəkkür hadisəsi olduğu kimi dil özü də ayrılıqda təfəkkür hadisəsidir. Ludvig Vitgenştayn deyirdi ki, dil düşüncənin sərhədlərini müəyyən edir. Üslubunu yaratmaq deyərkən onu nəzərdə tuturam ki, Seyran müəllimin kitabını mənə müəllifsiz mətn kimi təqdim etsələr, dəqiqliklə müəyyən edə bilərəm ki, bu əsəri Seyran Səxavət yazıb. Müəllifin ən məşhur əsəri "Daş evlər" romanıdır. Bu romanı Sovet dövründə kitab oxuyan əksər insanlar oxuyub. Sovet dövründə bu əsər 100 min tirajla çap edilib. İndi biz - gənc yazarlar üçün 100 min tirajla çap olunmaq sadəcə möcüzədir. 1000 tirajla kitab çap edə biləndə sevinirik. Seyran müəllim əsərlərində Qarabağdan, vətən-millət məsələlərindən danışarkən saxta dərin mənalılıq yaratmaq istəmir. Bəzi müəllifləri oxuyanda məhz həmin saxta dərin mənalılığın yaradılma cəhdlərini hiss edirəm və bu ağrılı duyğunu yaşayarkən əsərdən uzaqlaşmaq məcburiyyətində qalıram.

"Yəhudi əlifbası" əsərini oxuduqdan sonra roman haqqında yazmaq qərarına gəldim. Bəzən gözümüzün önündə olan ciddi yazıçıları unuduruq, üstünlüyü dünya ədəbiyyatına veririk. Hərdən düşünürəm ki, öz ana dilimizdə yazan ustad yazıçıları başa düşmürük, ancaq xarici dillərdən

tərcümədə oxuduğumuz Kafkanı, Kamyunu, Sartrı başa düşdüyümüzü zənn edirik. Görəsən, niyə bu qədər eqoist və bu qədər laqeydik biri-birimizə?

Kitabı açan kimi müəllif qeydini görürük. Bu kiçik qeyd romanın yazarı haqqında qeyri-adi təəssüratlar yaradır. "... Gəl, qorxma. Mən adam əti yemirəm. Orasını da bəri başdan deyim ki, mənim yanımda dayansan, peşman olacaqsan. Fikirləş".

Seyran Səxavət kitablarının bir neçəsində bu cümləları annotasiya kimi verir və burada da öz üslubuna sadiqdir:

"Mənim yazdıqlarım hamısı Dünyanın Mən baxan tərəfdən görünən hissəsidir. Əziz oxucu, gəl həmişəki kimi yenə yanaşı dayanaq, bir az da mən baxan tərəfdən bax dünyaya, nə vaxt darıxsan, çıxıb gedərsən".

Bu mənada Seyran müəllimin kitabları tərif dolu ön sözlə başlayan kitablardan fərqlənir. "Yəhudi əlifbası" romanının əsasını insan-təbiət münasibətləri, insanın təbiətə zərər vurması, bəşəriyyətin naqis adamlardan yorulması, qələbəsi zəruri olan müqəddəs hisslərin acgözlüyə, şərəfsizliyə məğlub olması, insanın özünü axtarması, özünü mühakimə etməsi təşkil edir.

Romanı oxuyarkən özümə sual verdim ki, biz insanlar həqiqətənmi cəmiyyətin, xalqın nümayəndəsiyik, yoxsa vəhşi heyvanlar aləminin bir parçasıyıq? Qəhrəmanımızın sərv ağacı ilə söhbəti mənə çox təsir etdi. Bəlkə də təbiəti çox sevdiyimə görə Sərv ağacının dərdi-kədəri mənə ciddi təsir göstərdi. Özünü axtaran adamın Pəzəvənglə və süd əmdiyi mələyin döşünü dişləyən uşaqla söhbətində Seyran müəllimin bu əsərdə nə demək istədiyi anlaşılır.

Biz - insanlar öz nəfsimizə uduzuruq, Allahın işlərinə qarışırıq. Boş məqsədlər, cəfəng istəklər naminə biri-birimizin qəlbini qırırıq. Özümüz nümunəvi insan olmadığımız halda cəmiyyətə, hətta bəzən bütün bəşəriyyətə ağıl veririk və elə bilirik ki, dünyanın həqiqətən də bizim ağlımıza ehtiyacı var. Uşaq, Özünü Axtaran Adama böyüklərin əməllərinə etiraz əlaməti olaraq bildirir:

"Siz həmişə demisiniz ki, uşaqlar bizim gələcəyimizdir. Bundan sonra belə olmayacaq, uşaqlar sizin gələcəyiniz yox, bugününüz olacaq, Dünyanı uşaqlar idarə eləyəcək, Allah belə istəyir".

İnsanlar sənətdə, ədəbiyyatda dünyanı çoxdan dağıdıblar. Ancaq dünyanı gerçəkdə dağıtmaq Allahın işidir. Romanı oxuyarkən insan düşünür

ki, biz insanlar dünyanı sənətdə dağıtmaqla doymamışıq, artıq yaratmadığımız dünyanı Allahın əvəzinə özümüz dağıtmaq istəyirik. Əsərdə ən sevdiyim cəhətlərdən biri budur ki, gerçəkliyi əks etdirir, keçmişin nostalgiyasında ilişib qalmır və gələcəyə dair pafoslu fikirlər təqdim etmir. Sərv ağacı bizə demək istəyir ki, biz torpağın enerjisini özündə daşıyan ağacları qırmaqla təkcə ağacları yox, həm də torpağı dağıdırıq. Torpaq öz enerjisini ötürə bilmir və onda xəstəliklər yaranır.

Həqiqət budur ki, təbiət zamanla öz gücünü itirir, təbiətin tükənməsi bizim əsəblərimizi korlayır, rahatlığımızı itiririk. Təbiət tükəndikcə biz də mənəvi və fiziki cəhətdən məhv oluruq. Mənəvi cəhətdən məhv olmağımızın real göstəricisi budur ki, insanlardan qisas almaq istəyirik, nifrətimizi boşaltmaq üçün ünvan axtarırıq. Nəyə görə elə düşünürük ki, bizi yaradan Allah bizim yerimizə də özü yaşamalıdır? Nəyə görə öz nöqsanlarımıza, öz naqis cəhətlərimizə görə Allahı, Şeytanı günahlandırırıq?

Romandakı ən maraqlı məqamlardan biri də aclıqdan ölənlərin şərəfinə məzarlıqda abidə ucaldılmasıdır. Dünya ölkələrinin prezidentləri bu abidənin açılış mərasimində çıxış etməlidirlər. Seyran müəllimin əsərlərində bəzən ən ciddi fikirlər ən ironik üslubda təqdim olunur. Bəzi

hissələri dəqiq anlamaq üçün təkrar oxumaq lazımdır. Romanı oxuyarkən bir neçə dəfə əvvəlki səhifələrə qayıdıb qeydlər etməli oldum. Bir hissəni xüsusən qeyd etmək istəyirəm: "Qalxın, Gələn gəlir!!! Bütün bəşəriyyət dik qalxdı. Qəbirlər də dikəldi, başdaşları ilə üzbəüz dayandı. Zaman da dikəlib dayanan kimi Gələn gəldi, Yer kürəsi sətəlcəm olmuş adam kimi ölü sükutuna büründü, bu sükut ağappaq idi, kəfənə oxşayırdı. Bu ölü sükutu Gələndən başqa kimsə dirildə bilməzdi və o da diriltdi:

- İnsan Adəm və Həvva deyilən saatdan sizlərin dik qalxdığınız saata qədər çox uzun bir yol keçib və sizin qiymət almaq saatınız yetişib, qulaq asın...

- Sülh - iki.

- Müharibə - beş.

- Gözütoxluq- iki.

- Allahsızlıq - beş.

- Yalan - beş..."

## Cənnətin iblisi

O, dünyanın ən çox tənqid edilən, ən qalmaqallı yazıçılarından biridir. Düşündüyü hər şeyi cəsarətlə ifadə edir. Fəlsəfə və mistizmi birləşdirərək özünə məxsus qeyri-adi üslub yaradıb. Katolik ailəsində dünyaya gələn **Henri Miller** uğursuz tale yaşayıb.

Müəllifin "Cənnətdə bir iblis" romanında bir çox fəlsəfi cərəyanların ideyalarını görmək olar. Ziddiyyətlərlə zəngin olan bu romandan hər kəs fərqli mesajlar ala bilər. Morikan obrazı təzadlı həyat tərzi ilə insanı təəccübləndirir. Bədbəxtliyini insanlara həddindən artıq inanması ilə əlaqələndirən Morikan öz müsibətlərinə görə heç vaxt başqalarını günahkar hesab etmir. Onunla söhbət etmək çətindir. Söhbət şiddətli münaqişəyə çevrilir, sanki axmaq bir fanatiklə danışırsan. Lakin səliqəli insandır, Ümidsiz yoxsulluq, gərgin səfalət anında olduğu zamanda belə səliqəli görünməyə çalışır. Kübarlıq onun daxili tələbatıdır. Dünya ilə bütün əlaqələri kəsilsə də xarici görünüşünü qoruyur. Əsərdə müəllifin Balzakın "Serafita" əsəri haqqında fikirləri var. Obraz həmin əsəri öz müdafiəçisi hesab edir. Morikana kömək etmək istəyən insan bəzən bezir, hər şeyi atıb uzaqlaşmaq istəyir, bəzən öz-özünədanışır.

Morikan, mənə lazımdırmı? Axı ona borcum yoxdur. Həyatı boyunca etdiyi mücadilələri və

verdiyi qurbanları qabartmaq arzusunda olmayan qəhrəman Morikandan bezir, lakin imtina da edə bilmir. Henri Miller yazır ki, nəticə etibarı ilə yalnız bir dil var – həqiqətin dili. Morikan dostunun anarxist olduğunu düşünür, onun dəstəyindən, həmçinin həkim yardımından imtina edir. Bəzən Morikan olduqca səhih nəticələr çıxarır.

Henri Miller haqqında danışdığımız romanda bir nəzər nöqtəsinə kölə olub daim bu haqda düşünməyə etiraz edir. Bütün nəticələr həm doğrudur, həm də yanlış. Kainat haqqında nə qədər danışsaq da, o formasını dəyişdirməyəcək. İstisnalar yoxdur, hər kəsin şəxsi kədəri və əzabları var, həyat əbədi mübarizədir, mübarizə isə qəm-qüssə və iztirab gətirir. İztirablar bizə güc və xarakter verir. Bəzən insan öncədən məğlub olacağını bilsə də, yarışa hazırlaşır. Bu, iztirabların yaratdığı güclü xarakterdir. Bəzən Henri Milleri Bukovski ilə eyniləşdirirlər. Zənnimcə Millerlə Bukovskini eyni pilləyə qoymaq ədalətsizlik olar. Miller ciddi intellektual mübahisələr yaradacaq yazarlardan sayılır. 1960-ci illərə qədər əsərlərinin nəşri qadağan olunub. Miller öz üslubunu yaratmış yazıçıdır. "Cənnətdə bir iblis" romanı vulqar ifadələrlə zəngindir. Lakin müəllif həmin məqamlarda başqa nəzakətli ifadələr işlətsəydi, əsər bəlkə də səmimiyyətini itirərdi. Haqqında danışdığım əsərdə fəlsəfi fikirlərə, aforizm ola biləcək düşüncələrə tez-tez rast gəlinir. Dünyanın

yaranışı və mövcudluğunu davam etdirməsi üçün bütün növlərə, hətta zərərverici qüvvələrə belə ehtiyac var. Lakin baxışlar, zövqlər haqqında eyni şeyi söyləmək olmaz. Bütün fikirləri, baxışları, bütün rəsm əsərlərini bir yerə topla, yenə də bir bütünlük əldə edə bilməzsən. Bütün fikirlərin cəmi həqiqət yarada bilməz. İnsan həqiqəti bilən zaman məğlub olur. Daha çox dərinə endikcə insan daha çox batır.  Müəllif romanda şizofrenik durumlara münasibətini bildirib. Şizofreniya hər zama: bəşər övladı yaranandan bu günədək var və olacaq. İnsan parçalananda minlərlə xırda fraqmentlər yaranır. Lakin onlar hər an birləşə bilər. Adəmlə bugünkü insanın fərqi odur ki, biri cənnətdə doğulub, digəri isə cənnəti özü yaratmalıdır.

"Morikan həyatının son anlarında siçovul kimi yalqız, dilənçi kimi çılpaq idi". Roman bu cümlə ilə bitir. Çox təsirlidir.

Henri Millerin "Paris Review ” dərgisinə verdiyi  müsahibə çox maraqlıdır. Yazıçı hesab edir ki, yazı prosesi zamanı mütləq narahat şəraitdə olmaq lazımdır. Əks halda uğurlu əsər yaratmaq olmaz. Miller hər şeyi kökündən dağıdıb yenidən qurmaq imkanına görə dadaizmi yüksək qiymətləndirir. Müəllif bildirir ki, sevimli yazıçısı Dostoyevskidir. Dostoyevski hər zaman bədbəxt olub. Əminəm ki, o bunu romanları uğurlu olsun deyə planlı şəkildə etmirdi. Əzablar, işgəncələr Dostoyevskinin həyat tərzi idi. Henri Miller bildirir ki, çox düşünür, dərinə enməyi sevir.

Dərinliklərə enmək insanın itməsinə səbəb ola bilər. Caz musiqi janrına sevgisindən bəhs edən müəllif bəzən eyni anda bir neçə əsər yazmasından, onların yazılma hallarından danışır. "Cənnətdə bir iblis" əsərini oxuyarkən anladım ki, Henri Miller Cənnətdəki iblisin özüdür. O, İnsanı sanki bütöv materiya üzərində gəzdirir və beynini istədiyi şəkildə yönləndirir.

Miller "Yazıçılıq haqqında qeydlər" adlı essesində yazır ki, yazıçılıq həyat kimidir, təcrübəni artırmaq, daxili dünyanı zənginləşdirmək üçün səyahət etməli, müxtəlif ölkələrə getməli, müşahidələr və müqayisələr aparmalısan. Yazıçılıq çaşqınlıqdan, heyrətlənməkdən, ziddiyyətlər burulğanında boğulmaqdan yaranır. Yazıçılıq Pamukun təbirincə desək, iynə ilə məzar qazmağa bənzəyir. Yaradıcılıq özündə təkamül xarakterini daşıyır. Hər ikisi sonsuz və daim təkmilləşməyə meyillidir. Müəllif həmin essedə yazır ki, öz üslubumu tapana qədər sevərək oxuduğum yazıçıların ədəbi fəndlərindən istifadə edirdim. Maraqlı məqam budur ki, ölkəmizin gənc yazarları ötən nəslin hansısa yazarından, şairindən təsirlənib bir-iki cümlə yazanda həmin müəllifi dərhal oğurluqda, başqasının zəhmətinə qiymət verməməkdə günahlandırırlar. Miller bizə konkret olaraq hansısa ideyanı, hansısa siyasi baxışı təqdim etmir. Onun məqsədi gördüyü və gündəlik yaşadığı

hadisələri qeyri-adi təsvirlərlə, modern üslubda oxucuya təqdim etməkdir. Miller yazır ki, insanda etiqaddan, inamdan daha üstün xüsusiyyətlər var.

Henri Millerin müsahibələri də çox maraqlıdır. Miller onu ədəbiyyatda inqilab edən yazıçı sayanlara ironik münasibət göstərir. "Deyilənlərə görə mən inqilab etmişəm, amma bu, mənim iradəmin ziddinədir, çünki mən zövq almaq, əylənmək üçün yazıram”. Miller insanı konkret hansısa qəliblərə salmır. Obrazlarına azadlıq verir. Hərdən insanda belə bir təəssürat yaranır ki, yazıçı istirahət edir, romanı obrazlar özləri davam etdirir. Onun məqsədi bəşəriyyətə problemlərdən çıxış yolları təklif etmək, ali dəyərlər yaratmaq deyil. O, insanlardan daha çox mətnə, sənətin özünə xidmət edir.

Henri Miller əmindir ki, gələcəkdə bütün sənətlər məhv olacaq, həyat sənətin bir sahəsi sayılmayacaq, birbaşa sənətin özü olacaq. Əksər müasir yazıçılar kimi, Miller üçün də əsas amil əsərin ideyasından, süjet xəttindən daha çox mətnin dilidir. Miller əylənmək və zövq almaq üçün yazıram sözlərini deyərkən nə qədər səmimidir? Bu suala yəqin ki, Millerin özündən başqa heç kəs dəqiq cavab verə bilməz. Çünki məlum essedə Miller onu da vurğulayır ki, mən yazıçılıqla tərki-dünyalığı unutmaq, bekarçılıqdan xilas olmaq üçün məşğul olmuram. Yazıçı öz

qüsurlarını, nöqsanlarını, mənfi xüsusiyyətlərini çəkinmədən etiraf etsə də, oxucular və tənqidçilər onun Markes kimi ədəbi hoqqabazlığı sevdiyini bilirlər. Miller üçün hadisə problemi yoxdur, o, ən bəsit hadisəni belə bizə ədəbi mətn kimi təqdim edə bilir. Bu mənada Miller istedadını danmaq olmaz. "Rahat yaşamaq üçün qələbə istəyindən imtina etməlisən və məğlubiyyət haqqında düşünməməlisən". Millerin düşüncəsinə görə insanı bədbəxtliyə sürükləyən ən birinci səbəblərdən biri eqodur. Əgər insan öz beynində bir heçlik olduğunu qəbul etsə xoşbəxt olmağa can atmaz. Bu məqamda beynimizdə daha bir sual yaranır: Sənət nədir, öz eqomuzu isbat etmə imkanı, yoxsa dünyaya fayda vermək istəyimiz? Məncə əksər sənət adamlarında nə qədər gizlətməyə çalışsalar da eqo özünü göstərir...

**Kaspi qəzeti, 08. 12. 18**

## Tale hökmünün qaçılmazlığı

Amerikalı rejissor və ssenarist Paul Schraderin Mişimanın həyatı haqqında çəkdiyi "A Life in four chapters – "Dörd hissəlik həyat" adlı filmə ilk dəfə baxanda heytərlənmişdim. Həyatına 45 yaşında xarakiri ilə son qoyan bu yazıçını anlamaq çətindir. Çünki onun həyat və

yaradıcılığında mürəkkəb, ağlasızmaz məqamlar çox olub. Film dörd hissədən ibarətdir:

**1. Gözəllik**

**2. Sənət**

**3. İnqilab**

**4. Qılıncla qələmin harmoniyası**

Film Mişimanın uşaqlıq, gənclik və tam yetkinlik dövrünü təsvir edir. Filmdə Mişimanın xatirələrinə istinad edilib: **"Uşaqlıq yaşlarımda pəncərədən həyətə baxarkən özümü heç zaman dəyişdirə bilməyəcəyi bir dünyanı izləyən, dünyanın öz istəyi ilə dəyişə biləcəyinə ümid edən uşaq kimi görürdüm. Yeddi həftəliyimdə nənəm məni anamdan almış, himayəsinə götürmüşdü".** Mişima hətta ən erkən yaşlarından belə başqaları üçün yaşamağı öyrənir, xəstə nənəsinə qulluq edirdi. Nənəsi onu həvəsdən salır, anası haqqında xoşagəlməz sözlər deyirdi: "Sənə anan baxsaydı çoxdan ölərdin". Xəstə insanların əksəriyyəti eqoist olurlar və elə düşünürlər ki, bütün dünya onların qayğısına qalmalı, onların nazına dözməlidir. Nənəsi ondan tez-tez ayaqlarını ovuşdurmasını tələb edir. Nənəsi onu sevir, ancaq bu sevgi azadlıq istəyən bir uşaq üçün böyük əziyyətə çevrilir. Yazıçının uşaqlıq illərini xatirə

gündəliyində qeyd etdiyi bu cümlələr dolğun ifadə edir. “**Uşaq yaşlarımda həyatın biri-birinə zidd iki anlayışdan ibarət olduğunu öyrəndim. Birincisi, dünyanı dəyişdirə bilmək iqtidarında olan sözlər idi, ikincisi bu sözlərlə heç bir əlaqəsi olmayan dünyanın özü”.**

Nitq qüsuru olan Mişimaya biz çoxları istehzayla yanaşırdı. (Filmin sonrakı hissələrində biz Mişimanın nitqindəki problemin zamanla aradan qalxdığını görürük) Qızıl məbəddə axsaq dostu da Mişimaya lağ edir, onu alçaltmağa çalışır. Gənc Mişima kəkələyərək danışdığı üçün onunla zarafatlaşır. Həmin məbəddə işləyən digər gənc də axsaq idi. Yazıçı deyir ki, sonsuzluğun gözəlliyi bizi zəhərləyir, məbəddə gənc xanımla intim münasibət zamanı da Mişima öz utancaqılığına sadiq qalır. Hələ gəncliyində yazıçı ölüm haqqında düşünürdü. “Amerikanın hərbi hava qüvvələri gələcək və mən hürr olacağam. 18 yaşından Yaponiyanın istiqlalı, müdafiəsi naminə ölməyi düşünürdü. Mişima yazıçı olmaq istəyinə görə Maliyyə Nazirliyindəki işindən imtina etmişdi. Sənət imtinaları sevir. Martin Paj “Yazı və yaşam” kitabında yazır ki, sənətdən şöhrət, pul və vəzifə əldə etmək üçün istifadə etmək tərbiyəsizlikdir. Mişimasa yazır ki, biz maska taxırıq, özümüzü olduğumuz kimi göstərə bilmirik, həqiqi “mən”imizi təqdim etməkdən qorxuruq. Aktyorlar kimi obraza giririk, hətta həyatımız boyu bir neçə

obrazı oynayırıq. Hansı anda hansı obraz sərf edirsə həmin an o obrazın maskası altında gizlənirik. Filmdə teatr aktyoru rolunu ifa edən obraz üzünün gözəlliyindən razı olsa da, bədən forması onu qane etmir. İdmanla məşğul olur, estetik bədən formasına sahib olmaq istəyir. Bir gün bu aktyora deyirlər ki, gözəl bədən formasına sahib olsan belə bunu qoruyub saxlaya bilməzsən, çünki hüceyrələr qocalır, insan təbiət qanunlarına qarşı mübarizə apara bilməz. Təbiətin qanunlarını dəyişmək olmaz. Bədənin gözəlliyini sadəcə sənət təsvir edə bilər və təkcə sənət onu mühafizə edə bilər. Daimi gözəllik sadəcə sənətdəki estetika anlayışıdır.

“Bir maskanın etirafları” əsərində Mişima öz gənclik xatirələrini qələmə alıb. Bu xatirələrdə müəllif o qədər səmimidir ki, öz nöqsanlarını, uğursuzluqlarını yazmaqdan çəkinmir. Mişima deyir ki, xüsusən də kişilər gözəl, xeyirxah görünmək üçün maskalanırlar. Qadından fərqli olaraq kişinin gözəl görünmək istəyi ölüm üçün arzudur. Filmdə Mişimanın Samuray əqidəsinə sonadək sadiq qaldığını görürük. Yazıçı yapon xalqının samuray ənənələrindən uzaqlaşmaması üçün mübarizə aparır. **“Sözlər aldadıcıdır, inqilabsa gerçəkdir, bu samuray prinsipi bir zamanlar yaşam tərzi idi. Ancaq unudulub, sənət və inqilab yenidən birləşə bilərmi? 40 yaşına çatmış bir adamın gözəl ölümü imkansızdır, nə qədər çalışırsa çalışsın, ruhu**

**çürümədən ölə bilməz. Yaşamaq üçün özünü məcbur hiss edəcək”**

Mişima mübariz “Qalxan Cəmiyyəti” yaradır. Bu cəmiyyətin məqsədi köklü yapon ruhunu Yaponiyaya qaytarmaq, ölkəni kapitalist işğalçıların hücumlarından qorumaqdır. Yazıçı insanları düşündürmək, onlara ölkənin problemlərini göstərmək istəyir, ancaq insanlar gülür və bu proseslərə qeyri-ciddi yanaşırlar. Yazıçıya bildirirlər ki, sən ən məşhur yazıçımızsan, media səni gülünc vəziyyətə sala bilər insanların gözündə. Mişima gülünc vəziyyətinə düşməkdən qorxmur. Onu çox az sayda insan dəstəkləyir. Ancaq yazıçı buna görə narahat olmur. Böyük qələbələr çoxluqla deyil, ideyaların böyüklüyü ilə qazanılır. Mişima elita mənsubu idi, nənəsi Samuray nəslinin nümayəndəsi idi. Müəllif “Bərəkət dənizi” adlı 4 hissədən ibarət epopeyasının 1-ci kitabı “Bahar qarları”nda 1912-ci ildə Tokioda imlperatorluq sinfinin nüfuzlu nəsillərinin müxtəlif yollarla siyasi, iqtisadi güc əldə etmək istəyini və imperatorluğun şərəfinə zərbə vurmalarını tənqid edir. Yazıçı hesab edir ki, elita mənsubları öz nəsillərinin ağır yükünü daşımaqdan, böyük nüfuzunu qorumaqdan qorxmamalıdırlar. Ümumiyyətlə, Mişimanın əsərlərində Avropa mədəniyyətini üstün sayıb Yapon kimliyini unudanların tənqid olunduğunu görmək olar. Yazıçının rəhbərlik etdiyi cəmiyyət Yaponiyanın

modernləşməsinə və kapitalist maraqlarına qurban edilməsinə qarşı mübarizə aparırdı. Mişimaya ən çox etiraz edənlər tələbələr olur. Gənc nəsil Yaponiyanın modernləşməsini istəyir. Yazıçı nitqində bildirir ki, ordu yapon ruhunun son qalasıdır. Siyasətçilər üçün Yaponiya bir heçdir. Onların başı ancaq hakimiyyətlərini itirməməyə qarışıb. Ölkəni ağır vəziyyətdən yapon ruhuna sadiq qalan Yaponiya ordusu xilas edə bilər. Mişima qılıncla qələmin harmoniyasını yarada bildimi? Məncə yarada bilmədi, bunu özü də səmimi şəkildə etiraf edirdi. Xarakiri etməzdən öncə yazıçı sənətlə inqilab arasında harmoniya yaratmaq istəyərkən sözlərin inqilabi gücünə yetərincə ciddi yanaşmadığını düşünür. Mişima "Qalxan cəmiyyəti" nin üzvləri ilə bir generalı əsir alır və tələblərini irəli sürür. Qarnizon qarşısında çıxışını əsgər və zabit heyəti qeyri-ciddi qarşılayır. Mişima bu məğlubiyyəti həzm edə bilmir. Samuray fəlsəfəsinə görə məğlub şəxs intihar edir ki, növbəti nəsil üçün məğlub irs qoymasın. Yazıçının xarakiri səbəbini anlamaq üçün "Bahar qarları" əsərini oxumaq lazımdır. Elita mənsubları, əsasən də samuray nəsillərinin davamçıları öz əqidələrinə sadiq qalmadı, yapon ruhunu kənar müdaxilələrdən qorumalıdırlar. Mişimanın intiharı tale hökmünün qaçılmazlığıdır. O, başqa cür edə bilməzdi.

Yazıçının vətəni varmı? Yazıçı bəşəri düşündüyü üçün Vətən məfhumunu

unutmalıdırmı? Bolşevik çevrilişindən sonra İvan Bunin Sovet Rusiyasını tərk etməyə, Parisdə yaşamağa məcbur olur və bir daha doğma vətəninə qayıda bilmir. Parisdə vəfat edir və elə orada da dəfn edilir. Bunin öz əsərlərini vətənindən uzaqlarda yazdı, ancaq rus kəndlisini, rus zəhmətkeşlərini, öz xalqının, ölkəsinin çətinliklərini, problemlərini unutmadı. Obrazlarına Pyer, Jan, Lüdoviq adları qoymadı. Səma cisimləri hər yerdə eynidir. Günəş təkdir, Ay təkdir. Amma Bunin Günəşi, ulduzları, Ayı təsvir edərkən məhz Rusiya səmasını gözləri önündə canlandırır. Rusiya Qoqolu səfalətə, aclığa sürükləmiş, sürgünə göndərmişdi. Ancaq Qoqol Rusiya haqqında yazırdı:

"Rusiya, Rusiya!.. Niyə sənin hər yerində üfüqlərdən-üfüqlərə, dənizlərdən-dənizlərə yayılan qəmli nəğmələrin eşidilir? Bu nəğmələrdə çırpınan nədir?.. Ey Rusiya! Niyə səndə hər şey intizar dolu gözlərini mənə dikmişdir? Mən hələ də heyrət içində hərəkətsiz dayanmışam. Başımın üstünü isə yağış dolu qorxunc buludlar alıb, sənin əngilliyin qarşısında fikirlərim donub qalmışdır.Bu ucsuz-bucaqsız əngillik nələr olacağını xəbər verir? Sən özün ucsuz - bucaqsız olduğun halda, sənin qoynunda böyük və hüdudsuz fikirlər doğmaya bilərmi?! Sənin qoynun geniş bir meydanolduğu halda, burada bahadırlar doğulmaya bilərmi?! Bu əzəmətli əngillik böyük bir qüvvə ilə qəlbimin

dərinliklərində əks olunur, qüdrətli torpaq heybətlə məni əhatə edir; gözlərim müstəsna bir hökmlə işıqlanır. Ah, Yer üzündə misli-bərabəri olmayan nə qədər parlaq, nə qədər gözəl bir ənginlik!.. Ey Rusiya!.."

Bu qədər çətinlik, səfalət, sürgün yaşayan yazıçılar öz ölkələrini həmişə seviblər. Öz xalqlarına sadiq qalıblar. Əgər vətən sevgisi lokal düşüncədirsə o zaman belə çıxır ki, Qoqol, Bunin bəşəri deyillər. Dostoyevski rus milliyətçisi idi. Ancaq Dostoyevskini bəşəri saymamaq olarmı? Bəşəri olub-olmamağın vətən sevgisinə dəxli varmı?

Qayıdaq Mişimanın yaradıcılığı və həyatı mövzusuna. Mişimanın "Vətənpərvərlik" hekayəsini oxuyarkən insan sözün əsl mənasında şok yaşayır.

**Poruçikin vida məktubunda cəmi bir cümlə vardı: "İmperator ordusuna eşq olsun!"**

Poruçik Sindzi Takeyama qiyamın yatırılması əmri ilə razılaşmayıb xarakiri edir. Arvadı Reyko da onunla birgə intihar edir. Reyko da özündən sonra məktub qoymuşdu; həyatla, valideynlərindən belə tez vidalaşdığı üçün onlardan üzr istəyirdi. Məktub bu sözlərlə bitirdi: "Bir zabit arvadının hər an hazır olacağı gün yetişdi". **"Bir zabit arvadının hər an hazır**

**olacağı gün yetişdi".**

Rekyo ərinin intiharını izlədikdən sonra özünə qəsd edir. Hekayəni oxuyarkən anlayırsan ki, Mişima əslində öz ölümünü təsvir edir. Poruçikin xarakirisi elə Mişimanın özünə qarşı qəsd formasıdır. Yukio Mişima kitablarında da çox ciddi məqamlara toxunmuş, müqəddəs yapon ruhunun üstünlüyünü sübut etmişdi.

Bəs siz necə düşünürsünüz? Mişima tale hökmündən qaça bilərdimi?

**Ustad jurnalı, fevral sayı – 2019**

## Əhməd Ağaoğlu - Dünən, bu gün və həmişə

"Mən kiməm" adlı məqaləsində Əhməd bəy Ağaoğlu daxili dünyası ilə zahiri dünyası arasında gedən savaşdan bəhs edir. Yazır ki, daxili dünyam məni mübarizəyə, insanların yardımına, xeyirxah məqsədlərə dəvət etsə də, zahirim əmr edir ki,

dayan, bəşəriyyət sənin xeyirxah istəklərinlə düzəlməyəcək.

Xeyirlə şərin, səmimiyyətlə təkəbbürün davası insan yarandığı gündən var, həmişə də olacaq. Hər şey insanın özünü necə tərbiyə etməsindən asılıdır. Öz tərbiyəsindən əmin olan insanlar bu əminlikdə səmimidirmi? Dahi Əhməd bəy özünü mühakimə edən bu yazını ahıl yaşlarında yazıb. Özünü mühakimə etmək böyük şəxsiyyətlərə məxsus xüsusiyyətdir. Məqalədəki əsas suallardan biri budur: Həqiqətənmi eqoizmlə altruizm arasında gedən savaşda qələbəni bizim üstünlük verdiyimiz tərəf qazanır? Həqiqətənmi bu iki xüsusiyyət arasında seçim etmək bizim iradəmizdən aslıdır? Bu iki xüsusiyyət arasında seçim edərkən bizim həmin məqamdakı psixoloji vəziyyətimiz, ruh halımız böyük əhəmiyyət kəsb edir.

Əhməd bəy bu məqalədə Montenin Sezar haqqındakı fikirlərindən bəhs edir. "Sezarı qorxunc eqoizm, qarşısıalınmaz şöhrətpərəstlik sevdası məhv etmədimi?" Dünya tarixində elə rəhbərlər olub ki, öz eqolarını doyurmaqçün yüz minlərlə insanı qurban vermək onlar üçün adət halını alıb. Zərrə qədər də əzab çəkməyiblər. Eqo bizi insanlıqdan çıxarır, başqalarının əzabları bizi narahat etmir, başqalarını "başqa" saymağa davam etdikcə eqo bizə qalib gəlir. Eqoist insan hansısa məqamlarda xeyirxahlıq edə bilər, ancaq bu

xeyirxahlığın ömrü az olur, qısa zamandan sonra eqo yenidən insan duyğulara qalib gəlir. Eqoist insanın xeyirxahlığında məqsəd özünü göstərmək, diqqət mərkəzində olmaq istəyidir. Bəşər övladının ən böyük problemi tarixdə özünü təsdiq etməkdir. Hegel fəlsəfəsinin əsas qayələrindən biri bu amilə həsr edilib. Sənətin yaradılışındakı səbəblərdən başlıcası da eqodur. İnsan ölümü, ölümlü dünyada yaşamağı ilə barışa bilmir. Zənn edir ki, həyatda onu ölümsüzləşdirəcək nələrsə etməlidir. Özünü ölümsüzləşdirmək məqsədilə rəsmlər çəkir, şeirlər yazır, heykəllər yaradır. Ancaq uzun illər ərzində ya çətin qəbul olunur, ya da ümumiyyətlə, qəbul edilmir. Xüsusən də qapalı cəmiyyətlərin sənətə baxışında bir istehza, nifrət duyulur. Cəmiyyət qəbul etmədikcə, nifrətini göstərdikcə, lağ hədəfinə çevirdikcə sənət adamının "mən" eqosu böyüyür. Mövlanə deyirdi ki, sevgini uzaqlarda axtarmayın, eşqi tapmaq üçün uzaq məmləkətlərə səyahət etməyin. Çalışın ki, içinizdə sevgiyə qarşı yaranan əngəlləri axtarasınız, tapasınız. Eqoizm bizə içimizdəki neqativ amilləri, sevgimizə mane olan bəd amilləri məhv etməyə mane olur. Əksinə, eqoizm həmin əngəlləri qidalandırır, onlara güc verir.

Eqoizm hər növ şərin qaynağıdır. Eqoist düşüncəylə savaşa erkən yaşda başlamaq lazımdır. Əhməd bəy yazır ki, uşaq yaşlarından etibarən övladlarınıza mənfəət qarşılığında hansısa işi

görməyi, acgözlüyü öyrətməyin. Övladlarınızı tərbiyə etməyə gecikməyin. Övlad tərbiyəsi haqqında Əhməd bəyin dediyi fikirlər bu gün də aktuallığını qoruyub saxlayır. "Uşaqdır, böyüyəndə öyrənər" zehniyyəti ilə uşaqları bu gün də məhv edənlər var. Görəsən, biz öz dahi şəxsiyyətlərimizi nə zaman başa düşəcəyik? Tənqidi realizm nümayəndələri cəmiyyətdəki qüsurları kəskin dillə tənqid etdikləri zamanda, Əhməd bəy Ağaoğlu buna alternativ olaraq "Sərbəst insanlar ölkəsində" əsərini yazdı və maarifçi realizmə üstünlük verməyin əhəmiyyətini izah etdi. Hansı daha faydalıdır? Davamlı olaraq kəskin şəkildə tənqid etmək, ya ciddi uğurlu nümunələr təqdim etmək? Təbii ki, hər yazıçının, hər müəllifin öz üslubu, öz ideoloji xətti var. Seçdiyi janra görə bir müəllifi tənqid etmək olmaz. Əhməd bəyin xatirələrini, həyatını oxuyarkən insan sarsılır. Bu qədər əzablı ömrün, iztirablı həyatın içində Əhməd bəy yüksək intellekti və müxtəlif xarici dillərdə danışmaq bacarığını, prosesləri sağlam məntiqlə qiymətləndirmə qabiliyyətini necə öyrənmişdi? Əhməd bəy Şuşadakı rus-tatar məktəbində oxuyarkən məktəbdəki 45 şagirddən sadəcə 5- i müsəlman idi. Ermənilər məktəbdə çoxluq təşkil edirdilər və müsəlman uşaqları incidir, aşağılamağa çalışırdılar. Yusif Vəzir Çəmənzəminlinin xatirələrində də bu məqama rast gəlmişdim. Təəssüf ki, o dövrlərdə xalqımızın təhsilə marağı

az olub. Əhməd bəy heç şübhəsiz ki, milli fikir tariximizin ən vacib, ən parlaq şəxsiyyətlərindən biridir. O, yazılarında dəfələrlə milli şüura sahib olmağın zəruriliyini vurğulamışdı. Milli təfəkkür olmadan xalq vahid amal uğrunda yaşaya, ümumi məqsəd naminə mübarizə apara bilməz. Bu gün gənclərin böyük qismi Cümhuriyyət dövrünün tarixini bilmir. Səbəblərdən biri budur ki, Sovet dönəmində milli fikrin vacibliyindən danışan adamları təhdid etdilər, çörəklə imtahana çəkib onlardan satqın obraz yaratdılar. Nəticədə biz dəyərli ziyalılarımız haqqında vacib bilgilər əldə edə bilmədik. Sovet dövründə nəyi dəyişmədilər ki? Milli düşüncəmizi məhv etdilər, atalar sözlərimizi dəyişdirdilər, ziyalılarımızı repressiya qurbanı etdilər. Bütün çətinliklərə baxmayaraq biz bir xalq olaraq ölkəmizin varlığını qoruya bildik.

Əhməd bəy "College de France"dakı müəllimi, professor Renanın "Şərqə getmə, Şərq zalımdır, səni udar, məhv edər" məsləhətinə əməl etmədi. Ernest Renana cavab verdi ki, mən öz vətənimə qayıdacam, burada öyrəndiklərimi orada öz məmləkətimin insanlarına öyrədəcəm. Uğurlu karyeradan imtina edib cəhalət içində boğulan məmləkətə qayıdan, zülmətləri aydınlığa qovuşdurmaq istəyən Əhməd bəy heç şübhəsiz ki, ən yüksək hörmətə, ən ali sözlərə layiqdir. Nə yaxşı ki, Əhməd bəy Ağaoğlu kimi ziyalımız var.

**Ədəbiyyat qəzeti, 09. 02. 2019**

## Fironun dəftərindəki ölüm qatarı

Digər əsərlərindən fərqli olaraq "Fironun dəftəri" əsərində Kənan Hacı daha dərin qatlara enə bilib. İnsan təhtəlşüurundakı bir neçə məsələni əks etdirib. Kənan Hacı kitabın elektron versiyasını mənə bir neçə il əvvəl göndərmişdi. Kitabı ilk dəfə 2015-ci ildə oxudum. Gənc olsam da kitabları elektron formada oxumağı sevmirəm. Kitab informasiya mənbəyi olduğu kimi, həm də estetika hadisəsidir. Kitabı estetika hadisəsi kimi qavramağım üçün onu kağız formada oxumağa üstünlük verirəm. Roman haqqında danışmazdan əvvəl roman yazmağın çətinlikləri haqqında danışmaq istəyirəm. Əgər sən haradasa işləyirsənsə, demək ki, sutkanın 8-12 saatını işdə keçirirsən, iki saatı da yola çıxsaq, ciddi mənada yorulur, taqətdən düşürsən. Belə ağır iş günlərindən sonra yazmaq çox çətin olur. Əgər sən heç yerdə işləmirsənsə, özünü faydasız insan sayırsan və motivasiyanı itirirsən. Bütün bunlara oxucu laqeydliyini də əlavə etsək vəziyyət bir qədər də mürəkkəbləşir. Belə ağır şərtlərə,

çətinliklərə rəğmən yazmaq, yaratmaq əzmində olan adamları alqışlamaq, onlara dəstək olmaq lazımdır.

"Fironun dəftəri"ni oxuyarkən insan qarışıq hisslər yaşayır. Obrazların taleyi, əhvalatı danışanla həmin əhvalatdakı hadisələri yaşayan obraz arasındakı oxşar məqamlar insanı çaşdırır, bəzən əyləndirir, bəzənsə kövrəldir. Ümumiyyətlə, kövrək məqamlar, qapalı, bədbin adamların taleyi, insana münasibətdə dərin həssaslıq Kənan Hacı yaradıcılığının aparıcı motivlərindən biri, bəlkə də, birincisidir.

Fironun gündəliyini oxuyarkən onun məqsədsizliyini, xaraktersizliyini anlamaq olur. Hərdən mənə elə gəlir ki, bəzi adamların taleyinə yazılan tək ifadə əzabdır. O, ömrü boyu əzab çəkməyə məhkum edilib. Heç bir çıxış yolu tapa bilmir, heç cür bədbinlikdən xilas ola bilmir. Çünki bu əzablar onun taleyinə yazılıb. Fironun varlanmaq istəyində bir məqsəd yoxdur. Zaman gəlir ki, o, çox qazanır. Ancaq qazandıqlarını qoruyub saxlaya bilmir. Çünki Firon nə üçün qazandığını bilmir. Həyatında bir amal, bir məqsəd yox idi. Romanı oxuyarkən mən cəmiyyətimizdəki nihilizmi bir daha anladım. Bu gün biz cəmiyyət olaraq "niyə" sualı qarşısında cavabsız qalırıq. "Niyə" sualı fəlsəfənin ən ağır mövzularından biridir. "Niyə" sualı axtarışın, düşüncənin

təməlidir. Həyatımızı vərdişlər əsasında yaşayırıq. Fironun iradəsizliyi, xarakterindəki çatışmaz cəhətlər də cəmiyyətdə yaranmış vərdişlərin bir hissəsidir. Romanda həm də cəmiyyət qınanılır, sözün düzü, bu məqamda Alfons de Lamartinin Hüqonun "Səfillər" romanı haqqında yazdığı tənqidi xatırladım. Lamartin dostu Hüqonu cəmiyyəti günahkar çıxarıb fərdi müqəddəs saydığı üçün tənqid edirdi. Bildirirdi ki, əsərin bəzi hissələri şişirdilmiş dərəcədə dramatikdir. Fironun əzablarındakı dramatiklik şişirdiləcək dərəcədə olmasa da, Fironun öz nəzərində normadan çoxdur. O, öz vəziyyətini faciəvi qəbul etdikcə daha da bədbinləşir. Firon natamamlıq kompleksindən ciddi mənada əziyyət çəkir. Onun varlanmaq istəyinin kökündə özünü təsdiq etmə istəyi var. Bu səbəbə görə varlansa da, tez zamanda qudurur, eyş-işrətə, mənasız yerlərə pul xərcləyir və müflis olur. Ancaq romanın qəribə məqamlarından biri budur ki, Firon həmişə təkdir. Fironun təkliyi onun psixologiyasına ciddi xəsarət yetirib. Firon öz xoşbəxtliyini harada tapacağını, harada axtarmalı olduğunu bilmir.

Kənan Hacı bu əsərdə həm də Freyd fəlsəfəsinə istinad edib. Uşaq yaşlarımızda yaşadığımız məhrumiyyətlər, istəklərimizin həyata keçməməsi, gözlərimizin başqa uşaqların səadətli həyatında qalması bizdə ciddi travmalar yaradır. Bu travmalar bizi yetkin insan olmağa qoymur. Daim

həyatımızın hansısa məqamlarında mənəvi boşluğa düşürük. Əksər hallarda yaşadığımız mənəvi boşluqdan qaçmağın yollarını tapa bilmirik. Yaranan mənəvi boşluq zamanla dərinləşir. Bu anlarda elə bilirsən ki, bütün dünya sənə qənim kəsilib, hər kəs sənə düşməndir. Uşaq yaşlarımızda yaşadığımız kiçik boşluqlar zaman keçdikcə ağır yaralara çevrilir. Biz böyüdükcə həmin boşluqlar da boy atır və güclənərək yaralarımızın qaysaqlarını dağıdır.

"Fironun dəftəri" həm də müxtəlif elementlərin vəhdətidir. Bu romana hekayə içində hekayə də demək olar. Çünki romanı birinci şəxsin diliylə nəql edən müəlliflə Fironun iztirabları arasındakı oxşarlıqlar məni çaşdırdı. Bəzi anlarda dəqiq müəyyən edə bilmədim ki, söhbət Firondan gedir, ya hadisəni nəql edən müəllifdən. "Fironun dəftəri" Kənan Hacının ən pessimist əsəridir. Əsərin bəzi məqamlarında əsəbiləşdim. Firon ətrafda baş verən hadisələrə laqeyddir. Onun biganəliyinin səbəbi həddən çox qapalı olması ilə bağlıdır. Firon təkliyini heç kimlə bölüşmək istəmir. Əsər pessimist ruhlu olsa da yazıçı bir çıxış yolu təklif edir. Firona göndərilmiş uşaq onu işıqlı yola, paklığa dəvət edir, ancaq Firon gecikmişdi. Həyat da belədir. Dərk olunması ən vacib sayılan məsələni uzun illər sonra dərk edirsən, o zaman da gec olur. Elə Kənan Hacının "Ölüm qatarı" şeirində deyildiyi kimi:

adamı sürgünə tək yollamazlar,

belə uzun sürən ölüm olmaz ki...

bu, necə qatardı, sərnişini yox,

məndən özgəsiylə heç bir işi yox...

Firon öz uşaqlığı ilə qarşılaşsa da onunla razılaşmır. Axı necə razılaşaydı? Ömrü yenidən yaşamaq olmur. Keçmişimizə, sadəcə, xəyallarımızda qayıda bilirik. Reallıqsa bizi gələcəyə səsləyir. Bəzən biz gələcəyə o qədər aludə oluruq ki, indiki zamanı yaşamağı unuduruq. Firon da zamanları, anlayışları, həyata baxış fəlsəfələrini qarışdırmışdı.

Təəssüf ki, bu ciddi roman ciddi tirajla çap olunmadı. İstedad bahalı hədiyyədir, qarşılığında insandan mütləq nələrsə alır. Roman az tirajla çap olunsa da, kitabdan anlayışı olan, ədəbiyyatı bilən bir çox ciddi insan tərəfindən oxunuldu.

**Ədəbiyyat qəzeti, 12. 01. 2019**

## Torpaq, dəniz, od, səma.

Çoxumuz Novruz bayramının sadəcə Baharın gəlişi kimi qeyd olunduğunu düşünürük. Əslində belə düşünməyimiz təbiidir. Ərəb xilafətlərinin dövründə təslim edilmiş xalqlar hakim qüvvə tərəfindən milli düşüncədən bilərək məhrum edilirdi. Milli zehniyyətdə olmaq qadağan idi. Sovet dövründə biz də milli bayramlarımızı qeyd edə bilməmişik, milli düşüncə tamamilə qadağan olunmuşdu. Ancaq sərt qadağalar olmasına baxmayaraq xalqımız ən ağır şərtlər altında belə öz ənənəsini bağlı qapılar arxasında, öz evində yaşatmağı, yadda saxlamağı bacarıb. Bəzən özümüzü aşağılayırıq, bəzən də etdiyimiz işləri və yaşadığımız həyatı gözümüzdə çox böyüdürük. Özümüzü başqalarının gözündə böyütməyə xeyli enerji sərf edirik. Səbəbsə odur ki, tariximizi bizə unutdurmağa çalışıblar. Sovet höküməti 70 il ərzində bizə öyrətdi ki, öz dağlarınla, qayalarında, dənizinlə, çaylarına fəxr elə. Öz tarixin haqqında düşünmə, keçmişinin həsrətini yaşama, keçmiş günlərin xiffətini yaşama. Sovet tarixçiləri Şah İsmayılı, Nadir şahı,

Şah Qacarı bizə düşmən kimi təqdim etmədimi? Biz bacarıqsız xalq deyilik, çünki ən ağır şərtlərdə belə yaşamağı, həyatda qalmağı bacarmışıq. Atasını ikinci dünya savaşında, oğlunu Qarabağ döyüşlərində itirən neçə ata var bu məmləkətdə? Hərdən onlara yaşlı nəsil deyib tənqid edirik. Düşünmürük ki, bizdən öncəki nəsillər ciddi travmalar yaşayıblar. SSRİ DTK- nın dəhşətlərini görüblər, repressiyanın ağır nəticələrini bizdən daha çox hiss ediblər. Aclıq, çörək növbəsi görüblər, talonla ərzaq alıblar. İnsanları ittiham etmək asandır, onların yaşadıqları çətin anları xatırlamaq, hadisələri doğru təhlil etməksə çətin. Qayıdaq mövzumuza.

Novruz bayramının türk dünyası üçün ciddi tarixi əhəmiyyəti var. Əbülqazi Bahadur Xan "Şəcərəyi türk" əsərində yazır: Bütün qövmlər birləşərək hiylə yoluyla türkləri məğlub etdilər. Türklər qaçmağa məcbur oldular. Özlərinə sığınacaq düzəltdilər. Orada od qalandı, həmin odu yeni həyat əlaməti, yeni başlanğıc kimi qəbul edib müqəddəs sandılar"

Bayramın Ergenekon adlanmasının tarixi əhəmiyyəti onun türk həyat tərzi, dağıdılmış tük tayfalarının yenidən birləşməsini özündə əks etdirir. Türklər tonqal qalayıb qılınclarını tonqalın ətrafına qoyardılar. Od deyərkən təkcə yanan alovdan söhbət getmir, od həm də ocaq, yurd mənasında işlənir. Əksər bölgələrimizdə hələ də öz yurduna ocağımız deyən insanlar var. Türklər

döyüşkən xalq olduqlarına görə daim səfərlər etməyə, köçəri həyat yaşamağa məcbur olublar. İlk dəfə daimi bir yurdda məskunlaşmaları isə onlarda bayram ovqatı yaradıb. Onlar yeni günə keçdiklərini, yeni həyata başladıqlarını düşünüblər.

Bir qədər də Sovet dövründə ölkəmizdə Novruz bayramı haqqında çəkilən filmlər haqqında danışaq. Əslində Sovet dövründə konkret Novruz bayramı mövzusu haqqında çəkilən filmimiz yoxdur, ya da mən görməmişəm, baxmamışam. Ancaq filmlər haqqında ciddi bilgisi olan dostlarımdan soruşdum, onlar da əsas mövzusu Novruz bayramı olan filmin çəkilmədiyini deyirlər. Bir daha xatırladım, söhbət Sovet dövründə çəkilən filmlərdən gedir. “Dəli Kür” və “Yeddi oğul istərəm” filmlərində Novruz bayramı ilə bağlı səhnələr var. Ənənələrimizin məcburən unutdurulduğu bir zamanda çəkilən filmlərdə milli bayramlarımız haqqında epizodik məqamlar yaratmaq da böyük iş idi. “Neft və milyonlar səltənəti” povestinin motivləri əsasında çəkilən Qızıl uçurum filmində də Novruzla bağlı epizodlar var.

Sovet dövründə atalar sözlərimiz, xalq məsələlərimiz saxtalaşdırıldığı kimi, bayram ənənələrimizə də müdaxilələr edilib. Vera Tulyakova Nazim Hikmət haqqında yazdığı xatirələr kitabında deyir ki, Sovet dövrünün siyasi lətifələrini Mərkəzi Komitənin sifarişi ilə İlya

Erenburq yazırdı və bu lətifələr zəhmətkeşlər arasında sürətlə yayılırdı.

Qafqazın çox ciddi əhəmiyyəti var, bu səbəbə görə də Qafqaz tarixini saxtalaşdırmaq çoxlarının arzusu olub. Qafqazla bağlı dəqiq bilgilər əldə etmək üçün Murad Adcının kitablarını oxumaq lazımdır.

Kimisə günahlandırmazdan əvvəl özümüzü ittiham etməliyik, özümüzə tənqidi münasibət göstərməyi bacarmalıyıq. İnsanın gərək özünə yazığı gəlməsin. Yazar dostum Səbuhi Şahmursoy "Torpaq, dəniz, od, səma" filmini izləməyi məsləhət görməsəydi, belə bir filmin mövcudluğu haqqında xəbərim olmayacaqdı. Filmin ssenari müəllifi xalq yazıçısı Anardır. Rejissor Şamil Mahmudbəyovdur. Film Qobustan qayalarındakı rəsmlərin təsviri ilə başlayır. Növbəti səhnədə insanların quraqlıdan zədələnmiş, qurumuş torpağa inamlarını itirməsinin şahidi oluruq. Hər kəs quru torpaqlarda ağacların yetişməsinə inanmadığı halda Kərim baba inamını itirmir. Uzun səfərdən qayıdan kimi ağac əkməyə başlayır. Oğlu Əli atasına etiraz edir, hətta istehzayla yanaşır.

"Kişi qoca yaşında iş tapıb özünə, bu torpaqlarda heç nə yetişməz"

Uşaq, Kərim babanın nəvəsi bağban olmaq istədiyini deyir. Atası bu fikrə etiraz edir:

“Fikrini nə tez dəyişdin, axı sən balıqçı olmaq istəyirdin”

Əli dənizə olan heyranlığını, dənizin qazanc mənbəyi olduğunu dediyi anda Kərim baba cavab verir.

“Sən dənizin namərdliyini görməmisən hələ”

İnsan həyatı çox maraqlıdır. Bütün həyatın boyu bağban olmağı arzuladığın halda dənizçi olursan, ya da əksinə dənizçi olmaq istədiyin halda bağban olursan. Sevmədiyin peşəyə təsadüfən yiyələndiyinə görə dənizdə tez boğulursan, bağda da ağaclara qulluq edə bilməyin qurudursan, nəticə də oksigen çatışmazlığından boğulursan. Kərim baba təbiətədən heç nə ummur, ağac əkməsinə səbəb təbiəti təmmənasız sevməsidir. Ancaq balıq ovçusu Əli dənizə sadəcə qazanc mənbəyi kimi baxır. Məhz bu səbəbə görə Kərim baba oğluna deyir ki, sən dənizin namərdliyini görməmisən.

Tufan qalxan kimi qadınlar sahilə qaçıb həyəcanla balıq ovuna gedən ərlərinin qayıtmağını gözləyirlər. Filmin ən maraqlı səhnələri Kərim babayla nəvəsi Kamil arasında olan söhbətlərdir.

Məzarlıqda söhbət edirlər:

- Hamının axırı bu qara torpaqdır.
- Baba, hamı öləcək?
- Hə bala, hamı. Yer üzündə nə qədər məxluq varsa hamısı öləcək.
- Mən də öləcəm?

- Yox, sən yox. Sən böyüyənə qədər elə bir şey tapılar ki, adamlar ölməsin.
- Baba, bəs sən öləcəksən.
- Hə, mən öləcəm.

Ölüm həyat dilemması daim düşüncə adamlarını düşündürüb, onları çətin suallarla qarşı-qarşıya qoyub. Maraqlı hadisələrdən biri də məzarlıqda dəfn olunanların qəbir daşlarında peşələri ilə bağlı şəkillər çəkilməsidir.
Uşaq şəkilsiz məzarı görəndə soruşur.
-Baba. bəs bu qəbirdə niyə heç şəkil yoxdur?
- Yəqin, bu, elə adamların qəbridir ki, onların heç bir işi heç kimin yadında qalmayıb. Sadəcə yaşayıblar, ölüblər, vəssalam. Ona görə də camaat bilməyib ki, qəbir daşına nə şəkli çəksinlər.
Filmdə biz biri-birini əvəz edən 4 nəslin müxtəlif zamanlardakı talelərini, həyat tərzlərini görürük. Hər nəslin taleyi bir Novruz rəmzi ilə təqdim olunub. Adından da, bəlli olduğu kimi film 4 novelladan ibarətdir. Elə həyat da əsas dörd ünsürdən ibarətdir. Hava, su, od, torpaq
Balıqçı Əli deyir ki, dənizdən neft çıxarırlar, balıq tutmaq dövrü deyil.
Qadınlarsa etiraz edir ki, daha mazut əlindən dəniz suyunda paltar da yumaq olmur.
Rəssam qızla neftçinin söhbətində də bizə bir çox məsələ aydın olur. Rəssam qız dənizin gözəlliyindən, sehirli təsirindən danışdığı halda

neftçi etiraz edir ki, dənizin gözəlliyi sadəcə dibindədir.
Rəssam qız etiraz edir:

- Belə çıxır ki, siz bu dənizdə neftdən başqa heç nə görmürsünüz?

Film 1967-ci ildə çəkilib. Sovet dövründə çəkilən filmdə neftlə bağlı belə fikrin səsləndirilməsində məqsəd bəlkə də SSRİ-nin Bakıya ancaq neft mənbəyi kimi baxdığını göstərmək olub. Həyat, əsasən də müharibə rəssam qızın bədbinliyə qapılmasına səbəb olur:

- Mən bir zamanlar alov çəkmək istəyirdim. Ancaq müharibə alovu yox.

Nənəsinin dua etdiyini görən nəvə soruşur:

- Axı Solmaz xala deyir, Allah yoxdur.
- Kəs səsini . . .

Sovet rejimi həyatımızın bütün sahələrində azadlığımızı boğmuşdu. Allah haqqında ancaq məzarlıqda düşünmək və danışmaq olardı. Təkcə məzarlıqda qismən də olsa azadlıq vermişdi bizə Sovet hökuməti.
Müharibənin bitməsini insanlar böyük sevinclə qarşılayırlar. Cəbhədə hər şey fərqlidir. Torpaq, od, dəniz, səma. Ancaq, səmadakı Ay hər yerdə eynidir. Müharibədən salamat qayıdan neftçi görür ki, çox şeylər dəyişib, adamlar, neft buruqları və s. Ancaq anasının, rəssam qızın ona münasibəti dəyişmir.

Hər şey dəyişir, insanlar, dəzgahlar, neft buruqları, müharibədə istifadə olunan silahlar, maşınlar və s. Ancaq torpaq, dəniz, od, səma dəyişmir. Bütün təbiət bu dörd ünsürdən yaranıb. Bəzən biz öz yaranışımızı, ilkin mahiyyətimizi unuduruq. Təbiətə qənim kəsilirik. Təbiətsə düşmən münasibəti bağışlamır. Bəzən bizə elə gəlir ki, Novruz bayramını fərəhlə qeyd etmək üçün mütləq uşaq olmalısan. Həyatımızı həddən artıq ciddiyə alırıq, ya da xoş günlərə, səadətli anlara, bayramlara inamımızı itirmişik. Axı heç olmasa bircə gün bütün dərdləri, bütün problemləri unutmaq olar. Heç olmasa iki saat teatr tamaşasına baxarkən, maraqlı film izləyərkən çətinlikləri qısa müddətlik olsa da unutmaq, beyinə rahatlıq vermək olar. Əslində yazını başdan dörd hissəyə "Torpaq, dəniz, od, səma" hissələrinə bölərək də yazmaq olardı. Ancaq hərdən necə yazılacağına mətnin özü qərar verir, ya da yazarın həmin andakı ovqatı.

Torpaq – deyilənlərə görə insanın yaranışına səbəb olub. Mən bu fikrə inanıram, çünki insan həyatı elədir ki, bir ömür yaşayır və sonda gəldiyi yerə qayıdır. Amma sual oluna bilər ki, bəzi yerlərdə cəsədləri yandırırlar, onlar torpaqdan yaranmayıbmı? İnsan həm də oddan yaranıb deyirlər. Bəlkə bu səbəbə görə bəzi yerlərdə cəsədləri dəfn edir, bəzi yerlərdəsə yandırırlar. Ölüm-həyat dilemması çox ağır mövzudur. Bu mövzu ətrafında suallar tükənmir. Torpağı kənd

adamları daha çox sevir, çünki onlar torpaqla birbaşa təmasda olurlar.
Od – ocaq, ev, yurd mənasındadır. Ocağın sönməsin, yəni evindən ruzi- bərəkət əskik olmasın. Od həm də bir sosial mühit anlamını özündə ehtiva edir. Novruz bayramının ilkin prinsiplərin biri də maddi nemətlərin bərabər bölüşdürülməsidir. "Ağırlığım odda yansın" sözlərisə mənim üçün anlaşılmazdır. Əgər odu müqəddəs sayırıqsa ağırlığımızı niyə ona həvalə etməliyik? Niyə bütün dərdlərimizi oda bağışlamalıyıq? Müqəddəs saydıqlarımızdan şəxsi təmənna güdürükmü? Bəlkə bu ənənə də Sovet ideoloqları tərəfindən yaradılıb? Əslində türklərin özünü oda atma ənənəsi Türk Tanrısı Tenqri ilə birləşmək, özünü ona qurban vermək xarakteri daşıyır. Ocaq türk xalqları üçün böyük anlayışdır.

Hava və su – Yaşamaq üçün olduqca vacibdir. Havasız, susuz həyat yoxdur. Bu haqda əlavə şərh bildirməyə zənnimcə ehtiyac yoxdur.

**Ustad jurnalı, mart sayı 2019**

## Əgər sənət olmasaydı . . .

Sənət olmasaydı həyat çox mənasız olardı. Sənət bizə həyatımızdakı bozluğa və boşluğa qalib gəlməkdə kömək edir. Əgər sənət olmasaydı biz həyatımızı sadəcə mexaniki vərdişlərimiz və instinktlərimiz əsasında qurardıq. Sənət həm də eqo hadisəsidir. İnsanın tarixdə özünü təsdiq problemi Hegel fəlsəfəsinin əsas müzakirə mövzularından biridir. İnsanlar özlərini isbat etmək istəyirlər, özlərini ifadə edə bilmək üçün müxtəllif yollar axtarırlar. Həmin müxtəlif yollardan biri də sənətdir. Sənət insanın özünü isbat etmə imkanıdır.

Məşhur heykəltaraş Mikelancelodan soruşublar ki, siz bu sənət əsərlərini necə yaradırsınız. O da cavab verib ki, mən sadəcə artıq olanları yonub atıram, geriyə nə qalırsa sənət odur. Sənət bacardığın hər şeyi yüksək həvəslə etmək deyil. Sənət bacardığın ən üstün şeyi etməkdir. Dünya tarixinə nəzər salanda görürük ki, sənəti, sənət adamları olmayan və ya az olan xalqlar dünyaya heç bir ciddi töfhə verə bilməyiblər. Sənət ölümə etirazdır. Sənət adamların əksəriyyəti əbədi yaşamaq, əbədi mövcudluq haqqında düşünürlər, ölümdən sonra dünyada iz qoymaq istəyirlər. İncəsənətin insanlara ən çox təsir edən növü musiqidir. Hər kəs kitab oxumur, hər kəs rəsm əsərlərinə maraq göstərmir. Ancaq hər kəs musiqi dinləyir.

Sənət təkcə istedad məsələsi deyil. Zəhmətin istedadla müqayisədə əhəmiyyəti daha

böyükdür. Nə qədər insan istedadına arxalanıb, zəhmət çəkməyib, tənbəllik edərək özünü məhv edib. Maraqlı məqamlardan biri də budur ki, Tanrı, təbiət insana hər şeyi vermir. İstedad bahalı hədiyyədir, insandan mütləq qarşılığında nəsə alır. Məsələn, sənə istedad verir, ancaq bütün həyatın boyu pul qazana bilmirsən, həyatın məhrumiyyətlər arasında keçir. Ya da istedadla birlikdə sənə qorxunc tənbəllik xəstəliyi verilir. Seyran Səxavətin "Qaçhaqaç" əsərini oxuyanda Vidadi Məmmədov haqqında maraqlı fikirlər gördüm, ciddi ədəbi istedadı olan, ədəbiyyatı dərindən bilən Vidadi Məmmədov cəmi iki hekayə yazıb. Başqa heç nə yazmayıb. Yazıçılar onun haqqında danışarkən belə anladım ki, çox tənbəl adam olub. Gözünə döndüyüm təbiətmi deyim, Tanrımı deyim, Allahmı deyim, bilmirəm, insana hər şeyi vermir də. Balans pozulmasın deyə müsbət xüsusiyyətlə bərabər mənfi xüsusiyyət də verir adama. Ya da ki, bütün bunlar bəhanədir. İstedad da, tənbəllik də, zəhmət də özümüzdən aslıdır, sadəcə məsuliyyəti boynumuzdan atmaq üçün müxtəlif bəhanələrə sığınırıq.

İrvinq Stounun "Yaşamaq yanğısı" povestini, Cek Londonun Martin İden romanını oxuyarkən düşündüm ki, zəhmət istedaddan daha üstündür. Önəmli olan ruhdan düşməmək, inamını itirməməkdir. İnsan istəsə çox uğurlu işlər görə bilər, sadəcə əksər hallarda tənbəllik bizə mane olur. Gördüyümüz hər əşya bir sənət əsəridir.

Dünya bizim onu gördüyümüz kimidir. Hər şey əslində beynimizdə mövcuddur. Beynimizdəki ideyalara uyğun illüziyalar axtarışına çıxmaqdır sənət. Sənətin insan qəlbinə ən yaxın sahəsi musiqi olsa da, ədəbiyyatın da böyük xidmətləri var. Dünya şöhrətli yazıçıların ədəbiyyat haqqındakı məşhur fikirləri xatırlamağa dəyər. Taqor deyir ki, ədəbiyyat dünyanı insan qəlbinin işığı ilə nurlandırdı. Mütaliəyə yeni başladığımız zamanlarda bədii ədəbiyyat bizə zövq verir, əylənirik, asudə saatlarımızı maraqlı keçiririk. Zaman keçdikcə mütaliə əzaba çevrilir. Zamanla daha ağır kitablar oxuyursan, daha ciddi kitablar insanı daha çox düşündürür, daha çox düşündükcə də beyin gərginləşir, yaşamaq çətinləşir. Dostoyevski əbəs yerə demirdi ki, hər şeyi dərk edirəm, yaşamaq dözülməz hala çevrilir. Tolstoy ömrünün sonlarında anlamışdı ki, yazmamaq yazmaqdan daha əfzəldir. Sokrat ümumiyyətlə kitab yazmamışdı. Susmaq danışmaqdan daha müqəddəsdir.

Can Yücel "şeir nədir" sualına belə cavab vermişdi: "Bir gənc qız Pablo Pikassonu sevirmiş. Ancaq nitq qüsurlu olduğu üçün etiraf edə bilmirmiş. Baxın, mənə görə şeir budur".

Bethoven "Silence" ı bəstələyərək kor qız üçün Ayın möcüzəvi təsvirini yaratmışdı, Sənət budur. Əslində hər şey təbiətdə mövcuddur. Biz sadəcə təbiətin məziyyətlərini səhifələrə, tablolara çeviririk. Tomas Hobbsun sözləriylə desək

yaradıcılıq təbiətin təqlididir. Tolstoysa sənətə başqa cür tərif verir, Tolstoya görə sənət xeyirin şər üzərində qələbəsidir. Belə anlamaq olar ki, sənət adamları real dünyanın həqiqətlərinə qarşı öz sərhədsiz xəyallarını qoyurlar. Real dünya həqiqətlərinə məğlub olduqca sənət adamının sənətdə uğur qazanma istəyi, özünü isbat etmə aclığı daha da artır. Bəzən biz həyatın hansısa sahəsindəki məğlubiyyətimizin qisasını şeirdən, hekayədən almağa çalışırıq. Bəzənsə yazılarımızda sadə, avam, yaxşı adamların qalib gəlməyinə kömək etməklə özümüzə təsəlli veririk.

Dahi alman filosofu Haydeggersə yazır ki, sənətkar və yaradıcılıq anlayışları birlikdə bir vəhdət təşkil edir, yaradıcılıq sənətkardan, sənətkar da yaradıcılıqdan qaynaqlanır. İnsan məhz sənət sevgisiylə kamilləşir, yetkin insana çevrilir.

**Ulduz jurnalı, Fevral sayı 2019**

## Musiqinin Üzeyiri, Hacıbəylinin Azərbaycanı

Mənim kimi orta savadlı bir gəncin Üzeyir Hacıbəyov kimi böyük şəxsiyyətin həyat və yaradıcılığı haqqında yazması çoxlarına təəccüblü görünə bilər. Mənim kimi orta savadlı gənc Üzeyir Hacıbəyovu necə təqdim edə bilər? Böyük şəxsiyyətlər haqqında yazmaq həm çətindir, həm də asan. Əvvəlcə asandan başlayaq. Ona görə asandır ki, böyük şəxsiyyətlər haqqında zəngin informasiya tapmaq mümkündür. Çətindir ona görə ki, böyük şəxsiyyətlər haqqında çox yazıblar. İndi mənim kimi bir gəncin Üzeyir bəy haqqında yeni fikir yazmağı çətindir. Əvvəl yazılanları oxuyub köçürməyə, təkrarlamağa ehtiyac yoxdur.
Üzeyir bəy üç fərqli siyasi sistemini görmüşdü və hər üç sistemin dövründə öz böyüklüyünü qorumağı bacarmışdı. Üç fərqli siyasi sistem deyərkən Rus imperiyası, Azərbaycan Xalq Cümhuriyyəti və Sovet quruluşunu nəzərdə tuturam. Üzeyir bəyin yetişməsində Şuşa mədəniyyətinin böyük əhəmiyyəti olub. Tarix müəllimim Nəsiman Yaqublu bizə Şuşanın mədəniyyət mərkəzi olmasından, Azərbaycana necə dahi şəxsiyyətlər bəxş etməsindən danışırdı. Nəsiman müəllim deyirdi ki, Pənahəli xanın Şuşaya dəvət etdiyi ailələrin övladları, nəvələri Azərbaycanda mədəniyyətin aparıcı simaları olublar.
Üzeyir bəyin doğum günü Milli Musiqi Günü kimi qeyd olunur. Əslində Üzeyir bəyin doğum gününü həm də Milli Fikir Günü kimi qeyd etmək olar. Axı

Üzeyir bəyin fəaliyyəti təkcə musiqi sənətindən ibarət deyil. Üzeyir Hacıbəyov bölgələri, kəndləri gəzirdi ki, istedadlı uşaqları tapsın. Onları musiqi məktəbinə dəvət edir, həm maddi, həm də mənəvi qayğısını onlardan əsirgəmirdi. Üzeyir bəy öz dövrünü qabaqlamağı bacarmışdı. Xan nəşriyyatında "Üzeyir Hacıbəyli xatirələrdə" kitabının çapı hər bir azərbaycanlı oxucunu sevindirməlidir. Üzeyir Hacıbəyov Azərbaycan gəncliyinə təqdim edilməyə layiq olan ən sağlam, ən gerçək, ən mübariz nümunədir. Bu gün elə gənclərə rast gəlirik ki, onlar "şərtlər çətindir", "maddi qayğılar enerjimi alır", "mümkün deyil" sözlərini deyərək öz tənbəlliklərinə haqq qazandırmağa çalışırlar. Üzeyir bəy "mümkün deyil" fəlsəfəsini darmadağın edən dahidir. Üzeyir bəy bütün Azərbaycana və azərbaycanlılara sübut edib ki, ən çətin şərtlərdə, ən ağır sistemlərdə belə yazmaq, yaratmaq, mübarizə aparmaq olar. Üzeyir bəy haqqında yazılan xatirələri oxuyarkən adamın gözləri dolur, kövrəlirsən, uzun-uzun düşünürsən. Bu adam daha nə edə bilərdi ki? Üzeyir Hacıbəyov Azərbaycan üçün bacardığı hər şeyi etdi, bacarmadıqlarını da etməyə çalışdı. Azərbaycan musiqisini inkişaf etdirmək potensialına sahib bəstəkarlar yaratdı.

O, kəndlərdən şəhərə oxumağa gələnlərə, savadlı tələbələrə maddi və mənəv yardım göstərirdi. Həftədə 1-2 dəfə yoxsul tələbələrə evində qonaqlıq verirdi. Üzeyir bəy tədbirlərdə ön sırada

əyləşməyi, diqqət mərkəzində olmağı sevməzdi. İnsanlar onu alqışlayanda utanır, kənara çəkilirdi. Üzeyir bəy Azərbaycan tarixində bir çox yeniliyə imza atıb.

1. Xalq musiqilərinin nota alınması
2. Şərqdə ilk operanın yazılması
3. İlk milli orkestrin yaradılması
4. Musiqi məktəbində xalq musiqi ifaçılığının əsasları mövzusunun tədris olunması
5. Azərbaycanın ilk bəstəkarı olması
6. SSRİ- də böyük şöhrətə sahib professorların Bakıya dəvət olunması, gənc bəstəkarlarla görüşlərinin təşkil edilməsi

İndi sadəcə bunları xatırlaya bildim. Amma Üzeyir bəyin gördüyü işlər, daha dəqiq ifadə etsəm, onun tərəfindən həyata keçirilən ilklər çox olub. İmperiya devrilmiş, cümhuriyyət yaranmış, iki il sonra SSRİ qurulmuşdu. Qısa zaman ərzində insanlar üç fərqli sistemi görmüşdülər. Cümhuriyyətin süqutundan sonra insanlar öz inanclarını itirmişdilər. Bəzilərisə SSRİ-nin qurulmağını bayram kimi qarşılayırdılar. Azərbaycanın elitası, sənəti, mədəniyyəti anlayan az saylı adamlar Üzeyir bəyə dəstək olur, ona öz məqsədlərini gerçəkləşdirməkdə kömək edirdilər. Ancaq onu qınalayanların sayı daha çox idi. Çünki

insanlar heç zaman akademik musiqi dinləməmişdilər. Üzeyir bəy qadınların azad, savadlı, təhsilli olmasını istəyirdi. Ən çox da bu səbəbə görə tənqid olunurdu. Düşmən qüvvələr, ermənilər də onun böyüklüyünü dərk etmişdilər. 1918-ci ilin mart qırğınlarında erməni daşnakları Üzeyir bəyin evini güllələbaran etmişdilər. Üzeyir bəyi öldürmək planı iflasa uğramışdı. Ermənilər həmin hadisələr zaman Cəfər Cabbarını da öldürmək istəyirdilər. Əslində Azərbaycan ziyalılarına qarşı erməni terroru 1905-ci ildən başlamışdı. Ömər Faiq Nemanzadə 1905-cü ildə bir məqaləsində yazırdı ki, qonşuluğumuzda erməni xalqı kimi bir xalqın mövcudluğu bizim üçün təhlükədir. Kaş o zaman xalqımız Ömər Faiqi diqqətlə oxuyaydı. Sovet dövründə nəyə görə Sabir, Mirzə Cəlil geniş mənada təbliğ olunurdu. Ancaq Ömər Faiq Nemanzadəni təbliğ etmirdilər. Sovet dövründə təhsil almış adamlardan Ömər Faiq Nemanzadə haqqında soruşuram, cavab verə bilmirlər. Ancaq Sabiri, Mirzə Cəlili yaxşı tanıyırlar. Sovet dövründə həm də atalar sözlərimizi saxtalaşdırırdılar. Məsələn, ikinci dünya müharibəsi illərində xalqa "Elnən gələn yas, toy bayramdır", "Palaza sürün, elnən sürün" kimi atalar sözləri lazım idi.

Üzeyir Hacıbəyli xatirələrdə kitabını oxuyarkən Üzeyir bəyin necə böyük ürək

sahibi olduğunu görürsən. Geyimi köhnəlmiş, pulsuz tələbələrə yeni geyimlər almaq üçün Üzeyir bəy öz maaşından pul verirdi. Atası müharibədə olan tələbələrə öz maaşından təqaüd verirdi. İxtisaslı kadr, savadlı musiqiçi yaratmaqdan daha çətini həmin gənci kəşf etməkdir. Üzeyir bəy həmin uşaqları kəşf edirdi. Onları tapıb Bakıda musiqi məktəbinə gedirdi. Üzeyir bəyin əsərləri dünya şöhrəti qazanıb. Üzeyir bəy öz musiqisində xalqımıza məxsus milli xarakteri əks etdirirdi. Üzeyir bəy tələbələrinə deyirmiş ki, musiqimizdə milli xüsusiyyətlərimizi əks etdirməliyik. Əgər musiqimizdə milli ruhumuzu əks etdirə bilsək, onu digər xalqlar da sevəcək. Ancaq Üzeyir Hacıbəyovun paxıllığını çəkənlər də çox idi. Konservatoriyanın erməni və rus idarəçiləri Üzeyir bəyi sevmirdilər. Xüsusən də erməni müəllimlər Azərbaycanlı gənclərin not öyrənməsini, peşəkar musiqiçi kimi yetişməsini istəmirdi. Məsələn, İoesyan adlı erməni müəllim Azərbaycan tələbələrinin musiqinin sirlərinə bələd olmalarını, dünya musiqisini öyrənmələrini istəmirdi.

Bu hadisələri oxuduğum zaman 20-ci əsrin əvvəllərində olan bir hadisəni xatırladım. Bu hadisəni də mənə tarix müəllimim Nəsiman Yaqublu danışmışdı.

20-ci əsrin əvvəllərində Azərbaycan ziyalıları ana dilində qəzet yaratmaq üçün Peterburqa

rəsmi məktub göndərirlər. Peterburq bu məktuba mənfi cavab verir:
“Ziyalılar qəzeti rusca oxusunlar, qalan xalq da qoyun, quzu otarsın”
Çox aşağılayıcı cavabdır. Ölkəmizin, millətimizin tarixi ilə bağlı obyektiv məqamları biləndə insan dözə bilmir, əsəbiləşir, özündən çıxır. Üzeyir Hacıbəyov təkcə musiqi yazmır, bəstəkar yetişdirmir, həm də felyetonlar yazırdı. Onun felyetonlarında xalqımızın yaddaşı, tarixi, ağrıları, acıları var. Üzeyir bəyin “Biz nə tövr iş görürük” felyetonunu zamanında anlaşaydıq hər şey fərqli olardı. Bu yazısında dahi Üzeyir bəy nəyə görə uğur qazana, keçmişin buxovlarından azad ola bilməməyimizin səbəblərini yazır.
Hətta bu gün də bu sualı özümüzə verməliyik: Biz nə tövr iş görürük? İlk baxışdan bu sual çox sadə görünə bilər. Ancaq bu sualın əsl mahiyyətinə varanda, daha dərindən düşünəndə vəziyyətin neçə çətin olduğunu anlaya bilirsən. İndi mən özümə sual verirəm ki, biz Üzeyir bəyin həmin felyetonda yazdığı tövrdə iş görməkdən nə zaman qurtulacağıq.
Mənə elə gəlir ki, Azərbaycanın Üzeyir Hacıbəyovu demək əvəzinə, Üzeyir Hacıbəyovun Azərbaycanı demək lazımdır. Üzeyirin musiqisi demək əvəzinə Musiqinin Üzeyiri demək lazımdır.

Musiqi incəsənətin insan qəlbinə ən tez təsir edə bilən növlərindən birincisidir. Ədəbiyyatdan, rəssamlıqdan anlayışı olmayan adamlar da musiqidən təsirlənə bilirlər. Bu səbəbə görə də deyirlər ki, musiqi tərbiyə vasitəsidir. Həm də musiqi ilə ideoloji savaş aparmaq olar. Məsələn, Qədim Yunan filosofu Sokrat tələbələrinə deyirmiş ki, bir xalqı məhv etmək üçün onun musiqi zövqünü korlamaq lazımdır. Musiqi, musiqi zövqü bu qədər vacib əhəmiyyətə sahibdir. Üzeyir Hacıbəyov təbii ki, bütün bunları anlayırdı və akademik musiqinin daxilində milli xüsusiyyətlərimizi əks etdirməyə, qorumağa çalışırdı.

Dahi Üzeyir bəyin Azərbaycanında yaşadığımız üçün sevinməliyik, hər bir Azərbaycan vətəndaşı əlini ürəyinin üstünə qoyub Üzeyir bəylə fəxr edə bilər. Mənə elə gəlir ki, indi biz əzab çəkməsək də olar. Üzeyir bəy hamımızın əvəzinə əzab çəkib. Böyük şəxsiyyətlər böyük əzablardan yaranırlar.

**Ustad jurnalı, Aprel sayı – 2019**

## Ölümsüzlük axtarışı – Gilqameş və biz

Bizim insanlar həm işsizlikdən şikayət edir, həm də kitab oxumağa vaxt tapmadıqlarını deyirlər. Obama prezident olan zamanda hər gün 30 dəqiqə kitab oxuyurdu. Angela Merkel hər gün 40 dəqiqə kitab oxuyur. Bizim bəzi gənclər də dövlət əhəmiyyətli məsələlərlə məşğul olduqları üçün kitab oxumağa vaxt tapmırlar. Kaş ki, insanlarımız səmimi olaydılar. "Kitab oxumağa vaxtım yoxdur" deməkdənsə "oxumuram, kitabları sevmirəm" demək daha düzgün olar. Təhtəlşüurumuzda özümüzü savadlı göstərmə cəhdlərimiz olmasa bəlkə rahatlıqla kitabları sevmədiyimizi deyə bilərik. Folkner deyirdi ki, mən olmasam da ədəbiyyat bir şey itirməzdi, Dostoyevski, Tolstoy, Balzak kimi yazıçılar var. Hərdən düşünürəm ki, qədim "Gilqameş" dastanını düzgün anlaya bilsəydik heç Dostoyevskiyə, Tolstoya, Balzaka da ehtiyac olmazdı. Əgər ədəbiyyata mətn hadisəsi kimi baxırıqsa o zaman yeni imzaların, yeni əsərlərin yaranması bizim üçün maraqlı ola bilər. Əgər ədəbiyyata ideya hadisəsi kimi baxırıqsa o zaman düşünmək olar ki, bir çox yazarlar eyni həqiqəti bizə müxtəlif formalarda izah etməyə çalışıblar. Məsələn, Qandinin qeyri-zorakı mübarizə ideyası

bir neçə əsr öncə Nəsiminin həyatında və şeirlərində var idi. Qədim Şərqdə də “özünü o dünyaya həsr etmək”, səadəti o dünyada axtarmaq kimi fikirlər əslində qeyri-zorakı mübarizənin bir başqa adıdır. Çünki qeyri-zorakı mübarizə həm də insandan imtina mədəniyyətinə sahib olmaq kimi yüksək insani keyfiyyətlər tələb edir. Sənətin əsl mahiyyəti əslində sənət adamlarının ölümlə barışmamaq, ölümə meydan oxumaq niyyətidir. Sənət adamı əbədi şöhrətə can atır. İstəyir ki, öləndən sonra onu xatırlasınlar, haqqında danışsınlar, filmlər çəksinlər. Bəzi sənət adamları, yazıçılar müsahibələrində deyirlər ki, mən filmi özüm üçün çəkirəm, kitabı təkcə özüm üçün yazıram. Əgər həqiqətən belədirsə, o zaman niyə kitabını, filmini, musiqini nümayiş etdirirsən?

Ölümsüz olmaq üçün insan fiziki ölümündən öncə unudulmamaq üçün xeyirli, faydalı işlər görməlidir. “Gilqameş” dastanının bizə çatdırmaq istədiyi birinci fikir budur. Gilqameş ən yaxın dostu Enkidunun ölümündən sonra anlayır ki, dünya ölümsüz deyil, bir gün o da öləcək. Kral olsan belə ölümdən qaça bilməzsən. Dastanda bir hissədə yazılır. “Tanrılar insanı yaradanda ona ölümü paylaşmaq hüququ verirlər”. Çox mənalı fikirdir. Ölümü paylaşmaq deyərkən görəsən nə nəzərdə tutulub? “Hamımız öləcəyik” fikrimi və ya ölümdən sonrakı yas mərasimləri, insanların

kədərlərini biri-biriləri ilə paylaşması ənənəsimi deməк istənilib? Müqəddəs Avqustin deyir ki, insan cəsədi təmtəraqla dəfn edirlər, çünki özlərinin həyatda qalmalarını bayram edirlər. Gilqameşə başqa adla Bilqameş deyirlər. Gil etmək, qılmaq, ərsəyə gətirmək deməkdir. Böyük işlər görmək anlamındadır. Bilqameş sözündəsə sözün kökü bildir. Yəni, hər şeyi bilən müdrik insan. Təbii ki, qədim eposlarda simvolik mənalar çoxdur. Əsərin çatdırmaq istədiyi əsas fikirlərdən biri budur ki, ancaq müdrik insan ölümsüzlük axtarışına çıxa bilər.

Sənətlə məşğul olmaq da bir növ ölümsüzlük axtarışına çıxmaqdır. Kimin ölümsüz olduğunusa əsrlər müəyyən edir. Məsələn, bir əsr ədəbiyyat üçün çox az zamandır. Rəsm sənəti üçün bəlkə iki əsr çox az zamandır. Ancaq biz zaman məsələsinə qeyri-ciddi yanaşaraq sənət adamlarının aclıqdan, səfalətdən ölmələrinə rəvac verməməliyik. Enkidu vəhşi xüsusiyyətlərə sahib bir varlıq idi. Ancaq məbədin rahibəsi Tehiptilla bu vəhşidən insan yaradır. Tanrı İştar Gilqameşi və Enkidunu öldürmək üçün Göy Buğanı göndərir. Ancaq iki dost birlikdə döyüşərək Göy Buğanı öldürürlər. Şumer dastanında bir buğanı iki qəhrəman-Bilqamıs və Enkidu, oğuz dastanında hər buğanı bir igid – Buğac və Qanturalı öldürürlər. Dünyanın bir çox xalqları Şumer mədəniyyətindən bəhrələniblər, o cümlədən də biz. Mənə elə gəlir ki, Tanrı İştarın Gilqameşi və dostunu

cəzalandırmasında əsas səbəb odur ki, onlar bilməli olmadıqları sirri bilməyə can atırdılar. Tanrılarsa sirlərini kimləsə bölüşmürlər. Eyni məqam Adəmlə Həvvanın bilik ağacından oğurluq etməsinə də aiddir. Əslində Adəmlə Həvva bilgiyə can atırdılar. Tanrısa onların bilikli olmasını istəmirdi. Ona görə yox ki, Tanrı yaratdığı varlıqların bilgili olmasını qısqanır, ona görə ki, Tanrı bilginin xoşbəxtlik gətirmədiyini bilir və yaratdığı varlıqların rəzil hallara düşməsini istəmir. Prometey odu oğurlayıb insanlara vermişdi, ancaq Zevs buna qəzəblənmişdi. Çünki Zevs insanların özlərinin səy göstərmələrini, soyuğa-şaxtaya vərdiş etmələrini istəyirdi. Biz yazarlar da kitab yazaraq insanlara nəsə izah etməyə, nəsə öyrətməyə çalışırıq. (Xahiş edirəm burada öyrətmək sözü "yekəxanalıq" kimi qəbul edilməsin). Ancaq nəzərə almırıq ki, bilik insanlara səadət vəd etmir. Dostoyevski yazır ki, həddən artıq dərk eləmək xəstəlikdir. Bəs görəsən, həddən az dərk etmək nədir?

**Avanqard. net mədəniyyət portalı**
26. 10. 2018

## Keçmişə hörmət, gələcəyə inam və oxumağa gecikdiyimiz kitab

Hərdən özümüzü böyüdüyümüzə inandırmaq istəyirik Düşünürük ki, daha nağıl dövrü bitib. Nağıllara inanmaq dövrü keçib. Əslindəsə qəlbimizin dərinliyində, şüurumuzun alt qatında nağıllara inam hissimiz yaşayır. Bunu etiraf etməyə cəsarətimiz çatmır. Əməkdar jurnalist, dəyərli dostum Azad Müzəffərlinin “İdrak süzgəcindən keçirdiklərim” adlı hekayələr kitabının ilk hekayəsi məhz bu mövzuya həsr olunub. Körpə Famil atası Rəşiddən nağıl danışmasını istəyir. Rəşid ölkənin qarışıq zamanlarında kitab mağazalarını gəzib nağıl kitabları axtarır. Çətinliklə bir neçə nağıl tapıb oxuya bilsə də, nağıllar tükənir. Famil isə, nağılların davam etməsini, atasından yeni nağıllar danışmasını tələb edir. Bu dəfə Rəşid çarəsiz vəziyyətə düşdüyünü görüb məcburən özündən nağıllar uydurur. Famil böyüdükcə Rəşid yazıçı dostlarının kitablarını Familə verib oxumasını istəyir. Famildə həmin məqamda qəribə hislər yaranır. O atasından nə üçün kitab yazmadığını soruşur. Atasını həvəsləndirir və Rəşid ilk hekayəsini yazır.

Ümumiyyətlə, bir məsələni xüsusi diqqətlə vurğulamaq vacibdir. Azad müəllimin hekayələrində milli düşüncəyə, dövlətçilik zehniyyətinə, xalq ənənələrinə bağlılıq və yüksək hörmət hiss olunur. Bu gün ölkəmizdə elə gənc qələm adamları var ki, 3-5 kitab oxuduqdan sonra elə bilirlər ki, milli kimlikdən, milli hislərdən

imtina etmək müasirlikdir. Çox yanlış düşüncədir. Əgər milli hisslər, milli kimlik, ənənəyə bağlılıq cəmiyyəti inkişafdan saxlayırsa bəs nəyə görə Yaponiya, İngiltərə sürətlə inkişaf edir. Azad müəllim sağlam dəyərlərin yaşamasının tərəfdarıdır. Bəlkə də bu sözlərim bayağı görünə bilər. Ancaq reallıq budur ki, toy bir mədəniyyət hadisəsidir. Əgər bir zamanlar toylarımızda milli musiqi üstünlük təşkil edirdisə son illər mənşəyi bəlli olan və  bəlli olmayan musiqilər ifa olunur, bayağı mahnılar oxunur. Dahi Yunan filosofu Sokrat deyirdi ki, bir xalqı məhv etmək istəyirsinizsə musiqi zövqünü korlayın. "Aşıq toyu" hekayəsində bu suallara dəqiq cavablar tapa bilirik. Sentyabr ayı başlanandan ancaq yapon filmlərinə baxıram. Kaneto Shindonun – "Çılpaq ada", ( The naked island),  Yasujiro Ozunun "Tokio hekayəsi" (Tokio story) və "Gecikən bahar" (Late Spring) filmlərini izlədikcə mənə ən çox əyan olan həqiqət bu idi ki, Yaponiyanın sənət adamları öz keçmişlərinə, öz adətlərinə, milli yapon ruhuna necə böyük əhəmiyyət verirlər. Xüsusən də Yasujiro Ozu Yaponiya gənclərinin Qərb mədəniyyətinə aludə olub öz milli ənənələrini unutmasını kəskin tənqid edir. İndi Azərbaycanda hansısa istedadlı rejissor belə bir film çəksə onu köhnə fikirli olmaqda tənqid edəcək, ironiya hədəfinə çevirəcəklər. Ancaq eyni mövzunu bir yapon, bir alman rejissor işləyəndə onu tərifləyirik, alqışlayırıq. Başa düşürəm, bəlkə

də səviyyə, savad fərqləri ola bilər. Məsələ odur ki, biz savad və səviyyə fərqləri haqda heç düşünmürük axı. Həvəsdən salmağa çox həvəsliyik.
Təəssüflər olsun ki, məmləkətimizdə tərbiyəsiz adamlar da var. Orta məktəb və universitet illərimdə belə tərbiyəsizləri daha çox görmüşəm. Məsələn, onlar elə bilirdilər ki, xadimələr maaş alır deyə məktəbi, universiteti mütləq zibilləmək lazımdır. “Onsuz da təmizləyəcəklər”, “Maaş alır, borcudur” zehniyyəti ilə yaşayan belə adamlar öz işlərində min bir fırıldaq edən adamlardır əslində. Özləri min hoqqadan çıxan bu adamların gücü elə xadimələrə çatır. “Süpürgəçinin nəğməsi” hekayəsini oxuyarkən bu hadisələri xatırladım. Sözün düzü, sentimental hekayələr oxumağı sevmirəm. Sentimental filmləri, kitabları sevməsəm də əslində çox həssas adamam. Məsələn, “Şərikli çörək” filmində Vaqifin zabitə “sən lap atam kimi gülürsən” cümləsi məni kövrəltməyə bəs edir. Bu hekayə də mənə çox təsir etdi. Bəzən hislərimizi zamanında etiraf etmirik, nədənsə çəkinirik, amma o “nədənsə”nin nə olduğunu anlamırıq, qorxumuzun səbəbini başa düşmürük. Özümüzə cəsarətsiz deməyə də ürəyimiz gəlmir. Bir də onda ayılırıq ki, artıq gecikmişik. Məncə bu hekayə məhz gecikənlər üçün yazılıb.
Bu kitabı oxumağa gecikmişəm. Gərək daha əvvəl oxuyaydım. Elə kitablar var ki, onları daha əvvəl

oxusaydıq  bəlkə də həyatımız daha fərqli olardı. Azad müəllimin bu kitabda yazdığı fikirlər haqqında təkrar-təkrar düşünmək, nəticə çıxarmaq lazımdır.
Bütün hekayələr haqqında danışmaq, bu yazını daha əhatəli şəkildə yazmaq olardı. Oxucuları yormağı sevmirəm, həm də oxucuları Azad Müzəffərlinin "İdrak süzgəcindən keçirdiklərim" kitabını oxumağa gecikdirmək istəmirəm. Sizi gecikdirmək istəməsəm də, özümü "Fərari ata" haqqında heç olmasa bir-iki cümlə yazmaqdan saxlaya bilmirəm. Bu hekayədə biz iki dostun, dost olsalar da yetərincə fərqli xarakterə sahib iki atanın həyatları, qərarları arasındakı ziddiyətli məqamları və nəticələrini  görürük. Bir ata çəkinmədən övladını müharibəyə, Vətəni qorumağa göndərir və bundan şərəf duyur. Digər atasa övladını qaçırır, gizlədir, onu savaşın dəhşətli alovuna atmaq istəmir. Ancaq heç bir ata taledən qaça bilmir. Bəlkə biz də taledən qaça bilməyəcəyik. Nə Azad Müzəffərli, nə bu yazını oxuyanlar, nə də bu yazını yazan.

**Artkaspi.az , 10.10. 2019**

## Poçt qutusundan qəm pəncərəsinə

Hər bir azərbaycanlının mütləq baxmalı olduğu 3 filmdən biri "Qəm pəncərəsi"dir. Filmin ssenarisini xalq yazıçısı Anar yazıb, həm də filmin quruluşçu rejissorudur. "Qəm pəncərəsi" filmi əsasən Mirzə Cəlilin əsərləri əsasında çəkilib. Bu film xalqımızın müsbət və mənfi cəhətlərini özündə əks etdirir. Bəzən Azərbaycanın klassik yazıçılarını daha bəşəri, daha böyük miqyaslı əsərlər yazmamaqda günahlandırırlar. Məgər Nobel mükafatçısı İvan Bunin rus kəndlisindən yazmırdımı? Ancaq bir həqiqəti də danmaq olmaz ki, XIX əsr Rusiya ədəbiyyatında, həmçinin Fransa ədəbiyyatında hadisələr daha çox kübar ailələrdə yaşanırdı. Bunun səbəblərindən biri də həmin yazıçıların yüksək təbəqə nümayəndələri olması idi. Onlar kübar ailələrdə doğulmuş, elita tərbiyəsi görmüşdülər. Biz Cek Londonun "Martin İden" romanında, Balzakın "Bəşəri məzhəkə" epopeyasında kübar cəmiyyətin tənqidini görə bilərik. Qərb yazıçıları xilası daha çox elitadan gözlədiyi halda, biz Qurbanəli bəydən, Novruzəlidən yüksək bacarıq, savad umuruq. Kim haqlıdır, bizmi, onlarmı? Axı zaman onların haqlı olduğunu sübut etdi. Biz Novruzəlidən intellekt tələb etdiyimiz və onu rus uşaqlarının gözündə gülüş obyektinə çevirdiyimiz halda, Cek London bütün kübar ailələrinin saxtakarlığını ifşa edən "Martin İden"i yaratmışdı. Axı Qoqol "Taras Bulba"nı yazmışdı. O Taras Bulba ki, düşmən

qızını sevən oğlunu "səni mən yaratmışam, mən də öldürürəm" deyərək qətlə yetirir.

Yazıçını yazmadıqlarına görə qınamaq olarmı? Ümumiyyətlə, klassikləri tənqid edə bilərikmi? Tənqid olunmaz şəxsiyyət yoxdur, heç kimi bütə çevirmək olmaz. Amma kimisə tənqid edərkən ictimai-siyasi şərtlər, dövrün siyasi mənzərəsi mütləq mənada nəzərə alınmalıdır. Məncə, mövzudan çox yayınmasam yaxşıdır.

"Qəm pəncərəsi" filmində biz köhnə fikirlə yeni düşüncə axını arasında yaranmış konfliktin şahidi oluruq. Köhnə nəsil ənənəvi düşüncəni mühafizə etmək tərəfdarı olsa da, onların övladları, nəvələri yenilik tərəfdarıdır, onlar Kefli İsgəndəri qəhrəman sayırlar. Bəs Kefli İsgəndər qəhrəman idimi? Mən deyəndə ki, Cəbiş müəllim, Kefli İsgəndər nümunəvi obraz deyil, məni qınayırlar. Cəbiş müəllimə öz arvadı inanmırdı, arvadı qonşu kişi ilə əlbir olub Cəbiş müəllimdən sabun bişirməsini istəyirdi. Bu fikirlərlə razılaşmayan adamlar deyirlər ki, Kefli İsgəndərin, Cəbiş müəllimin günahı yoxdur, cəmiyyət onları o günə qoyub. Əgər cəmiyyət, savadsız kütlə intellektə qalib gəlirsə, demək ki, o intellektin həyatda qalmaq şansı yoxdur. Bütün xalqlar aydınlanma mərhələsi keçir və bütün xalqlar aydınlanma mərhələsini könülsüz şəkildə keçir. Məcburən, döyülərək, tənqid olunaraq. Bu mövzuda məni

tənqid edən adamlar Alfons de Lamartinin Hüqonun "Səfillər" əsəri haqqında yazdığı tənqidi oxumayıb. Lamartin deyir ki, Hüqo elə xalq kimi davranır, xalqda həmişə günahkar axtarır. Lamartin yazır ki, Hüqo "Səfillər"dəki obrazların əzablı həyatına görə bütün cəmiyyəti günahkar çıxarır. Lamartin Fantinanın saçlarını, dişlərini satmasını həddən artıq pafoslu sayır. Lamartin yazır ki, bu səhnələrdəki dramatiklik şişirdilmiş səviyyədədir.

Mirzə Cəlil səmimi-qəlbdən xalqımızın inkişafını istəyirdi. Ən çətin zamanda, ən çətin şərtlər altında "Molla Nəsrəddin"i yaratmışdı. Təbii ki, tək yaratmamışdı. Dostları, xüsusən də Ömər Faiq Nemanzadə ona çox dəstək olurdu. Amma hər birimiz ciddi mənada düşünməli və bu suala cavab tapmalıyıq. Novruzəli, Kefli İsgəndər bizi inandıra bildimi? Axı şüurun qəbul etdiyi reallıqlar var. Uğursuz adamların dilində səslənən həqiqəti heç kim ciddiyə almır. Kefli İsgəndər cəhalətlə savaşmaq, insanları inandırmaq üçün müxtəlif variantlar düşünüb tapmaq əvəzinə, öz hücrəsinə qapanırsa, ona inanan uşaqlar kimdən güc alsınlar, kimə inanıb təhsil almaq istəsinlər? Əslində, Mirzə Cəlilin "Poçt qutusu" hekayəsini yazmaqda məqsədi Novruzəlini və ya xalqı aşağılamaq deyildi. Əslində, qutuya atılan da məktub deyildi. Qutuya ana dilimiz və milli təfəkkürümüz atılmışdı. Və həmin rus uşaqları da milli

düşüncəmizdən, ana dilimizdən uzaqlaşdığımıza, böyümək istəmədiyimizə görə Novruzəliyə - əslində, bizə gülürdülər.

"Qəm pəncərəsi" filmində ən çox ifadə olunan məsələlərdən biri də qadın azadlığı problemidir. "Danabaş kəndinin əhvalatları"nda, "Məhəmmədhəsən əminin eşşəyinin itməkliyi"ndə bu mövzular obrazlı şəkildə təsvir olunub. Bu filmə baxarkən Mirzə Cəlilin yaşadığı iztirablar, keçirdiyi ürək ağrıları gözlərim önündə canlandı və kədərləndim. Özümdən asılı olmadan gözlərim doldu. Üzeyir Hacıbəyov haqqında yazılan xatirələri oxuyarkən də beləcə kövrəlmişdim. Biz bundan sonra əzab çəkməsək də olar. Üzeyir bəy hamımızın yerinə əzab çəkib. Filmdə kəndlilərin qudurğan Xudayar bəyə münasibəti insanı dəhşətə salır. Kəndlilər Xudayar bəyin şallaq zərbələrinə sevinir. Bu filmdə biz kütlə psixologiyasının təsvirini görürük. Ancaq film təkcə mənfilərdən ibarət deyil. Mirzə Cəlil bizə bir ümid parıltısı, gələcəyə inam qığılcımı verdiyi kimi, onun həyat və yaradıcılığına həsr olunmuş bu filmdə də Kefli İsgəndərin ətrafına toplaşmış kefsiz uşaqlar cəhalət girdabında boğulan xalqın gələcəyinin parlaq olacağına inam hissi yaradır.

Xudayar bəyin özbaşınalığı o dövrün xanlarının, bəylərinin rəiyyətə münasibətini əks etdirir. Xudayar bəyin zalım hərəkətlərinə, qəddar davranışına səbəb kənd camaatının avamlığıdır. Xudayar bəy savadlı deyil. Sadəcə, hiyləgərdir. Ancaq Xudayar bəyin öz dostunun arvadına göz dikməsi o demək deyil ki, bu xüsusiyyət bütünlükdə xalqımıza məxsusdur.

Hər bir azərbaycanlı bu filmi izləməlidir. Bu film həm də bizim yaddaşımızı səsləyir və bizi fəaliyyətə, faydalı işlər görməyə həvəsləndirir.

**Ədəbiyyat qəzeti, 13 Aprel 2019**

## Ədəbiyyat və ictimai şüur

Bir zamanlar ədəbiyyat ictimai şüura ciddi təsir göstərirdi. 19-cu əsrin əvvəllərindən 20- ci əsrin sonlarına qədər ədəbiyyat ictimai rəy yaratmaq iqtidarına sahib idi. Bədii əsərlər, xüsusən də romanlar insanların ən intim həyatına

müdaxilə edə bilirdi. Ortabab romanlar irqi ayrıseçkiliyə qarşı mübarizədə etirazçı qüvvə üçün təməl dayaq roluyunu oynamağı bacarırdı. Ədəbiyyat sevgili seçiminə, geyim zövqlərinə, mebel seçimlərinə təsir edəcək qədər aktual idi. Müasir dövrdəsə ədəbiyyat öz aktuallığını itirib. Çünki postmodern ədəbiyyatın xalqa xidmət etmək, kütləni cəhalətdən xilas etmək, insanlarda ictimai şüurun hansısa formalarını yaratmaq prinsipləri yoxdur. İndi əsas sual budur. Ədəbiyyat ilkin mahiyyətinə xəyanət edib, yoxsa ədəbiyyat ilkin mahiyyətinə məhz indi çatıb? Əzəldən davam edən "sənət sənət üçündür", "yoxsa sənət xalq üçündür" sualına ədəbiyyat dəqiq cavab tapa bilibmi?

Valideynlər övladların həyatında ötən əsrdəki hökmranlığını itirdiyi kimi ədəbiyyat da öz təsir qüvvəsini itirib. Əslində bu movzuda konkret mühakimə çıxarmaq çox çətindir. İndi ədəbiyyat nihilizmin müasir formasını postmodern adı altında yaşayır. Ədəbiyyat ictimai şüur yaratmağa qadirdir. Lakin müasir ədəbiyyat bu yükü daşımaqdan imtina edir. Ədəbiyyatın tarixi qədimdir. Bəlkə də ədəbiyyat öz həqiqətinə min illərdən sonra çatıb. Məhz 21-ci əsrdə anlayıb ki, ədəbiyyatın məqsədi elə ədəbiyyatdır. Artıq romanlarda ciddi ideyalara deyil, bədii estetikaya və linqvistik amillərə üstünlük verirlər. Bir zamanlar ədəbiyyatın vəzifəsi xalqa və ya oliqarxlara, aristokratlara xidmət etmək idisə indi

ədəbiyyatın məqsədi estetikaya, sənətə xidmət etməkdir. Bu günümüzdə ədəbiyyat ömrünü uzatmağa çalışır. Ədəbiyyat həqiqətdən sonrakı mərhələsini, mövzu tükənmişliyi dövrünü yaşayır. Mövzu qıtlığı ədəbiyyat üçün ciddi problemdir. Postmodern romanlarda mənəviyyat dünyasının sakinləri arxa planda qalırlar. Postmodern ədəbiyyat mövcud olanı nə yaradır, nə də inkar edir, mövcud olandan faydalanmağa, onu təhlil etməyə, anlamağa çalışır. Postmodernizmdə pafos, hayqırtı, ciddi səylə nəyisə isbat etmə istəyi yoxdur. Qeyri- müəyyənlik onun əsas əlamətidir.

Ədəbiyyat cəmiyyətdə siyasi və hüquqi şüur yaratmasa da ən azından ilkin fəlsəfi və psixoloji şüur yarada bilir. Hər yazımın sonunda çalışıram ki, ölkəmizlə bağlı təhlillərimin nəticəsini bildirim. Yazıçı özünü konkret olaraq hansısa bir ədəbi janra aid etməməlidir. Yazıçının işi yazmaqdır. Ədəbi, fəlsəfi janrların bölgüsü, əsərlərin tənqidi, təhlili isə tənqidçilərin işidir. Bizim gənc şairlərimiz postmodernizmi oxumadan, təhlil etmədən özlərini postmodernist adlandırırlar. Bu çətin mövzu haqqında yazmaq mənim üçün tezdir. Nümayəndəsi olduğum indiki ədəbi nəsil ədəbiyyata atılmağa tələsdi, nəticədə tez bir zamanda kütləviləşdi və bu, bizim üçün uğurlu olmadı. Çox təəssüflər olsun ki, bizim yazarları bir araya toplayıb onlarla ciddi məsələlər haqqında müzakirələr aparmaq olmur. Biz dünya

ədəbiyytından təsəvvür edilə bilməyəcək qədər uzağıq.

## Latın sükutunda poetik səslər

Fuad Cəfərlinin "Latın sükutu" kitabını oxuduqdan sonra uzun müddət sükuta daldım. Mən bilmirəm latın sükutu necə olur. Amma bilirəm ki, bu sükutun səbəbi şeirlərin təsiri, məni düşünməyə sövq etməsi idi. Bir həftə sonra kitabı təkrar oxudum. Qərara gəldim ki, kitabdakı bəzi şerləri dostum Nəcəf Əsgərzadə ilə müzakirə edim. Müzakirə zamanı məlum oldu ki, bizə ən çox təsir edən misralar təxminən eyni misralardır.

Bizim bir çox şairlərimizdə saxta dərin mənalılıq yaratma cəhdləri var. Saxta dərin mənalılıq yaratmaqk üçün şerin estetikasını qurban verirlər. Ancaq Fuad şerlərində öz eqosunu, öz istedadını sübut etməyə çalışmır. Əksinə öz içindən keçənləri, öz yazadıqlarını, öz təcrübələrini yazır. Öz yaşantılarını yazdığına görə Fuad Cəfərlinin poeziyasında səmimiyyət, təbiilik var.

"Gələn payız" şeirində biz anasına yoxsulluq səbəbindən illər boyu çətir ala bilməyən gəncin kədərli taleyini, illə boyu eyni arzuyla yaşadığını görürük. Halbuki, bu arzu həyata keçirilməsi çətin, illər boyu ürəklərdə qalacaq arzu deyil və ya olmamalıdır. Ən çətin anlarda belə

övlad anasına təsəlli verir. Təsəllini həmişə analar verməyəcək ki. Hərdən valideynlərin də təsəlliyə ehtiyacı olur.

***Ovuc boyda otaqda, özümə də, sənə də,***
***Dünya boyda ümid verdim.***

Bu misralar mənə çox təsir etdi. Bəzən bir kitab şeir oxuyursan. Ancaq cəmi bir neçə misra yadında qalır. Bu misralar həmin misralardandır. Heç zaman şer əzbərləyə bilməmişəm. Məni tutan, hislərimə toxunan misralarsa qeyri- ixtiyarı yadımda qalır. Bəzən poeziyamızda saxta dərin mənalılıq yaratma cəhdlərinə rast gəlirik. Şairlər yaşamadıqları, duymadıqları, hiss etməkdə və qavramaqda, həzm etməkdə çətinlik çəkdikləri mövzulara baş qoyub fəlsəfi misralar axtarışına çıxırlar. Poeziya özünü fəlsəfəsi misralar kəşf etməyə məcburiyyət deyil. Bu mənada mən Fuadı dəstəkləyirəm. O, içindən nə gəlirsə onu yazır. Onun şerlərində mövzular müxtəlifdir. Hiss edirsən ki, şair eyni sözləri təkrar etmək istəmir. Fuad öz təcrübələrini, həyatı baxışını bizimlə bölüşür.

Kitabdakı şeirləri əvvəlcə öz səsimlə oxudum, sonra kitabı bir daha Fuadın səsi ilə oxudum. Fuadın səsi ilə oxuduqca şerlər mənim üçün daha çox aydınlaşdı. Fuad Cəfərli elə müəlliflərdəndir ki, onun yazdıqlarını hiss etmək

üçün heç olmasa ömründə bir dəfə də olsa onunla görüşməli, danışmalı, dərdləşməlisən.

***Yaşamaq sözü***

***bəlkə də haradasa***

***inanmaq mənasına gəlir.***

Bu misraları oxuyarkən Tolstoyun “Etiraf” ındakı fikirləri xatırladım. Dahi Tolstoy da zənn edir ki, əgər insan yaşayırsa deməк ki, nəyəsə inanır. Bu, Arximedin nəzərdə tutduğu istinad nöqtəsi qədər vacibdir. “Mənə istinad nöqtəsi göstərin,

Latın sükutu kitabında Fuad həm də Bakı sakinlərinin psixolojı portretini yaradıb. Bakıdakı hadisələri, ümumilikdə şəhər sakinlərinin psixologiyasını izah edib.

***Bu şəhərdə çoxdan itib təmkin.***
***Bu şəhərdə sakinlər qonaq, qonaqlar sakin…***
***Bu şəhərdə sevinc yarımçıq, gülüş itkin,***

***Bu şəhərdə yollar geniş, yolçular dardı***
***Bu şəhərdə varlıq yoxdu, yoxluq vardı.***

Ən çətini də bu suallara cavab tapmaqdır. Yarımçıq sevgini tamamlamaq, itkin gülüşləri

şəhərə qaytarmaq, yoxsa yarımçıq sevginin yaşatdığı qaysaq bağlamayan, yaddan çıxmayan yaraların vurduğu zərbələr sayəsində həyatın dərinliyinə enmək və ən dərin qatlarda işıq axtarmaq. Poeziya bunlardan hansıdır. Mən ikincini seçərdim, elə şair Fuad Cəfərli kimi. Bədbəxtlikdən mən bu yazını bitirən gün Fuad avtomobil qəzası keçirdi. Xoşbəxtlikdən xəsarət almadı, ailə üzvləri də salamat qurtuldu. Bu şəhərdə yollar geniş, yolçular dardır, şair. Kitabın son səhifələrində məndə belə təəssürat yarandı ki, kitabı Fuad Cəfərli yazmayıb. Sanki Latın sükutu özü Fuad Cəfərlini yazıb, yaradıb. Axı tanıyanlar bilir ki, Fuad Cəfərli çox az danışan adamdır. Poeziya sükutun səsidir. Elə Fuadın sonuncu kitabı kimi.

## Klassiklərimizi tənqid edə bilərikmi?

Son zamanlar bu məsələ ətrafında gərgin müzakirələr, hətta deyərdim ki, mübahisələr, davalar gedir. Ölkəmizdə təəssüflər olsun ki, sənət sahəsində obyektiv tənqid hələ formalaşmayıb. Əslində insan bizim düşündüyümüz qədər də obyektiv varlıq deyil. Məsələn, məntiqin atası Aristotel deyirdi ki, insan son ana qədər məntiqli ola bilməz. Qərbin humanizm simvolu Petrarka deyirdi ki, insan son ana qədər humanist ola bilməz. Hardasa bir qırılma, bir sınma anı olur.

Önəmli olan yıxılandan sonra ayağa qalxmağı bacarmaq və iradənə sarılıb, yumruqlarını sıxıb irəliləməkdir. İnsan nə zaman yıxılır? İstinadını itirən insan yıxılmağa, çöküş yaşamağa məhkumdur. **Mənə istinad nöqtəsi göstərin, kainatı fəzaya qaldırım.** (Arximed) Bizim istinad nöqtəmiz kimlərdir? Klassiklərimiz istinad mənbəyimizdir. İstinad etdiyin mənbəni tənqid etmək olarmı? Mənim anladığım bir məsələ var ki, xalqın dahi deyərək rəğbət bəslədiyi şəxsiyyəti tənqid edəndə gərək çox ehtiyatlı olasan, əgər sən tənqidində ciddi arqumentlərə əsaslanmasan xalqın gözündə gülüş hədəfinə çevriləcəksən. Xalq güldüyü adamları sonra çox böyük çətinliklə ciddi adam kimi qəbul edir. Alfons de Lamartin və Hüqo yaxın dost olsalar da, Lamartin "Səfillər" romanını ciddi şəkildə tənqid edir. Hətta, tənqiddən o tərəfə keçib, romanı darmadağın edir. Lamartin Hüqonu "Səfillər" romanına görə niyə tənqid edirdi? Adətən əksər insanlar Təhminənin, Mədinənin, Sonyanın bədbəxtliyində yeganə günahkarın cəmiyyət olduğunu düşünür. Təhminə və Mədinə yazıçı Anarın əsərlərinin qəhrəmanlarıdır. Sonya isə Dostoyevskinin "Cinayət və Cəza" əsərinin obrazıdır. Lamartinin tənqidlərini oxuyanda ağıllı insan başa düşür ki, bu tənqidlər obyektivdir, əsaslıdır. Hansısa bir adam pislik etməyə, əxlaqsızlığa, satqınlığa, rüşvətə meyillidirsə ən qüsursuz cəmiyyətdə yaşasa belə yenə də nadanlığını davam etdirəcək. Tənbəl

adamlar, nöqsanlarını qəbul etmə cəsarətinə sahib olmayanlar həmişə cəmiyyəti günahkar sayırlar. Lamartin yazır ki, Fantinanın həyatı çox drammatik qələmə alanıb. Əsərdə sentimentallıq həddən artıq çoxdur. Başqa bir nümunə də demək olar. Nabokov Turgenyevi, Dostoyevskini tənqid edir. İndi rus xalqı Nabokovu daş-qalaq etsin. Belə nümunələr çoxdur. Yazıb başınızı ağrıtmaq istəmirəm. Hər kəsi tənqid etmək olar sözlərini demək pafosdan başqa bir şey deyil. Məsələn, ev almaq, maşın almaq, təqaüd almaq alan gənc yazarlar çox yaxşı bilirlər ki, bu uğurlara nail olmaq üçün Anarı tənqid etmək olmaz, ancaq tərifləmək lazımdır. Anarın 80 illik yubileyində "Ədəbiyyat" qəzetini toyxanaya, bəy tərifinə çevirmişdilər. Bəzi adamları heç anlamaq olmur. Məsələn, deyirlər ki, sən hələ filankəsin etdiklərini elə, sonra onu tənqid elə. Birincisi, peşəkar tənqid başqadır, həvəskar tənqid başqa, ancaq bəzi hallarda həvəskar tənqid peşəkar tənqiddən daha obyektiv ola bilər. Burada əsas məsələ tənqid edən tərəfin nə dərəcədə səmimi olmasıdır. **Məsələn, Lamartin Hüqonun böyüklüyünü, yazıçı istedadını tənqid etmirdi. Konkret əsəri, konkret obrazı konkret səbəblərlə tənqid edirdi.** Qaldı ki, filankəsin etdiklərini et, sonra tənqid et məsələsinə. Hər halda biz ingilis dilini öyrənmək üçün İngiltərəyə getmirik. Ciddi oxucu ədəbiyyatı yazıçıdan, tənqidçidən daha ciddi öyrənə bilər. Çünki oxucunun iddiası, gözləntisi

yazarla, tənqidçi ilə müqayisədə daha azdır. İnsanın gözləntiləri olanda səmimiyyətini itirir. Əgər sən fayda verməkdən daha çox öz mənfəətinə xidmət haqqında düşünürsənsə ədəbiyyat, fəlsəfə, sənət, mədəniyyət sənlik deyil. Cəmiyyətdə baş verən hadisələr mənə o qədər əzab verir ki, bəzən sarsılıram, həm də bu sarsılma nəticəsində başa düşürəm ki, təslim olmaq, dayanmaq olmaz. Bu gün Milli İncəsənət Muzeyində Azərbaycan bəstəkarlarının yaradıcığına həsr olunmuş konsertdə gənc pianoçuların ifalarını dinlədim. Bir daha anladım ki, biz istedadsız xalq deyilik. Əksinə, çox istedadlıyıq. Kimlərsə bizi bizdən ayırmaq, bizi öz gözümüzdə ucuzlaşdırmaq istəyir. Bu gün Azərbaycanın dəyərlərinə toxunurlar. Klassikləri tənqid etmək olar. Amma şərəf, vicdan, ədalət hissini itirmədən. Tanrı bizi sağlam təfəkkürün əsasını qoyan və inkişaf etdirən klassiklərimizin ruhu qarşısında utandırmasın.

## Qumların qadını – Kobo Abe

Bəzən insanın arzuladığı tək şey dənizi görmək olur. Bəzən insanın ehtiyacı olduğu yeganə əşya sadəcə bir nərdivan olur. Bəzən də bir qurtum suyu dünyanın ən ali neməti sayırsan. Sadəcə suya ehtiyacın olur. Və məhz bu ehtiyaclar sayəsində həyatı anlaya bilirsən. Başa düşürsən ki, ən bəsit şeylər belə insanı xoşbəxt edə bilər. Sadəcə insan oğlu nələrə sahib olduğunun fərqinə vara bilmir. Xatırlaya bilmirəm, hansısa kitabda oxumuşdum. "Ehtiyac insanı ağıllı olmağa məcbur edir"
1924-cü ildə Tokioda doğulan yazıçının uşaqlığı Mancuriyada Mukden şəhərində ( indiki Şenyanq) keçir. Anası Hokkaydo adasında böyümüş, uşaqlığı Mançuriyada keçmişdi. Bu səbəbə görə Kobo Abe 1978-ci ildə verdiyi bir müsahibədə deyirdi ki, əslində mənim bəlkə də bu səbəblərdən bir məmlətim yoxdur. İnsanların stabilliyi üçün dəyərli olan səbəblər məni incidir. Duyğularımın dərinliyində "məmləkət fobiyamın" arxasında bəlkə də bu səbəb dayanır. Uşaqlığında Kobo Abe həşərat toplamağı sevir, riyaziyyata maraq göstərir və mütaliə edirdi. Ümumiyyətlə bir məqama xüsusi diqqət göstərmək lazımdır. Kobo Abenin ən çox sevdiyi müəlliflər Dostoyevski, Martin Haydeger, Karl Yaspers, Fridrix Nitşe və Edqar Allan Podur.
"Qumların qadını" əsərini oxuyarkən əvvəlcə Kobo Abeni anlaya bilmədim. Ancaq həyatı haqqında araşdırma apardıqca və sevdiyi müəllifləri bildikcə yazıçını anladım. Bu əsərində

Kobo Abe qeyri-standart xətt yarada bilib. Uşaqlıq dövründə həşərat toplamağı sevən Abenin qəhrəmanı Cumpei Niki böcəklər toplayır, onları araşdırır, qeyri-adi böcək növlərini axtarır. Roman boyu biz qəhrəmanın özü ilə danışdığını görürük. Qəhrəmanımız deyir:
Təbiətdə bəzi böcəklər və həşəratlar təhlükə hiss edən zaman özlərini ölü kimi aparırlar.
Romanı oxuduqca görürük ki, Cumpei Nikinin böcək sevdası onun başına bəla olur. O, bilmədiyini, tanımadığı qumsallıq bir əraziyə gəlir. Burada heç kimi tanımır. Kənd sakinləri onu bir qadının evinə aparırlar. Niki düşünür ki, sadəcə bir gün burada qalacaq və növbəti gün kənddən çıxacaq. Ancaq hadisələr tamamilə başqa cür olur. Bu qumsallıq kənd onun üçün zindana çevrilir. Hər dəfə bu həbsxanadan qaçmaq istədikcə onu təqib edirlər, yenidən qadının evinə gətirirlər. Əslində buna ev də demək olmaz. Qəhrəmanımız çətin suallar qarşısında qalır:
İlahi, belə dəhşətli vəziyyətdə insanlar necə yaşayır və niyə yaşayır? Bir çıxış yolu yoxmu? Adamlar belə faciəvi iztirabdan bezmirlərmi? Axı bu qədər işgəncəyə necə dözmək olar? İtlər belə azadlıqdan məhrum olanda ağıllarını itirir, dəliyə dönürlər. Bəs bu adamlar yaşamağı necə bacarırlar?
Növbəti səhifələrdə biz görürük ki, kənd sakinləri çox soyuqqanlıdırlar. İnsani hislərini itiriblər. Onları sadəcə həyatda qalmaq maraqlandırır və

onlar özləri kimi olmayan adamlara xəstə, dəli kimi baxırlar. Romanı oxuduqca bir rəvayəti xatırladım.
Məmləkətlərdən birində bir padşah varmış. Bu padşah axsaq imiş deyə, bütün vəzir, vəkil, əyanlar da axsayırlar. Qorxurlar ki, sağlam gəzsələr padşah əsəbiləşər, onları edam etdirər. Məmləkəti idarə edən adamların axsadığını görən sakinlər də axsamağa başlayırlar. Bu xəstəlik zamanla bir vərdişə çevrilir. Nəsildən nəslə keçir. Günlərin birində məmləkətə bir uşaq gəlir. Hamısan fərqli olaraq sağlam gəzir, düz yeriyir. Camaatın bu uşağa yazığı gəlir. Gəlib başını sığallayırlar ki, yazıq gəzə bilmir. Ayaqları şikəstdir. Qəhrəmanımız Cumpei Niki də eynən bu taleyi yaşayır.
Roman boyu ekzistensialist fəlsəfənin təsirini görürük. Əslində qumsallıq, qum axını, dərinlikdə yerləşən komaya yuxarıda qum hücumu sadəcə təsvirdir. Gerçəkdə başqa hadisələr yaşanır.
Ekzistensializm Birinci Dünya Müharibəsindən sonra Almaniyada və İkinci Dünya Müharibəsi dövründə Fransada yaranıb. Bu məsələdə bir məqama ciddi yanaşmaq lazımdır. Hər iki ölkədə bu cərəyanın yaranmasının əsas səbəbi müharibələrdir. Böyük qırğınlar nəticəsində dünya öz nizamını itirmiş, xaosa sürüklənmişdi. Dünya özü özünü nizama salmalı idi. İnsanlar suallarına məntiqlə, ağılla cavab tapa bilmədilər. Modern dünyada müasir zəkaya sahib insanlar yaşayan

çağda qanlı faciələrin baş vermə səbəbini axtardılar. Suallara cavab axtardıqca daha çıxılmaz hallara düşdülər. Bir həqiqəti bəyan etdilər ki, insan beyni bütün sualları cavablandıra bilmir. İnsan ağlının hələ cavab tapmadığı suallar var və belə bir durumda ağlın mövcudluğuna da şübhə yaranır. Ekzistensialistlər hesab edirlər ki, insanın mahiyyəti onun varlığından öncə mövcud olub. Yəni öncə insan bir ideya kimi yaranıb, sonra təbiət və ya Tanrı ona forma verib. Yəni ki, insan öncə ideya olub, sonra bu müəyyən bir qəlibə salınıb və insan forması alıb. İnsan nə olacağına, necə olacağına özü qərar verir. Bu səbəbə görə də ekzistensialistlər düşünür ki, insan seçimlərindən ibarətdir.
Qəhrəmanımız Cumpei Niki də azad seçim haqqından istifadə etmişdi. Onun məqsədi qeyri-adi, elmə məlum olmayan böcək növlərini tapmaq və adını zoologiya kitablarına yazdırmaq idi. Bizə məlum olur ki, qəhrəmanımız həm də şöhrətpərəstdir. Təlimin banilərindən biri Martin Haydeger "Varlıq və zaman" əsərində yazır ki, Obyektiv idrak yolu ilə, yəni elmi metodla yalnız xarici aləmi öyrənmək mümkündür. O, insanı öyrənmək üçün yaramır, çünki insan xüsusi növdür. İnsan öz varlığını bilir və hiss edir. İnsan varlığının bu xüsusiliyini göstərmək üçün ekzistensialistlər onu "mövcudluq" adlandırır. Yəni, bu məntiqə görə insanın öz seçimini edə bilməlidir, öz seçiminin arxasında dayanıb onu

idarə etməyi bacarmalıdır, özü özünə imkanlar yaratmalıdır.
Niki də seçim edir, qarşısına məqsəd qoyur, yeni növ böcəklər tapmaq üçün səyahətə çıxır. Bəs niyə bəxti gətirmir? Bu romanı oxuduqca Şopenhauerin və Kyerkeqorun fikirləri yadıma düşürdü. Şopenhauerə görə insan heç zaman can sıxıntısından xilas ola bilməz. Əgər sən maddi cəhətdən zəngin adamsansa daim pulunu xərcləmək üçün müxtəlif əyləncələr axtaracaqsan, həyatın qaçaqaç içində keçəcək. Mənəvi dünyan boşdursa sıxıntıdan xilas ola bilməyəcəksən. Əgər sən kasıb adamsansa və mənəvi dünyan zəngindirsə, daim sənət haqqında düşünürsənsə yenə də can sıxıntısından xilas ola bilməyəcəksən. Çünki düşünməyi öyrənməklə mağaradan bir dəfə çıxmısan. Suallar daim səni təqib edəcək, can sıxıntısı sənin ən yaxın sirdaşın olacaq. Kyerkeqorsa hesab edirdi ki, əsl fəlsəfə fərdi xarakter daşımalıdır və onu da deyirdi ki, İbrahimin oğlunu qurban kəsmək istəməsi azad fərdin müstəqil seçimidir. Kyerkeqora görə insan mütləq ümidsizlik yaşamalıdır. Həyatın ağrısı, iztirabı ilə qarşılaşmayan insan onun mahiyyətinin dərinliyinə vara bilməz. Belə adamlar həyatını səthi yaşayır. Həyat həm də ağılsız, mənasız zərurətlərdən ibarətdir və bu zərurətlərə qarşı mübarizə etmək əzmi də bir seçimdir. İnsan bu seçim haqqını dəyərləndirib mübarizə əzminə sahib olmalıdır. Buna bənzər fikirlərə Nitşenin

əsərlərində də rast gəlirik. "Öz odunda yanmadan, yenidən öz küllərindən necə yarana bilərsən". Elə, Nəsimi də əslində bunu deyirdi: "Sınmayan insan kamilləşə bilməz". Və Nəsiminin dediyi "sındır qəfəsi, tazə gülüstan tələb eylə" fikri Kyerkeqorun dediyi iyrənc zərurətlərə qarşı fərdin seçim etmə əzminə sahib olmasıdır.

Xaos təhlükəsi bizi məna yaratmağa məcbur edir. Cumpei Niki də elə bu xaosdan qaçmaq üçün yeni mənalar axtarışına çıxmışdı. Ancaq həyat onu bu axtarışlar nəticəsində daha böyük xaosun içinə sürüklədi. Romanda maraqlı bir məqam var. Günün əksər hissəsi evinə tökülən qumu təmizləyən qadına Niki sual verir:

Qumu kürümək üçünmü yaşayırsan, yoxsa yaşamaq üçünmü kürüyürsən?

Bütün bu hərəkətlə tənha qadında vərdiş halına çevrilib. Əksər yapon yazarları kimi Komo Abe də yapon ənənələrinin üstünlüyü göstərir. Qadın cavab verir ki, biz bu torpaqlara, bu yoxsul kəndə öyrəşmişik. Doğmalarımızın məzarı bu kənddədir. Bu hissədə biz yaponların evə, torpağa sədaqətini görürük. Qadın çox mübarizdir, iradəlidir. Ancaq nə qədər iradəli, güclü olsa belə Nikiyə deyir ki, belə həyat tənha qadın üçün çox çətindir.

Kobo Abe simvolikadan çox istifadə edən müəllifdir. Əslində Nikinin azıb gəldiyi və qurtula bilmədiyi qumluq elə xaosdur. Xaos həm də nizama xidmət edir. Təki bizim də həyatımız xaosa

dönəndə nizam tez bərpa olunsun. Özümüzü itirməyək. İradəmiz sarsılmasın.

**Kaspi qəzeti, 25. 04. 20**

## Uğur, qovulma, sürgün və yenidən uğur Migel de Unamuno

Kilsədə İsanın təsviri qarşısında dayanmış, yumruqlarını sıxmış əsəbi bir uşaq düşünün. Bu uşağın əsəbi, gərginliyi səbəbsiz deyil. Ailə daxili çəkişmələr, atasının təzyiqi, onu döyməsi Alexandroda ciddi travmalar yaradır. Uzun illər keçsə də bu travmanın təsirləri qalır. Hamımızın həyatında buna oxşar travmaları olur. Uşaq beyni daha təmiz olduğu üçün uşaqlıq illərində baş verən hadisələri hər zaman xatırlayırıq. Uşaqlıq illərimizdə yaşadığımız xoşbəxt və bədbəxt anlar daim bizi düşündürür. Xatırladıqca hər zaman kədərlənirik. Həm xoş, həm də narahat xatirələr bizi ağrıdır. Uşaqlıq çağımızda yaşadığımız qorxular, travmalar da belədir. Heç zaman yadımızdan çıxmır. Sonrakı həyatımızı da həmin

xatirələrimiz, şüurumuzun dərinliyində formalaşan qorxular, düşüncələr müəyyən edir.

Əvvəl onu deyim ki, Unamunonun Can yayınları tərəfindən çap olunan kitabı oxudum. Bu nəşriyyatın tərcümə etdiyi kitablar çox keyfiyyətli olur. . Kitabı türk dilinə Behcat Necatigil tərcümə edib. Məncə çox yaxşı tərcümədir. Rahat oxunulur. Mütaliə zamanı beyində qarışıqlıq yaratmır. Bütün hekayələri zövqlə, həvəslə oxuyursan. Maraqlıdır ki, nəşriyyatın "Trendeki yabancı – Qatardakı yad" adlı mobil əlavəsi var. Abunə olub çox faydalı kitabları oxumaq olur. İnanıram ki, bizim nəşriyyatların da tezliklə belə faydalı mobil əlavələri yaranar.
Migel de Unomuno təkcə İspan ədəbiyyatının yox, bütün dünya ədəbiyyatının ən maraqlı, ən oxunaqlı və ən qeyri-adi yazıçılarından biridir. Onu maraqlı edən, daim diqqət mərkəzində saxlayan səbəblərdən biri həyatıdır. 27 yaşında Salamanka Universitetində yunan filologiyası kafedrasında dekan təyin olunan Unamuno 10 il sonra universitenin rektoru vəzifəsinə təyin olunur. Ölkədəki siyasi vəziyyət yazıçını qane etmir, Monarxiya əleyhinə apardığı mübarizəyə görə Unamuno öncə universitetdən qovulur, sonra professor adını əlindən alırlar, bununla da yetinməyib yazıçını sürgünə göndərirlər. 1923-cü ildə Primo de Riveranın hərbi çevrilişindən sonra ölkədə siyasi vəziyyət çox dəyişmişdi və

Unamunoya davamlı siyasi təzyiqlər göstərilirdi. Məqsədim Unamunonun həyatını bura köçürmək deyil, arzu edənlər internetdən axtarıb oxuya bilərlər.

Unomunonun "Yaman adam" hekayəsini oxuyandan sonra bir neçə gün heç nə oxuya bilmədim. Suallar beynimi rahat buraxmadı. Məmləkətimizdə olan problemlərin eynisi İspaniyada da var imiş. Dostum Miri Rəsulzadənin çapa hazırladığımız kitabını oxuyanda Yusif Vəzirin Mirzə Cəlilə yazdığı məktub marağımı çəkdi. Yusif Vəzir Çəmənzəminli Mirzə Cəlilə yazır ki, öz xalqını bu qədər aşağılama. Sən Avropa ölkələrində olmamısan. Onların ictimai-sosial həyatını bilmirsən. Elə düşünmə ki, onlar hədsiz inkişaf edib, biz isə geridə qalmışıq"

Unomunonun "Yaman adam" hekayəsini oxuyarkən Yusif Vəzir Çəmənzəminliyə haqq qazandırdım. Atası üçün qızı Julia maddi böhrandan xilas olmağın yeganə yoludur. Ata əlindən gələn və gəlməyən hər şeyi edir ki, qızına varlı bir adaxlı tapsın. Ata müflis olduğunu hamıdan gizli saxlayır. Ancaq başa düşür ki, bu vəziyyəti uzun müddət gizli saxlamaq olmaz. Bəlkə də müflis olma xəbərini gizli saxlaya biləcəyi son günlərdir. Qızı Juliya isə həyata əyləncə kimi baxır. Juliyanı bir sual narahat edir: "Atam məni satmaq istəyir, məni satıb öz maddi vəziyyətini düzəltmək istəyir"

İzdivaca qədər Julia iki oğlana könül versə də hər iki halda bir nəticəyə gəlir ki, kişilər yalançıdır, sadəcə saxta vədlər verirlər, əllərindən bir iş gəlmir. Julianın ilk eşqi uğursuzluğa düçar olandan sonra, bəxtini ikinci dəfə sınayır, ancaq bu dəfə də aldanır. Düşünür ki, onun sadəcə gözəlliyinə aşiq olurlar, özünü sevmirlər. Yazıçı Julianın gözəlliyini elə təsvir edib ki, qıza aşiq olmaq üçün sadəcə bu təsvirləri oxumaq bəs edir.
***Julianın ali gözəlliyi tarixi bir şəhər olan Renada və ətrafında dillərdə dastan olmuşdu. Məmləkətin gözəllik şahzadəsi kimiydi Julia, şəhərin bu qədər xəzinələri arasında canlı, diri bir abidə idi sanki. İnsanlar deyərdilər ki, Kafedralı və Julia Yanyezi görmək üçün Renadaya gedirəm. Belə vəziyyətdə gözəl qızın gözlərində yaxınlaşan faciəni hiss etməyə bənzər ifadə oxunurdu… Gücündən xəbərdar idi, Julia. Ancaq ruhunda fəlakətlərə hamilə bir taleyin əzici yükünü hiss edirdi. İçindən, şüurunun dərinliyindən qopub gələn səs sanki ona pıçıldayırdı: Gözəlliyin səni məhv edəcək. Julia isə bu səsi eşitməmək üçün könlünü əyləndirməyə davam edirdi.***
Mətndən oxuduğunuz bu hissədə bir-iki cümləni yazmağa lüzum görmədim. Fəqət yazdığım bu cümlələr hekayəyə qarşı dərin bir maraq yaratmağa bəs edir. Balzakın, Marsel Prustun təsvirlərindən sonra məni ən çox təəccübləndirən bədii təsvir ustalarından biri də haqqında

danışdığım Unamuno oldu. Yazıçı elə cümlələr qurur ki, sən özünü müdafiə edə bilmirsən, cümlələrin axını, səslərin, sözlərin düzümü səni çəkib öz sehrinə salır, səni ardınca aparır. Səmimi bir söz deyim, bəlkə də inanmayacaqsınız. Mən bu hekayəni ardıcıl 3 dəfə oxumağa məcbur oldum. Ona görə yox ki, hekayədəki hadisələr, süjet məni ovsuna saldı. Ona görə ki, cümlələrin, sözlərin, bədii təsvir gücünün sehrində özümü itirdim. Məhz 3-cü dəfə oxuyan zaman çətin də olsa bu ovsundan xilas olmağı bacardım. Bəzən oxucular, hətta tənqidçilər deyirlər ki, böyük şeylərdən yazmaq lazımdır. Etiraf edək ki, sənət üçün belə anlayış yoxdur. Nədən istəyirsən yaz, necə istəyirsən yaz. Amma gözəl yaz, bədii mətnin estetikasını qoru,, bacarsan yeni estetik tərz yarat. Axı heç kim sənə mane olmur. Unamuno kimi yazıçılar sübut ediblər ki, kiçik şeylərdən də maraqlı mətnlər yazmaq, oxucunu cəlb etmək olar. Bir də axı bu kiçik-böyük söhbətindən danışanda bir suala da cavab tapmağımız tələb olunur. Kiçik və böyük şeylərin arasındakı fərqi kim müəyyən edib, elə bir ölçü vahidini kim kəşf edib? Kim qərar verə bilər ki, mənim həyatımdakı hansı hadisə kiçik, hansı hadisə böyükdür? Mənim üçün faciəvi sayılan bir hadisə başqası üçün çox bəsit görünə bilər. Zatən sənətin mahiyyəti elə ondadır ki, sənət adamını ən kiçik məqam, ən bəsit hadisə belə kədərləndirə, düşündürə bilir. Bir daha təkrar edirəm, sənət üçün kiçik-böyük söhbəti yoxdur.

"Yaman adam" hekayəsində uğursuz sevgilərdən sonra Julia həqiqi sevgi axtarır. Zəngin Alexandro ilə ailə qursa da ərinin soyuqqanlı xarakteri onu bezdirir. Alexandro Julianın məhəbbət romanları oxumasına istehzayla yanaşır. Julianı sadəcə bir sual narahat edir: "Ərim məni sevirmi"
Hekayədəki hadisələri danışmaq fikrində deyiləm. Özünüz oxusanız daha maraqlı olar. Çünki bir hekayəni bir neçə adam oxuyub hər biri fərqli nəticələr çıxara bilər. Məsələn, Hüqonun "Səfillər" romanını oxuyan oxucudan biri Jan Valjan, digəri yepiskopa bənzəmək istəyə bilər. Ümumiyyətlə, maraqlı bir məqam odur ki, Unamunonun əsərlərində mənfi obrazlar çoxluq təşkil edir və mənfi obrazlar içində qadınlar daha çoxdur. Hətta ən müsbət obrazın belə mənfi cəhətləri var, Unamunonun əsərlərində. Alexandro hədsiz dərəcədə eqoist insandır, sevgi hissi onun təbiətinə yaddır. O, sadəcə şəhərin ən gözəl qadınının əri olması ilə qürur duyur. İnsanlar arasında fəxrlə gəzir. İnsanlara mesaj verir: Sizin bacarmadığınızı mən bacardım, sizin əldə edə bilmədiyinizi mən qazandım.
Unamunonun əsərlərinin dərin fəlsəfi qatı var. Dünya onu həm də fəlsəfi fikirlərinə görə tanıyır. Bu dahi ispan yazarını oxuyarkən dərin suallar insanı düşündürür, narahat edir: "İnsan niyə var", Bəşər övladının doğulmaqda, yaşamaqda məqsədi nədir", İnsan həsrətində olduğu, arzuladığı məhəbbəti yaşamağa həqiqətən də layiqdirmi",

“Maddi dünya insanları niyə bu dərəcədə əsir alıb”.

Unamuno Karl Marksın sosial bərabərlik ideyası ilə razılaşmırdı. Onun fikrinə görə hər şey insanın içində, mənəvi dünyasında baş verir. Əgər insan təbiətən, daxilən bütün insanlarla bərabər olmaq istəmirsə, onu zorakı yollarla buna vadar etmək olmaz. Belə olan halda dünya öz təbii ruhunu itirə bilər. Unamunonun fikrinə görə bütün hislər insana məxsusdur. Güc, hakimiyyət, pul, ehtiras, məhəbbət, nifrət, eqo – bütün bunlar insanın təməl quruluşunda var və heç bir ictimai-sosial, siyasi formasiya ilə bu təməl strukturu dağıtmaq və ya dəyişmək olmaz.
Yazarın “İki ana” hekayəsində qadın hiyləgərliyi, acgözlüyü insanı lap əsəbiləşdirir. Bu hekayədə biz iradəsiz bir kişinin necə əzablara düçar olduğunu görürük. Kişi iradəsiz olarsa mütləq qadın tələsinə düşəcək. Amma bir həqiqət var ki, iradəli kişilər də qadın hiyləsinin qurbanı olurlar. Bu hekayəni oxuyanda həm çox sarsıldım, həm də əsəb sistemim pozuldu. Raşelin saçlarından tutub Nizami küçəsi boyunca yerlə sürümək istədim. Don Juanın zəifliyi, qətiyyətsizliyi də insanı təəccübləndirir. İki qadın arasında qalan Don Juanın bütün hərəkətlərini, bütün həyatını Raşel tənzimləyir. Qəsəbədə hər kəs onu dul Raşel kimi tanıyır. Hekayədən belə başa düşdüm ki, Raşelin

Don Juana bəslədiyi məhəbbət elə ananın övlad sevgisinə bənzəyir.
Bütün böyük yazıçılar əsərlərin hansısa məqamlarında bəzi təsvirləri yola verirlər. Bu hekayədə Unamuno Don Juanın ölüm hadisəsini təsvir etməyib, sadəcə yola verib. Anlamaq olar, yazıçını. Hekayənin drammatizmi o qədər güclüdür ki, belə məqamlar oxucunu çox da narahat etmir. Sanki Unamuno bu məqamda dəqiq bilir ki, oxucuya Don Juanın ölüm anının təsvirindən daha çox hadisələrin sonluğu maraqlıdır.
İspan yazarının düşüncəsinə, yaradıcılığına Tolstoyun və Danimarka filosofu Kyerkeqorun böyük təsiri olub. Müəllifi oxucuqca bu təsiri görmək olur. Yazarın ən maraqlı kitablarından biri "Üç örnək hekayə və bir Ön söz"dür. Zaman gələr, bu kitab haqqında da yazaram Ön sözdə yazılan bir cümlə diqqət çəkir:
"Yaratdıqlarımızı izah etmək üçün savaşmaq da bir ayrı faciədir"

Yazını burada bitirməsəm oxucu üçün faciə olacaq.

**Ədəbiyyat qəzeti, 25. 04. 20**

**Roman haqqında 0,5 hekayə**

1. **Yazı masası, kompüter, word səhifəsi**

2020-ci ilin yaşadığımız aylarında ən çox müzakirə olunan kitablardan biri, bəlkə də birincisi Aqşin Yeniseyin "Tarix və tale" romanı oldu. Məncə roman təkcə son 4 ayın yox, ümumilikdə ilin ən çox müzakirə edilən ən mənfi halda 3-4 kitabından biri olacaq. Əslində məmləkətimizdə bir kitab ətrafında müzakirələrin olması çox təəccüblü, təəccüblü olduğu qədər də faydalıdır. Müzakirələri səbirlə müşahidə etdim və zamanla bu qərara gəldim ki, kitabı oxuyan adamlar üç qrupa bölünür.

1) Tərifləyənlər
2) Tənqid edənlər
3) Qınayanlar

Romanı tərifləyənlərdən biri də mən oldum. Bu haqda az sonra... Mətnlərdə qoyduğumuz bu üç nöqtələrə el dilində " Sözünü balnan kəsim balanın toyunda" deyirlər. Televiziya əməkdaşları isə biz yazarların üç nöqtəsinə reklam fasiləsi deyir.
Hərdən mənə elə gəlir ki, mənə heç nə gəlmir. Və oturub düşünürəm ki, görəsən niyə uzanıb düşünmürəm. Həmin məqamda da ağlıma gəlir ki, sənət elə həmin üç nöqtənin ətrafında dolanır. Sənətin mərkəzi, istinad nöqtəsi elə həmin üç

nöqtədir. Bəs üç nöqtənin mahiyyəti nədir? Üç nöqtə insana nələrinsə gəldiyi, nələrinsə gəlmədiyi məqamdır. Bu üç nöqtədə sənət adamının narahatlığı gizlənir. Sənətin narahatlığı isə sənət adamı əyləşəndə də, uzananda da, ayaq üstə dayananda da əl çəkmir. Narahatlıq, xaos sənətin ikinci, bəlkə də birinci adıdır. Üç nöqtə həm də tarix və tale dilemması arasındakı bir yerdir. Və ol səbəbdən də yəqin edirəm ki, xalqımız tarix və tale arasındakı həmin üç nöqtənin qeyri-müəyyənlik halıdır.

**2. Şubertin Serenadası səslənir.**

Gələk romanı tənqid edənlərə. Təəssüflər olsun ki, dünyanın ən vacib əsərlərinin, xüsusən də, son illərin ən möhtəşəm kitablarının çox az qismi Azərbaycan dilinə tərcümə olunub. Tərcümələrin də çoxunun səviyyəsi yaxşı deyil. Ancaq belə ağır şərtlər altında çalışan, gözünün nurunu verən tərcüməçilərə minnətdaram. Hər halda bacardıqlarını edirlər. Yetərincə ciddi kitablar var ki, onları doğma dilimizdə oxumaq şansımız yoxdur. Bu vəziyyəti nəzərə alaraq Aqşin Yeniseyin romanını anlamayan oxucuları və yazar dostları anlaya bilirəm. Çünki, dünya ədəbiyyatında son 60 ildə yazılan romanlardan əksər yazarımızın, oxucumuzun xəbəri yoxdur. Kiməsə deyəndə ki, qardaş son 60 ildir ki, dünyada belə romanlar yazılır, inanmırlar. Zaman çox sürətlidir. İnsan zamanın sürəti ilə ayaqlaşa bilmir.

Müasir insanın dramatik süjetə, yüksək həyəcana ehtiyacı yoxdur. Müasir insan çağdaş dünyanın gərginliyini zatən hiss edir. Əlavə problemlərlə üzləşmək istəmir. Onun yenilikçi, alternativ düşüncələrdən ibarət romanlara ehtiyacı var. Mən 60 il bilirəm, bəlkə daha öncədən belə romanlar yazılıb.

### 3. Səs gəlir: "İşığı söndür yataq"

O ki, qaldı, Aqşin Yeniseyi və romanı qınayanlara onlara heç bir sözüm yoxdur. Mən qınayan, dinləmək qabiliyyətində olmayan, özünü hamıdan ağıllı sayan adamlara zaman sərf etməyin faydasız olduğunu düşünürəm.
Böyük yazıçı olmağın yolu həm də etiraz etmə cəsarətindən keçir. Aqşin Yenisey də daim öz unikal düşüncəsi olan, azad fikrini deməkdən çəkinməyən aydınlarımızdan biridir. Ziyalı sözünü sevmədiyim üçün aydın yazdım.
Mən romanı niyə bəyəndim? İndi bu suala cavab yazım. Oxuduğum əsərlərdə axtardığım ən birinci amil müəllifin səmimiyyətidir. Əgər əsərdə avtobioqrafik məqamlar varsa və müəllif saxtakarlıq edib bütün hadisələrin mərkəzində özünü görürsə, ulduz olmaq iddiasına düşürsə belə müəllifləri oxumaq faydasızdır. "Tarix və Tale" romanındasa nəzərdə tutduğum səmimiyyəti gördüm. Bu roman Azərbaycanın dünənini, bu gününü və müəllifin yazdığı problemlər həll

olunmazsa qaçınılmaz faciəvi gələcəyini göstərir. Qəhrəmanımızın atası sənəti səbəb yox, nəticə sayır. Romanı oxuduqca anlayırsan ki, biz hələ xalq ola bilməmişik, kütləyik. Könül istərdi ki, məmləkətimizin insanlarının rasional təhlil qabiliyyəti olaydı. Sənətin səbəb yox, nəticə sayılması bizim topluma xasdır. Nə qədər yazarımız sənəti nəticə sayıb sənət vasitəsi ilə dövlətlə bazarlıq edib və nə qədər insanımız səfil yazarların fikirlərini önəmsəməyib, həmin bahalı yazıçıları alqışlayıb. Bu tip şair, yazarlar siyasi rejimlər nə qədər dəyişirsə dəyişsin dövlətlə bazarlıq etməyə davam edirlər. Bir gün kommunist, bir gün milliyətçi ola bilirlər. Xalq onları sevir, alqışlayır, amma onlar xalqı müdafiə etmirlər, xalqın dərdləri, problemləri haqda danışmaq istəmirlər. Maraqlısı odur ki, xalqımız yenə də incimir, bu adamları qəhrəman saymaqda davam edir. Romanın əsas mesajlarından biri də odur ki, heç kəs gəlib bizi xilas etməyəcək. Özümüzə böyük qardaş, nüfuzlu qəhrəman axtarmaqla uğur qazana bilmərik.
Romanda zehniyyətimizdə olan sağlam ailə modeli darmadağın olunur və ailələrdə gerçək vəziyyətin necə olduğu təsvir edilir. İnsanlar biri-birilərindən bezsələr də məcburən birlikdə yaşamağa məcbur olurlar. Zamanla bütün səmimiyət itir, bütün gözəl hislər yerini həyatın saxtakar reallığına qurban verir. İnsanlar ona görə evlərinin ətrafındakı hasarları böyüdürlər ki,

ailələrindəki bu saxtakarlığı, bu qeyri-səmimiliyi başqaları görməsin. Qəhrəmanımızın anası üçün dünyanın ən müqəddəs kitabı əmək kitabçasıdır. Bu cümlə çox uğurlu tapıntıdır. Ölkəmizdə nə qədər belə adam var? Məqsədsiz, məramsız sadəcə maaş üçün yaşayan nə qədər insan var.

***Əsl tısbağa çanağının altında olduğu kimi, əsl insan da əxlaq zirehinin içindəkidir.***

İnsan özünü sərhədləyir, əxlaq zirehinə bürüyür, bir gün o zireh dağılanda insan sərhədləri aşır. Çünki heç bir mədəniyyət, heç bir cəza insanın təməl hislərinə, ilkin prinsiplərə qalib gələ bilmir. İnsan təbiətən vəhşidir. Onun vəhşiliyi əsasən ac qalanda görünür. Əxlaq zirehini dağıdan ən güclü səbəb aclıqdır.
Ənənəvi düşüncədən əziyyət çəkən insanlar onların uğrunda mübarizə aparan İsa, Musa qardaşlarını anlamırlar. Bu məqamda Jan Jak Russonu xatırlayaq. "Kütlə təşəkkür etmək qabiliyyətinə sahib deyil, o ancaq söyə, qarğış edə bilər, kütlə üçün ən mənasız adam onun haqlarını müdafiə edən adamdır"
Romanın süjetini danışmayacam, maraqlananlar kitabı oxusalar yaxşı olar.
İnsan qorxudan da cinayət törədə bilər. Həmçinin özünü isbat ehtiyacı da insanı qatil edə bilər. Con Lennonun qatili kimi: "Dünənə qədər mən heç kim idim, bu günsə Con Lennonun qatiliyəm"

Dustaqlarla bağlı hadisələr mənə çox pis təsir etdi. Əsəbiləşdim. Dustaq Lalın ölümü məni çox ağrıtdı. Çünki onun ziyarətinə heç kəs gəlmirdi. Oxuculara ərk edib məsləhət bilirəm ki, İsayla Musanın dialoqunu xüsusi diqqətlə oxusunlar.

4. **Edam səhnəsi**

Bir axşam çağı, şər qarışanda mərkəzi meydanda edam səhnəsi. Kralın hökmünü oxuyan yüksək səslə:
Sən onlarla adamın qatilisən, sən ölümə məhkumsan. Gilyotin başını üzəcək.
Aaaa, bu necə ola bilər? Edama məhkum adam Çikatilodur axı.
Çikatilo qışqırır:

- Ata, oğul və Müqəddəs ruh naminə hamınızı lənətləyirəm.

Həbsxanada insanları güllələyən, onların acizliyinə gülən, məzələnməkdən həzz alan Çikatilo deyəsən dünya həqiqətini edam kürsüsündə anlamışdı. "İsanın, Musanın, Məhəmmədin qədrini bilməyən dünyaya onsuz da yaxşılıq yaramır" zehniyyəti ilə yaşayan Çikatilo edam anında da kimdənsə xeyirxahlıq gözləmir, əfv diləmirdi.
Kənardan bağırtı eşidildi:
Dayanın, kral Çikatilonu əfv edib.

Çox qəribə hadisə idi. Çörək oğrusunu edam etdirən kral onlarla adamın qatilini bağışlamışdı. İlahi, bu nədir? Məhbəsdəyəm, Çikatilo əlində silah məni nişan alıb. Üzərimə qışqırır:
Vətəndaş Həşimzadə, məhbus İsa, Musa qardaşlarını müdafiə edən yazılar yazdığın üçün ölümə məhkumsan.

İlk güllə sol ayağıma, ikincisi sağ ayağıma dəyir.
Əzab içində deyirəm:
Ürəyimi nişan al, Çikatilo, ağrıdır axı.
İsa və Musa mübarizələrini gələcək nəsillər - bizim üçün etdiklərinə görə onları müdafiə edəcək yazılar yazmaq borcum idi. 3-cü güllə səsinə diksinirəm, yuxudan ayılıram. Əlimi ürəyimin üzərinə qoyub döyüntüsünü hiss edirəm. Sən demə hamısı yuxu imiş, Kompüter, yazı masası, Şubert, evdəki səslər, edam səhnəsi. Dərd odur ki, yazdığım yazı da yuxu imiş. Gərək şər qarışan vaxtı yatmayaydım. Yatağımdan qalxıb yazı masamın arxasında əyləşirəm. Kompüteri yandırıb, yeni səhifə açıram. İndi Aqşin Yeniseyin "Tarix və Tale" romanı haqqında yazacam. Amma tənbəllik edirəm. Eybi yox, yazmasam da olar, Aqşin Yenisey belə şeylərə fikir verən deyil.

**Etatist.com 17. 04. 2020**

**Zəncirlənmiş Prometey**

**Zənnimcə, baş qaldıran qüvvə olmayınca, ilahilikdə nəsə çatışmır.**

**Lukian "Prometey Qafqazda"**

Prometey və Zevs arasındakı münasibətlər məni həmişə düşündürüb. Prometey insanlara azadlıq, müdriklik bəxş etmək istəyirdi. İnsanlara azadlıq və düşünmə bacarığı vermək nə üçün Zevsi qane etmirdi? Burada bir neçə ciddi sual yaranır. Ona görə ciddi sual deyirəm ki, bu suallara cavab tapmaq çətindir. Bəzən insan uzun müddət bu suallara cavab axtarsa da tapa bilmir. Ancaq bu suallara cavab axtarmaqdan imtina etdikdə bəzən cavab özü insanı tapır. Zevs Prometeyə nəyə görə qəzəblənmişdi? Həqiqətənmi Zevsin qəzəbinin səbəbi Prometeyin odu oğurlayıb insanlara verməsi idi? Axı Prometey görürdü ki, insanların ehtiyacları var. Prometey insanların dostu idi, onların müdrikləşməsini, səadət içində yaşamasını istəyirdi. Bəs Zevs nə istəyirdi? İlkin məqamda biz düşünə bilərik ki, Zevs bəşəriyyətin öz imkanları hesabına inkişafını istəyir.

Bu mifoloji məqamlara qiymət vermək üçün Esxilin "Zəncirlənmiş Prometey" əsərinə müraciət

etmək lazımdır. Prometey anası Femidanın məsləhəti ilə hakimiyyətə gəlməkdə Zevsə kömək edir. Ancaq Zevs hakimiyyətə gəldikdən sonra ədalətsiz qərarlar verir. Zevsin bu davranışları Prometeyi narahat edir, o, Zevsə dəstək olmaqdan imtina edir. Əksinə, Zevsə qarşı açıq mübarizəyə başlayır.

Prometeyin insanlara odu bəxş etməsi Zevsi qəzəbləndirir. İnsanlar soyuq havaya da öyrəşməli, həyatın enişini-yoxuşunu görməli idilər. Əslində, Zevsi narahat edən məqam odun oğurlanması deyildi. Prometey insanlar arasında biliyi, düşünməyi, öyrənməyi təbliğ edirdi. Eyni vəziyyətə "İncil"də baxsaq və Adəmin Həvvanın sözünə aldanaraq alma oğurlamasına nəzər yetirsək təqribən eyni nəticəni alarıq. Ağacdakı alma, əslində, zəka idi. Adəm təbiətdən məhz bilgini oğurlamışdı. Tanrısa bilirdi ki, bilgi bəşər övladına heç vaxt səadət gətirməyəcək, əksinə, onları əbədi kədərə məhkum edəcək. Bəlkə Zevs də insanların bilik əldə etməsinə bu səbəbə görə qəzəblənmişdi?

Eyni hadisələri müasir dövrümüzə uyğunlaşdırsaq, paralel təhlillər aparsaq maraqlı nəticələrə gələcəyik. Bu gün texnologiyanın sürətli inkişafı insanlara vaxta və enerjiyə qənaət etmək imkanı verir. Ancaq insanlar rahatdılarmı? Əlbəttə ki, rahat deyillər, əksinə, narahatlıq hər addımda

onları təqib edir. Odun kəşfi də insanlara enerjiyə və zamana qənaət etmə imkanı vermişdi. Axı tarix sübut edib ki, insan öz yaratdıqlarına məğlub olur. Babalarımız 200 km yolu piyada bir neçə günə gedirdilər. Ancaq indi biz 200 km yolu 1,5-2 saata maşınla gedə bilirik. Babalarımız 200 km yolu piyada bir neçə günə getsələr də, 80-90 il yaşayırdılar. Biz isə zamana və enerjimizə qənaət etmə fürsətlərinə sahib olduğumuz halda 80-90 il yaşaya bilmirik.

Bu günümüzdə od sürətlə inkişaf edən texnologiyadır. İndi Prometey bizə od əvəzinə nanotexnologiya bəxş edir. İndi Zevs böyük miqyaslı kapitalist olduğu üçün Prometeyi cəhənnəmə göndərmir. Və indi mən bu yazını texnoloq Prometeyin bəxş etdiyi noutbukda yazdığım üçün Prometeyin zəncirlərini qırıb ona azadlıq vermək istəyirəm. Məncə, Tanrıların sirrini insanlara demədiyi müddətcə onun azadlıq hüququna toxunmamaq olar. Axı Prometey həm də tanrıların sirrini bilirdi. Yəqin ki, cəhənnəmə məhkum olunmağının səbəbi də tanrıların sirrini bilməsi idi. Yəqin, Zevs də elə bunu isbat etmək istəyirdi ki, düşünən insanın başı həmişə bəladadır. O, hansısa sirlərə vaqif olduğu üçün daxili sakitliyini, rahatlığını həmişəlik itirir. Elə Dostoyevski də bunu deyirdi: "Hər şeyi başa düşürəm və yaşamaq dözülməz hala çevrilir".

Zaman və şərtlər o qədər dəyişib ki, indi biz mifologiya haqqında oxumadan, öyrənmədən də yaşaya bilərik. Ancaq sənət adamı Qədim Yunan mifologiyasını, Antik Roma incəsənətini mütləq oxumalı, öyrənməlidir. İndi biz öz dövrümüzün Prometeyləriyik. Sadəcə, zəncirləri qırılmış Prometeylərik. Zəncirlərimizsə bizdən öncəki Prometeylərin sayəsində qırılıb.

**Ədəbiyyat qəzeti 05. 05. 2019**

## Gedənlərin qayıtmağı, bəs qayıtmasa . . .

Unudulmuş yazıçılarımızın biri də Sabir Əhmədovdur. O Sabir Əhmədov ki, qardaşı İkinci Dünya Savaşında, oğlu Qarabağ müharibəsində həlak olub. O Sabir Əhmədov ki, Azərbaycan nəsr tarixinin ən möhtəşəm nasirlərindən, ən uğurlu roman ustalarından biridir. Yazıçının məsuliyyəti olduğu kimi, savadlı oxucunun da öhdəsinə düşən məsuliyyətlər var. Təəssüflər olsun ki, biz ən mənasız məqamlarda özümüzü bəyənirik, ancaq vacib məqamlarda özümüzü unudub, özgələri bəyənirik. Mədəniyyət ən gözəl dağlara, çaylara, 9 iqlim qurşağına sahib olmaqda deyil. Təbiətin bəxşişlərinə mədəniyyət adı verərək öz

tənbəlliyimizə haqq qazandırmaq, məsuliyyətdən yayınmaq istəyirik.
Bu gün Sabir Əhmədov haqqında çox az sayda adam danışır. Nədənsə Sabir Əhmədov haqqında danışmaq istəmirlər. Səbəbini bilmirəm. Ancaq onu dəqiq bilirəm ki, Sabir müəllim böyük yazıçıdır. Sabir Əhmədov "Azərbaycan dili naqis dildir, ədəbiyyat dili deyil" deyənlərə öz romanları, hekayələri ilə ən möhtəşəm cavabı verib və sübut edib ki, Azərbaycan dilində də mükəmməl romanlar yazmaq olur. Sabir Əhmədov sözləri elə gözəl cilalayır, cümlələri biri-birinin ardınca elə yazır ki, oxumaqdan yorulmursan. Xüsusən də insan taleyinin təsviri Sabir müəllimin romanlarının başlıca mövzusunu təşkil edir. Sabir Əhmədovun yaradıcılığını realist ədəbiyyat saymaq olar. O, öz əsərlərində gördüyü insanların əzablarını yazır.
Azərbaycan oxucusu Azərbaycan yazıçısını bəyənmir. Onun geniş dünyagörüşünə, böyük bədii təfəkkürə və ciddi yaradıcılıq qabiliyyətinə sahib olduğuna inanmır, ya da inanmaq istəmir. Özümüzə qarşı niyə belə biganəyik? Bizim əksər oxucularımız dünya sözünü elə deyirlər, dünyanı elə təsəvvür edirlər ki, sanki dünya əhalisi Marsda yaşayır, biz isə Yer kürəsində. Dünya elə biz özümüzük həm də. Özümüzü niyə dünyadan bu qədər uzaq görürük. Bəzən deyirlər ki, Azərbaycanın dünyaya çıxarılacaq yazıçısı yoxdur. Mən dünyaya çıxarılmağa layiq olan ən

azı 20 müəllif adı çəkə bilərəm. Reallıq budur ki, Azərbaycan oxucularının çağdaş Azərbaycan ədəbiyyatından xəbərləri yoxdur və çağdaş Azərbaycan yazıçılarını oxumağı öz şəninə yaraşdırmır.

Çağdaş ədəbiyyat nümayəndəsi olmasa da bu günümüzdə də oxunulmağa layiq Sabir müəllim haqqında yazmaq mənim üçün çox böyük zövqdür. Hərdən düşünürəm, heç olmasa ömrümdə bircə dəfə sifarişlə yazı yazmaq istəyirəm ki, 200 manata ədəbi təriflər yazan adamların yaşadığı hisləri yaşayım. Amma bacarmıram, xarakterimə uyğun deyil belə ucuz şeylər.

Sabir Əhmədovun latın qrafikası ilə heç bir romanı və heç bir hekayələr kitabı çap olunmayıb. Azərbaycan nəsr tarixinin ən ciddi 3 nasirindən birinin romanları niyə latın qrafikası ilə çap olunmasın? Bu gün Azərbaycanın gənc yazıçıları da təəssüflər olsun ki, unudulmuş müəllifləri xatırlatmaq istəmirlər. Axı ədəbiyyat, ümumiyyətlə sənət şəxsi təmənnadan uzaq olmalıdır. Martin Paj yazır ki, sənətdən şöhrət və pul naminə istifadə etmək tərbiyəsizlikdir. Sabir Əhmədov öz əsərlərində Azərbaycan kəndlisinin, şəhərlisinin həyatını incə müşahidə qabiliyyəti ilə təsvir edir. Maraqlı cəhətlərdən biri budur ki, Sabir müəllim hətta mənfi obrazları da bir incəliklə, nəzakətli formada təsvir edir. Sanki, o yaratdığı obrazların müsbətini sevdiyini kimi, mənfisini də

sevir. Və yaxud Sabir Əhmədov həyata Bulqakov məntiqi ilə baxır: “Pis insan yoxdur, bədbəxt insan var”

Sabir Əhmədovun obrazları pis insan olmaqdan daha çox bədbəxtdirlər. Ya da ədəbiyyat, sənət dedikləri elə budur. Bütün pislərdə yaxşı cəhətləri kəşf etmək və onu yaxşı insan olmağa sövq etmək. Hərdən insan həvəsdən elə düşür ki. Sabir Əhmədov kimi bir yazıçının təbliğ olunmadığı, latın qrafikası ilə kitablarının çap edilmədiyi zamanda ədəbiyyat sevdasına tutulmaq gəncləri xilas edə bilərmi? İndi biz ədəbiyyat əsrində yaşamırıq. İnsan öz zəkasının, öz potensialının gücü sayəsində yaratdığı robot- insana uduzur. Gün gələcək, robot insanlar bizi məsxərəyə qoyacaq. Biz onların gözündə çox bəsit görünəcəyik.

İndi Sabir müəllimin “Gedənlərin qayıtmağı” romanını oxuyuram. Roman müharibə həyatının ikinci cəbhəyə - arxa cəbhəyə vurduğu ağır sosial zərbələrdən, böyük məhrumiyyətlərdən, faciəvi insan talelərindən bəhs edir. Romanın əsas xəttini ərini, qardaşını, oğlunu cəbhəyə yola salan anaların, bacıların, həyat yoldaşlarının ağır şərtlər altında işləməsi, körpələrini aclıqdan ölməkdən qorumaq üçün min bir ağır zəhmətə qatlaşmasıdır. Məsələn, Ərşanın anası Xəzangül xala küçələri süpürür, təmizləyir. Özü də bunu böyük həvəslə, utanmadan, xəcalət çəkmədən edir. Qadın öz-özünə deyinir:

- Bəlkə də məni qınayırlar, deyirlər ki, oğlu cəbhədə xidmət edən ana küçə süpürməməlidir. Ancaq mən bundan utanmıram. Axı bu küçədə mənim oğlum gəzib, bu küçədə oğlumun ayaz izləri var.

Əsərdə insan kövrəldəcək belə məqamlar çoxdur. Romanda ən sevdiyim məqam pafosdan uzaq olmasıdır. Sabir müəllim öz dövründə yaşamış bəzi yazıçılar kimi şanlı sovet əsgərinin böyük şərəfindən, əzəmətindən yazmayıb. Təbii ki, Sabir müəllim də könüllü cəbhəyə gedən kişilərin cəsarətini yüksək qiymətləndirir. Ancaq romanın hər səhifəsində əminliklə bir nəticəyə gəlmək olur. Sabir Əhmədov üçün insan taleyi böyük müharibələrdə əldə edilmiş böyük qələbələrdən daha vacibdir.
Orta məktəbdə çalışan tarix müəllimi şagirdləri döyürdü. Görəsən o müharibəyə getsəydi, sağ-salamat qayıtsaydı yenə də döyərdimi uşaqları? Əsərin qəhrəmanı özünün və şagirdlərin düşündüyü bu fikri öz içində gizlində deyir. Tarix müəlliminin əlləri, şilləsi elə tərs idi ki, barmaq izləri bir həftə adamın üzündə qalırdı. Tale elə gətirir ki, tarix müəllimi müharibəyə gedir və əllərinə güllə dəyir. Hər iki əli yaralanır. Sonra yenidən məktəbə qayıdır. Ancaq bu dəfə istəsə də uşaqları döyə bilməzdi. Nə əlləri, nə də sınmış, yaralanmış ürəyi buna imkan verərdi.

Bəs hər kəsin dəli adlandırdığı Murtuzanın gördüyü xeyirxah işlər? Sabir müəllim dəli Murtuzanı da özünə məxsus şəkildə təsvir edib. Murtuza dəli olsa da əsgər ailələrinə su daşıyır, onlar üçün odun doğrayır. Sabir Əhmədov bu əsərdə həmçinin qadınların kişisiz qalarkən yaşadığı bir çox məhrumiyyətləri əks etdirmək yanaşı onların bioloji tələbatlarının ödənməməsi nəticəsində yaranan əsəb sarsıntısını da təsvir edib. Bəzən həmin qadınlar cinsəl tələbatlarını ödəmək üçün Murtuzanı evlərinə dəvət edirdi. Belə güman etmək olar ki, şəhid qadınlarının və ya əri cəbhədə olan qadınların belə əməllərini yazdığı üçün Sabir Əhmədova böyük təzyiqlər olub. Ancaq söhbət insan təbiətindən, insanın bioloji tələbatlarından, instinktlərindən gedir. O dövrdə belə məqamları yazmaq insandan böyük cəsarət tələb edir.
Bayaq Sabir müəllimin latın qrafikası ilə kitabı çap olunmayıb deyərkən cüzi yanlışlığa yol verdim. Sabir Əhmədovun yeni əlifba ilə bircə kitabı çap olunub. "Yazılmayan yazı" Sabir Əhmədovun vəfatından sonra çap olunan ilk kitabıdır. Kitab 2010-cu ildə Şərq- Qərb nəşriyyatında çap edilib. Bu kitabı uzun müddət axtarsam da əldə edə bilmədim. Sabir Əhmədovun oğlu Etibar bəylə görüşüb kitabı əldə edə bildim. Daha sonra həmin kitab Xan nəşriyyatı tərəfindən çap olunub. Ancaq bir həqiqəti mütləq deməliyəm ki, bu kitab Sabir müəllimin ən zəif kitabıdır. Sabir müəllim bu kitabı enerjisinin tükəndiyi, ahıl vaxtlarında yazıb.

Kitabı oxuyan zaman da bunu hiss etmək olur. Sabir müəllim sanki ürəyində qalmış son sözləri yazıb son kitabında.
İndi biz təəssüflər olsun ki, qardaşı İkinci Dünya Müharibəsində, oğlu Qarabağ döyüşlərində həlak olan çox dəyərli yazıçımız Sabir Əhmədova layiq olduğu dəyəri verə bilmirik. Ya başımız çatmır, ya paxıllıq edirik, ya da sənət, ədəbiyyat, ciddi sənət nümunələri  və böyük nasirlər bizə lazım deyil. Hərdən insan həvəsdən elə düşür, elə yorğun olur ki, yazmaqdan, oxumaqdan imtina etmək istəyir. Ancaq məhz belə məqamlarda, heç gözləmədiyin halda  elə bir an olur ki, səni həyata bağlayır, səni mübarizəyə səsləyir. Elə Sabir Əhmədovun romanlarını oxumaq da insanı həyata, yaşamağa, mübarizəyə səsləyir.
Mən hər zaman insanlığın, həqiqi sənətin qələbəsinə inanmışam, indi də inanıram. Qardaşı, oğlu, əri cəbhədə olan hər kəs gedənlərin geri qayıtmağını gözləyir, hətta qara kağız alanlar da öz oğullarının, qardaşlarının, ərlərinin gəlişini gözləyirlər. Ürəklərində olan inam hissini öldürmək istəyirlər. Böyük həsrətlə müharibənin sonunu gözləyirlər. Kimlərsə qayıtmır, kimlərsə qayıdır. Kimlərisə qayıtmayanlar kimlərinsə qayıtmağı ilə təsəlli tapırlar. Qayıtmayan qardaşların, oğulların ətrini qayıdanlardan alırdılar.
Kimlərin qayıdacağını, kimlərin qayıtmayacağını bilmirəm. Ancaq bir həqiqəti dəqiq bilirəm ki,

Sabir müəllim bir daha qayıtmayacaq. Bir daha qayıtmayacaq bu dəyərli yazıçımızın romanlarını təbliğ edək, gənclər oxusunlar, unudulmuş yazıçılarımızı xatırlasınlar və xatırlatsınlar.
Bir məsələni də vurğulamağı özümə borc bilirəm ki, deyilənlərə görə Sabir müəllimin oğlu Xəlil Rza Ulutürkün oğlu ilə birlikdə şəhid olub. Gedənləri unutmayaq. Çünki onlar gedəndə bizim üçün böyük dəyərləri əmanət ediblər. Dəyərlərimizi unutsaq özümüzü, dünənimizi, bu günümüzü, sabahımızı unudacağıq, bizi də unudacaqlar və bir gün mütləq yaddaşımıza etdiyimiz xəyanətin ağır cəzasını yaşayacağıq.
Qismət olsa Ustad jurnalı üçün unudulmuş müəlliflərimiz haqqında esselər yazmağa davam edəcəm.

***"Ustad" jurnalının 28-ci sayı***

## Musiqi məhəbbətinin əfsanəvi Arifi

O hər zaman sadə idi. Axı böyük şəxsiyyətlər sadə olurlar. Çünki onlar öz istedadlarından əmindirlər və onların özlərini sübut etmək üçün mürəkkəbliklər etməyə, saxta dərin mənalıqlar yaratmağa ehtiyacları olmur. O hər zaman zəhmətkeş idi. Axı böyük şəxsiyyətlərin fikirləri tükənmir, onlar daima axtarışda olurlar. O hər zaman yenilikçi idi. Axı

böyük şəxsiyyətlərin ən böyük qorxusu köhnəlmək olur. O hər zaman kədərli idi. Axı böyük şəxsiyyətləri məişət xoşbəxtliyi maraqlandırmır.

O hər zaman səbirli idi. Axı böyük şəxsiyyətlər yaxşı bilirlər ki, böyüklük tələskənlikdə deyil, səbirdədir. Onun yaradıcılığında dərin qırışlar var, üzündəki enişli-yoxuşlu qırışlar kimi. Axı dərin musiqiləri dərin qırışlı bəstəkarlar yaradır.

O telefon zənglərinə şəxsən özü cavab verirdi. O, ilk mənzilində də, son mənzilində də dünyadan arif idi. O, bəstəkarlıq fəaliyyətinə başlayan zaman pianosu yox idi. Gecələr konservatoriyanın pianosundan istifadə edirdi. Bütün böyük adamlar kimi o da tez-tez boşluq haqqında düşünürdü və deyirdi ki, düşünmək, əzab çəkmək, ağır məhrumiyyətlər yaşamaq vergidir. Hər adam mənəvi iztirablar yaşaya bilmir. O, müasir Azərbaycana Tanrının bəxş etdiyi ən böyük vergilərdən biri idi. Sanki Tanrı Azərbaycan xalqına yaşadığı dəhşətli iztirablar qarşılığında belə möhtəşəm şəxsiyyətlər hədiyyə edib. O 11 illik təhsil proqramını 6 aya mənimsəmişdi. O, şöhrətpərəst deyildi. Çünki həqiqi sənətin mahiyyətini dərk edirdi.

"Məhəbbət əfsanəsi" baletində biz sevən, sevilən aşiqlərin əzablarını, həyəcanlarını, qəlbinin titrəməsini hiss edirik. "Məhəbbət əfsanəsi" ndə kədərlə, iztirabla bərabər cəsarət,

mübarizə motivləri də var. Bu balet Arif Məlikova dünya şöhrəti qazandırdı.

Arif Məlikov 1948-ci ildə A.Zeynallı adına Bakı Musiqi texnikumunun tar sinfinə daxil olur. Ancaq onun bəstəkarlığa marağı daha böyük olur. 11 illik proqramı 6 aya öyrənən bəstəkar Konservatoriyanın Bəstəkarlıq fakültəsinə qəbul olunur. Arif Məlikov Azərbaycan Musiqi Tarixinin ən görkəmli bəstəkarlarından biri Qara Qarayevin sinfində təhsil alır. 1959-cu ildə Q.Qarayevin məsləhəti ilə Leninqrad opera və Balet teatrı A.Məlikova N.Hikmətin "Məhəbbət əfsanəsi" pyesinə balet yazmağı təklif edir. Bəstəkara dünya şöhrəti gətirən bu baleti yazmağa başlayan zaman Arif Məlikovun 26, baleti bitirib təhvil verəndəsə 28 yaşı var idi Balet dünyanın 26 ölkəsində nümayiş olunmuşdur.

1961-ci ildə S.M.Kirov adına məşhur Leninqrad akademik opera və balet teatrının səhnəsindəki ilk tamaşadan dərhal sonra D.Şostakoviç yazırdı: "Arif Məlikov istedadlı bəstəkardır, onun musiqisi əsl peşəkar musiqidir. Partituranın dərin musiqi dramaturgiyası, onun daxili inkişafı, qəhrəmanların musiqi səciyyələrinin dəqiqliyi və ifadəliyi, orkestrovkada nadir ustalıq, onun xüsusi rəngarəngliyi, çoxlu tapıntılar bu gözəl musiqi əsərini böyük maraqla dinləməyi məcbur edir.

Baletə böyük həyəcanla baxan Nazim Hikmət tamaşadan sonra belə söyləmişdi: "Arif

Məlikov mənə deyəndə ki, "Məhəbbət əfsanəsi" baleti yazmaq istəyirəm, həmin gün mən çox şad oldum. Bu gün gördüklərim təsdiqlədi ki, mən nahaq yerə sevinməmişəm. Bir daha əmin oldum ki, balet muzey incəsənəti deyil, bu, müasir incəsənətdir. Mən çox həyəcanlanırdım ki, səhnədə Şərq necə görünəcək. Arif Məlikov baletdə Şərq adamına müasir insanın dünyabaxışı ilə baxıb. Buna görə də əsərdə "şirin" Şərq, "Əlibaba və qırx quldur" nağılından əsər-əlamət yoxdur. Və bu da yeni baleti çox teatr tamaşalarından fərqləndirib".

Arif Məlikovun yaratdığı bütün musiqilər gözəldir. Ancaq mən “İki qəlbin dastanı” baletindəki hind rəqqasəsi Komdenin arzuları adlı parçanı daha çox sevirəm. Bu melodiyada elə bir hüzn, elə bir dərinlik var ki, sanki dünyanın ən dəhşətli bəlasına mübtəla olub zavallı hind rəqqasəsi Komde. Bəstəkar Komdenin arzularını çox həzin və kədərli tonda bizə təqdim edir. Komdeni bundan daha gözəl, daha artıq təsvir etmək mümkün deyil.

Arif Məlikov yeganə azərbaycanlı bəstəkardır ki, onun “Məhəbbət əfsanəsi” baleti Böyük teatrda – Moskvada hər il nümayiş olunur.

Arif Məlikov vəfat etdi. Bu ölümdən sonra “İki qəlbin dastanı” baletindəki qızlar bir daha rəqs etməyəcək. Hind rəqqasəsi Komde daha heç nə arzulamayacaq. Güllər bir daha gülməyəcək. Arif

Məlikov bir daha doğulmayacaq. Ancaq onun zəngin musiqi irsi və əzəmətli ruhu Azərbaycan musiqisinin yeni Ariflərini yaradacaq. Yaradacaq ki, məhəbbətlər əfsanəviliyini itirməsin.

***Kaspi qəzeti , 15. 07. 19***

## Osmanlı hökümətində ermənilər, Mudros müqaviləsi, Bakının taleyi

Tənbəllik etməyib Mudros müqaviləsinin bütün maddələrini tək-tək oxudum. Mudros Müqaviləsi – 30 Oktyabr 1918 -ci ildə Osmanlı imperiyası ilə Antanda dövlətləri arasında bağlanmış sülh müqaviləsidir. Müqavilə Lemnoos adasının Mudros limanında ingilis hərb gəmisi "HMS Agamemnon" gəmisində imzalanmışdır.

Antanta - Almaniya tərəfindən gözlənilən təcavüzə qarşı 1904 - 1907-ci illərdə yaradılmış B.Britaniya-Rusiya-Fransa ittifaqıdır. Sonralar 1915- ci ildə İtaliya və Yaponiya da bu ittifaqa qoşuldu.

Müqavilədəki 3 maddə diqqətimi daha çox çəkdi. Həmin maddələri yazıram:

1) Ermәni vilayәtlәrindә üsyan olarsa buna müdaxilә etmәk haqqı ancaq Antanta dövlәtlәrinә verilsin.
2) Emәni әsirlәri Antanta dövlәtlәrinin nümayәndәlәrinә tәslim edilsinş
3) Osmanlı hökümәti Bakının işğalına mane olmayacaq. ( Bakının ingilis tәrәfindәn işğalına mane olmamaqdan söhbәt gedir)

Hәr zaman demişәm ki, düşmәni küçümsәmәklә böyük sәhvә yol veririk. İdeoloji vә tәşkilatlanma baxımından ermәnilәr tarix boyu bizdәn daha bacarıqlı olublar. Maraqlısı odur ki, 1918-ci ilin 15 Sentyabrında Bakını işğaldan azad edәn Osmanlı cәmi 1 ay sonra Bakının işğalına etiraz etmәyәcәyi maddәsi isә razılaşır. Bilirәm, hәr zamankı kimi bu dәfә dә bu yazıdan sonra mәnә ruspәrәst, ermәnipәrәst, farspәrәst deyәnlәr olacaq. Ancaq bilәnlәr bilir ki, tarixdә әn çox sevdiyim şәxsiyyәtlәrdәn ikisi Mәhәmmәd Әmin Rәsulzadә vә Mustafa Kamal Atatürkdür. Vә mәni bu mәsәlәlәrdә ittiham edәnlәr onu da dәqiq bilsinlәr ki, heç biri Azәrbaycanı vә Türkiyәni mәndәn daha çox sevә bilmәzlәr. Sevgisini әmәldә göstәrә bilәn adamlar zatәn mәnә haqq verәcәklәr. Sevgisi ancaq sözdә olan adamlarsa mәni nә qәdәr ittiham etsәlәr dә әmin olsunlar ki, boş işlә mәşğuldurlar. Bilәnlәr onu da bilir ki, mәn havaya söz demirәm, faktlarla danışıram. Şübhәsi olan açsın Mudros müqavilәsinin maddәlәrini oxusun. Hәtta sizә

konkret mənbə də göstərirəm. Türkiyə Cümhuriyyətinin 3-cü prezidenti Cəlal Bayar tərəfindən yazılmış 8 cildlik "Ben de yazdım" kitabını oxusunlar. Əgər kitabı tapa bilməsəniz mənə yazın, sizə pdf variantını göndərim. Bu müqaviləni oxuduqca anlayırsan ki, böyük ölkələr erməniləri dəstəkləyir. Və bunda Osmanlı hökümətinin çox böyük qüsurları var.

Osmanlı hökümətində 22 paşa, 29 nazir, 33 millət vəkili, 7 böyük elçi, 11 baş konsul erməni idi. Hələ mən yüksək bürokratlardan, valilərdən danışmıram. Onların sayı 40-dan çox idi.
Biliəm, Nicat Həşimzadə agentdir, özündən uydurur deyənlər olacaq, amma nümunə göstərə bilərəm.

Yosep Vardanian (Vardan Paşa), Karapet Paşa (Tavutian), Hovhannes Paşa (Guyumjian) Gabriel Paşa (Sevan), Anton Paşa (Nafielian), Tiran Paşa (Papazian), Hakob Bey (Tavutian), Gaspar Bey (Sinapian) - bunlar Osmanlı hökümətinin paşalarıdır, aralarında doktor, əczaçı da var. Osmanlı ordusunu ləvazimatla, dərmanla təmin edən paşalar milliyətcə erməni idi. Sultan II. Mahmud' un şəxsi həkimi erməni idi - Manuel Shasian

Ohannes Sakız, Qabriel Noradunkyan, Qarabet Artin, Kirkor Sinapyan, Bedros Hallacyan, Oskan

Mardikyan, Stanbulyan Efendi - bunlar Osmanlı İdarəetməsindəki erməni nazirləri olub.

Agop Babikyan (Tekirdağ), Kegam Dergarabedyan (Muş) Karakin Pastırmacıyan (Erzurum), Vahan Papazyan (Van), Artin Boşgezenyan (Halep), Krikor Zohrep (İstanbul), Bedros Hallacyan (İstanbul), Karabet Tomayan (Kayseri), Nazaret Dagavaryan (Sivas) - Bunlar erməni millət vəkilləridir. Mötərizə içində hansı şəhərin millət vəkili olduqları qeyd olunub.

Dikran Aleksanyan (Brüksel), Yetvart Zohrab (Londra), Dikran Tıngır (Berlin), Garabet Artin Davud (Berlin-Viyana), Ohannes Kuyumcuyan (Roma) - Bunlar Osmanlı hökümətinin xarici ölkələrdə olan böyük elçiləridir, yəni səfirləri.

Bəli, başa düşürəm, Osmanlı bir imperiya idi, imperiya tərkibində təbii ki, bir çox millətlər olur. Ancaq ermənilərə olan bu sayğı, bu diqqət, bu inam özünü doğrultmadı. Təsəvvür edin ki, sultan II Əbdülhəmid şəxsi sərvətinin və dövlət xəzinəsinin müdafiəsini də ermənilərə etibar etmişdi. Nəticədə bilirsizmi nə oldu? Bu haqda az sonra, ya da çox sonra. . .

1890-cı il 20 İyunda Ərzurumda, 15 İyulda İstanbulda erməni üsyanları oldu. Daşnaqsütun

partiyasının əli ilə Avropa dövlətləri Osmanlı hökümətinə müdaxilələr edirdilər. 1896-cı ildə 26 Avqustda İstanbulda ermənilər yenə üsyan etdilər. 129 Osmanlı əsgəri qətlə yetirildi. Osmanlı xəzinəsinə hücum edib 157 insanı əsir götürdülər. Bankı partlatmaq təhdidi ilə hökümət qarşısında şərtlər qoydular, Avropa ölkələrinin dəstəyi ilə üsyanı törədənlər gəmiylə Marselə qaçdılar. Şəxsi sərvətini, dövlət xəzinəsini ermənilərə əmanət edən II Əbdülhəmidə qarşı sui-qəsd planı hazırladılar.

İstəyirəm bir mövzuya xüsusi diqqət edək. Daşnaqsütun partiyası 1890- cı ilə yaranıb. Osmanlıda erməni üsyanları da 1890-cı ildən etibarən başlayıb.
Sarıqamış döyüşündə də ermənilər Osmanlıya xəyanət etdilər.

Sarıqamış hərəkatı — Rusiya çarlığı ilə Osmanlı imperiyası arasında Birinci Dünya müharibəsi dövründə 1914 -cü il dekabr ayından 1915 -ci il yanvar ayına qədər Sarıqamış bölgəsində baş vermiş döyüşdür. Döyüş Osmanlı hökümətinin böyük hərbi səhvi nəticəsində Rusiya çarlığının qələbəsi ilə nəticələnmişdir. Osmanlı tərəfindən döyüşən ermənilər arxadan osmanlı əsgərlərini qətlə yetirirdilər bu döyüşdə.

Əsl şoku indi yaşayacaqsınız. Dediyim kimi Sarıqamış əməliyyatında ermənilər Rusiya ilə həmrəy oldular. Biz Rusiya deyirik, əslində Antanta ilə həmrəy olub. Bir yandan Sarıqamışda Osmanlıya xəyanət edən ermənilər, digər tərəfdən Ənvər Paşanı əsirlikdən xilas ediblər. Məhz həmin Sarıqamış hadisəsində. Bu munasibətlə Ənvər Paşa İstanbul erməni patriki Zaven Ter Yeghiyana təşəkkür məktubu göndərib.
Bu hadisələri bilməyimə baxmayaq mənim Türkiyə sevgim azalmır. Hər şeydən öncə feodal Osman hökümətini Atatürkün qurduğu Türkiyə cümhuriyyətindən fərqləndirmək lazımdır.

Həm Osmanlı əleyhinə üsyan edirlər, həm Ənvər Paşanı xilas edirlər. Siz heç bu haqda düşündünüzmü? Bu gün qondarma ermən soyqırımını isbat etməyə çalışan erməni müəlliflərini oxuyun, çıxışlarını izləyin. Onlar deyir ki, biz Osmanlıya sədaqətlə xidmət edirdik, amma bizim qədrimizi bilmədilər. Bu adamların bu sözü deyə bilməsi üçün bu adamların ataları, babaları düşünüblər, strategiya qurublar, 100 il, 200 il sonranın intellektual müzakirələrinin belə faktlarını, müdafiə mexanizmlərini planlayıblar.

Başlıqdakı yazını təkrar oxuyun və gəlin həmrəy olub Bakının taleyini, məmləkətimizin halını,

keçmişini, gələcəyini düşünək. Bu gün erməni yazarları, tarixçiləri deyir ki, Osmanlı hökküməti qeyri-müsəlman əhaliyə zülm ediblər. Onlara sual verən lazım ki, əgər Osmanlı qeyri-müsəlman əhaliyə zülm edibsə bəs bu qədər erməni necə olub ki, nazir, millət vəkili, paşa, həkim, müəllim, səfir ola biliblər?

İrəvan Ermənistana niyə verildi? Bir də bunu düşünək. Çünki ermənilər Antanta ilə razılığa gəlmişdilər Osmanlı dövlətini yıxmaq mövzusunda. Heç bir böyük resursu olmayan, yeni yaranan Azərbaycan Xalq Cümhuriyyəti bu şərtlə razılaşmağa məcbur idi. Əgər bu şərti qəbul etməsəydi vəziyyət daha mürəkkəb olacaqdı. Bu riskə getməyin bədəli çox ağır olacaqdı.

Osmanlının nöqsanı da o idi ki, təhsil sistemi qura bilməmişdi. Axı feodal zehniyyətində olan hökümət necə təhsil qura bilər ki? Bu səbəbə görə də Avropada təhsil alıb Osmanlıya qayıdan ermənilərə kadr kimi ehtiyac duyurdu.

Mən bu yazını kimisə ittiham etmək, kimisə günahkar çıxarmaq üçün yazmadım. Ona görə yazdım ki, düşünək. İtirdiyimiz hər dəqiqə əleyhimizə işləyir. Təhsilimiz haqqında bir daha düşünək. Bu gün bizim universitetlərimiz kadr yetişdirə bilirmi? Bu gün bizim təhsil ocaqlarımız

vətəndaş yetişdirə bilirmi? Azərbaycan hamımızın ölkəsidir və əgər qəlbimizdə həqiqətən də Rəsulzadə sevgisi varsa onun vəsiyyətinə əməl etməli, bu ölkəni qorumalıyıq.

## Nəyimizə lazımdır Cəfər Cabbarlı, Ömər Faiq?

Nəyimizə lazımdır, Cəfər Cabbarlı, Ömər Faiq? Bütün həyatını, istedadını xalqa həsr edən bu dahilər bizə lazımdırmı? Axı nəyimizə gərək? Bu gün onları oxumuruq, öyrənmirik. Sadəcə məktəb dərsliyində olduğu üçün oxuyuruq. Bilirəm, bu yazını oxuyan hər 10 adamdan 9-u deyəcək ki, mən oxumuşam. Fəqət elə dərd də ondadır ki, bu yazını da az adam oxuyacaq.  Bu məsələ haqqında düşünəndə yadıma bir hadisə düşdü. Bir dostum təhsil məsələləri ilə əlaqədar sənədləşmə işlərində məndən yardım istəmişdi. Mənsə bu dosta qarşı qəzəbli idim. Ondan ötrü ki, böyük oğlunun toyuna təkcə müğənniyə 8 min manat verən bu adam, övladlarının təhsilinə pul xərcləmək

istəmirdi. Hirslə cavab verdim ki, get, uşaqların sənədləşmə işində 8 min manat verdiyin müğənnidən kömək istə.

Görəsən, biz niyə beləyik? İldə ikicə dəfə müəllimlərə hədiyyə verməli oluruq, onda da deyinirik, danışırıq. Anlamaq istəmirik ki, bu hədiyyəni uşaqlarımızın ruhunu, düşüncəsini böyüdən müəllimlərinə veririk. Həmin anda toylara, nişanlara, gözəllik salonlarına xərclədiyimiz pullar yadımıza düşmür. Mənim dostum da təəssüf ki, bu qəbil adamlardan biri idi. Sonra münasibətlərimiz pozuldu. Çünki, vallah, qəsdən eləmirəm. Ancaq dözə bilmirəm belə adamlara. Ürəyim sıxılır, nəfəsim kəsilir. Başqa bir dostumla da təqribən bu mövzuya yaxın mövzuda mübahisə etmişdim. İbadət əhli olan bu dostum dövlət kitabxanalarından kitab oğurlamaqla fəxr edirdi. Ən azı 15 kitab oğurlamışdı. Adama deyirdim ki, sənin oğurladığın bu kitab indi kiməsə çox vacibdir, kimsə o kitabı axtarır. İkincisi də ki, lap heç kəsə lazım deyil. Axı, kitabxanaların funksiyası sənin evindəki kitabxananı doldurmaq deyil. Kitabxanalar oxuculara xidmət edir, kitabları da oxuyub qaytarmaq şərti ilə verirlər. İnsanların ürəyi yumşaqlığından belə bəd niyyətlər üçün istifadə etmək olmaz. Adama deyirdim ki, əgər bu gün sadə bir vətəndaş kimi dövlətə 5-10 manat pul atıb bununla fəxr edirsənsə, sabah Allah eləməsin,

nazir olsan dövlətə 20 milyon atmaqla qürur hissi keçirəcəksən. Belə adamlar başa düşmür ki, məsələn, kassada sənə 20 manat qaytarmaq yerinə yorğun halında 30 manat qaytaran kassirə səhvən verdiyi 10 manatı geri vermək lazımdır. Çünki, əxlaq bizdən bunu tələb edir. Adamdan soruşuram ki, a vicdansız, axı niyə belə edirsən. Cavab verir ki, o boyda mağazadır, onsuz da çox qazanır, 10 manatla varlanan deyil.
Adam başa düşmür ki, mağaza lap milyon manat da qazansa belə nadan hərəkətlə sən öz içindəki əxlaqa xəyanət edirsən. İkincisi, o 10 manatı kassirin maaşından kəsirlər. Bunları da danışanda deyir ki, kassirin canı çıxsın. Ayıq olsun, düzgün işləsin. Adama izah etmək olmur ki, insandır, neçə saat ayaq üstdə işləyir. Yorulur, ya həyatında ciddi problem var, fikrini bir yerə toplaya bilmir.

Bir də belə adamların özlərini müsəlman saymaqları, ibadət əhli hesab etmələri var. Hələ utanmaz-utanmaz təbliğat da aparırlar. Mənim tanıdığım ibadət əhli olan müsəlman dostlarım arasında yetərincə sağlam fikirli, həyatını doğru-dürüst yaşayan bir neçə adam var. Ancaq onlar həyalarına qısılıb susurlar. Abırsız adamlarsa özlərini İslam carçısı kimi təqdim edirlər.

Sualımı bir daha təkrar edirəm, həqiqətən də Cəfər Cabbarlı, Ömər Faiq Nemanzadə bizə lazımdırmı?

Axı biz cəmiyyət olaraq yaşadığımız hər gün, hər saat onların ruhuna xəyanət edirik.
Almaniyadan bir dostum gəlmişdi Bakıya. Orada yaşayan azərbaycanlı deyil, həqiqətən də Almaniya vətəndaşıdır və milliyətcə də almandır. Metronu görmək istədi, 28 may həndəvərində adamı yüz yoldan hərlədib fırladım metronun girişinə gətirdim ki, Cəfər Cabbarlının heykəlini görməsin. Mən bu heykəli görəndə utandığımdam ölüb yerə girmək istəyirəm. O boyda Cəfər Cabbarlının heykəli quş nəcisiylə dolu olur. Ayıbdır axı. O boyda şəxsiyyəti belə hörmətsiz eləməzlər axı. Çətindirmi o heykəli səliqəli, təmiz saxlamaq. Niyə bizim sevgimiz də, nifrətimiz də saxtadır? Mən gecə-gündüz Cəfər Cabbarlı sevgisindən danışan bir tələbə yoldaşımın dəfələrlə həmin heykəlin qarşısına siqaret kötüyü atdığını görmüşəm.
Axı Ömər Faiq nə qədər əzab çəkmişdi, deyirdi ki, biz işığı itirməməliyik, bu işığı qorumalı, gələcək nəsilə ötürməliyik. Bəli, onlar bu işığı qoruyub bizə ötürə bildilər. Ancaq biz o işığı məhv elədik.
Ömər Faiq Nemanzadə "Dərdimiz və dərmanımız" adlı məqaləsində yazır ki, dövlətli adamlarımız var, fəqət təəssüf ki, onlar mədəniyyətə, elmə dəstək olmaq istəmirlər, əksinə pullarını, varidatlarını artırmaq haqda düşünürlər.
Yalandan özümüzü tərifləməklə deyil e. Hər şeyə dürüst münasibət bəsləmək və həqiqəti demək lazımdır. Azərbaycan ziyalılarını təkcə repressiya

öldürməyib, Onları həm də biz öldürmüşük, öz dərdimizlə, laqeydliyimizlə, cahilliyimizlə.
Cəfər Cabbarlıya yaşamaq üçün sadəcə 35 il icazə verdik, adamın ürəyi partdadı öldü. Mirzə Cəlilə bir parça quru odunu çox görən millətik biz. Adam əlyazmalarını cırıb peçə atırdı ki, soyuqdan donmasınlar. İndi kimi dindirsən deyir ki, Cəfər Cabbarlını, Ömər Faiqi, Mirzə Cəlili sevirəm. Sevirsən sev, mən etiraz eləmirəm. Amma hanı bu sevginin sübutu. Axı bu sevginin əməldə tətbiqini görmürük. Adam heyrətlənir ki, eyni adamlar həm deyir ki, 100 il ərzində heç nə dəyişməyib, həm də Cəfər Cabbarlını,Ömər Faiqi, Mirzə Cəlili sevir. Sevirsənsə bu sevgini əməldə sübut elə də. Sözdə sevməyə nə var ki?
Bu gün 24 Apreldir. Qondarma erməni soyqırımı günü. 18 Mart, 1918-ci ildə Üzeyir Hacıbəyovun evini ermənilər gülləbaran eləmişdi. Biz də Üzeyir bəyi daş-qalaq edirdik. Cəfər Cabbarlı da bu soyqırımdan canını güc-bəla xilas etmişdi. Yəni, çox qəribə millətik e, bizim ziyalımıza düşmən də nifrət edib, biz özümüz də. Bilməm, anlata bildimmi?

Cəfər Cabbarlı adına kino studiyada Maşın realiti şou çəkirlər. Sonra bu layihənin rəhbəti Murad Dadaşov Xəzər TV rəhbəri təyin edildi. Təbrik edirəm, uğurları bol olsun. Bayağı saydığı müğənnilərə efir qadağası qoyub Fəlakəti efirə dəvət elədi. Çox uğurlu islahatdır, həqiqətən.

Məncə gəlin, hamılıqla birləşək və Murad Dadaşovdan xahiş edək ki, növbəti Maşın Realiti Şou- nu Axundov adına kitabxanada keçirtsin. Cəfər Cabbarlıya bir-iki il istirahət verək heç olmasa. Baxma da, Axundov həm də hərbçi olub axı, dözümü Cəfər Cabbarlıdan daha çox olar.

Koranavirus dünyanın siyasi-iqtisadi mənzərəsini dəyişdi. Dünya böyük itkilər verdi. Azərbaycan da bu itkilərdən xilas ola bilmədi. Hər il turizmdən böyük gəlirlər əldə edən Amerika, İtaliya, Fransa, Türkiyə kimi ölkələr ciddi itkilərlə qarşılaşdılar. Azərbaycan da turizm sahəsin inkişaf etdirir. Ancaq bəlli məsələdir ki, bizim əsas gəlir mənbəyimiz neft ixracıdır. Neftsə dəyərin itirir. Bəlkə də heç zaman ağlımıza gəlməzdi ki, neftin bir bareli 13-14 dollara düşəcək. İqtisadçi ekspertlər vəziyyətin daha kritik olacağını düşünürlər. Bu məsələlərin fonunda bir amil diqqətimi daha çox çəkdi. Dünyada ciddi itkilər verən əksər ölkələrin vətəndaşları vətəndaşı olduqları dövlətin itkilərinə ağrıyırlar, acıyırlar. Dövlətin böyük itkilər verməsini həzm edə bilmirlər. Vətəndaşı olduqları dövlətin nüfuz itirməsini qəbul edə bilmirlər. Bəs biz nə edirik. Dövlətimiz itki verir, bizim insanlarımız isə bu məsələni məsxərəyə çevirirlər. Axı biz niyə hər

şeyə lağ edirik? Niyə ciddi məsələlərə qeyri-ciddi, qeyri-ciddi məsələlərə isə ciddi münasibət göstəririk. Axı nəyə görə bizim insanımızın ən ali həqiqəti toy, nişan, xınayaxdı və s. bayağı şeylərdir?
Başa düşürəm, həmin ölkələrdə vətəndaş özünü dövlətin vacib bir fiquru kimi hiss edə bilir. Vətəndaşı olduğu dövlət ona bü qüruru yaşadır. Bizdəsə problemlər çoxdur. Bizim insanımız 190 manatlıq yardımı almaq üçün böyük problemlərlə üzləşir. Həm də o məlum olur ki, biz texnoloji cəhətdən xeyli geridəyik. Bir saytda eyni anda 200-300 nəfər qeydiyyatdan keçmək istəyən zaman sayt çökür.
Mən anlayıram, ölkədə problemlər çoxdur. Ancaq bu ölkə bizim ölkəmizdir, bu dövlət bizim dövlətimizdir. Bu ölkə naminə nə qədər insan özünü qurban verib. Axı biz niyə hələ də dövlət və hakimiyyət anlayışlarının fərqini bilmək istəmirik. Niyə anlamaq istəmirik ki, hökümətlər əbədi deyil. Amma dövlət əbədi olmalıdır. Dövləti qorumaq, saxlamaq lazımdır. Niyə başa düşmək istəmirik ki, dövlət hökümətin deyil, hökümət dövlətindir.
Bu gün kimi dindirsən deyəcək ki, Rəsulzadəni sevirəm, Rəsulzadə böyük şəxsiyyətdir. Əlbəttə ki, Rəsulzadə böyük şəxsiyyətdir, ən yüksək hörmətə, ən ali sevgiyə layiqdir. Amma gəlin bir suala cavab verək. Biz Rəsulzadəni sözdə, ya əməldə sevirik? Bizim Rəsulzadə sevgimiz sözdən o yana keçmir. Əgər Rəsulzadəni seviriksə onun gəncliyə xitabını

heç zaman unutmamalıyıq. Əgər Rəsulzadə sevgimiz səmimidirsə onun vəsiyyətinə əməl etməliyik.
Kor-təbii sevgi bizə heç nə qazandırmayacaq.
Sözdə sevməyə nə var ki? Amma bunu əməldə sübut etmək insandan zəhmət, cəsarət tələb edir.

Bu gün neftin dəyərdən düşməsinə, dövlətimizin ciddi böhrana getməsinə k2sevinməliyikmi? Elə bilirsiz ki, neftin bu dərəcədə uzuclaşması sadə xalq təsir etməyəcək? Tarix dəfələrlə sübut edib ki, iqtisadi böhranı ən ağır keçirən təbəqə elə sadə xalq olur.

Mən iki min manat maaş alanda dövlət sevgisi səmaya yüksələn, 2 ay maaş ala bilməyəndəsə dövlət sevgisi yerin dibinə girən çox adam görmüşəm. Mən hökümət sevgisinə dövlət sevgisi adı verən də çox adam görmüşəm. Dövləti sevmək üçün YAP-çı, AXCP-çi olmağa ehtiyac yoxdur. Heç bir partiyaya qoşulmadan, heç bir siyasi lideri dəstəkləmədən də dövləti sevmək olar. Qandi deyirdi ki, vətən sevgisi öz işini düzgün, vicdanlı görünməkdən başlayır. Yəni, süd satırsansa ona su qatma. Pinəçisənsə saxta material işlətmə. Bərbərsənsə qayçını, maşını yu, spirtlə, təmiz saxla. Müəllimsənsə, şagirdlərə saxta şeylər öyrətmə, Jurnalistsənsə yalan məlumat yayma.

Yazımı böyük Rəsulzadənin gəncliyə xitabı ilə bitirmək istəyirəm.

***Ey Gənclik, Sənin öhdəndə böyük bir vəzifə var. Səndən öncəki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı, onu min müşkülatla ucaldaraq dedi ki : BİR KƏRƏ YÜKSƏLƏN BAYRAQ BİR DAHA ENMƏZ!***

***Əlbəttə ki, sən onun bu ümidini qırmayacaq, bu gün parlament binası üzərindən Azərbaycan türklərinin yanıq ürəklərinə enmiş bu bayrağı təkrar o bina üzərinə dikəcək və bu yolda ya QAZİ və ya ŞƏHİD olacaqsan!***

SON

Dəyərli oxucular, gözəl insanlar, zaman ayırıb kitabı oxuduğunuz üçün təşəkkür edirəm. Kitabın ön sözündə qeyd olunan bəzi fikirləri həyata keçirə bilmədim. Çünki bu kitabı kağız kitab formasında çap etməkdən imtina etdim. Bu kitabın çapı üçün ianə verən dostların, oxucuların nəzərinə çatdırım ki, toplanan vəsait komandirim şəhid general mayor Polad Həşimovun xatirəsinə həsr etdiyim

kitabın çapına sərf olunacaq. Əgər oxuduğunuz bu kitab həqiqətən xoşunuza gəldisə aşağıda qeyd etdiyim bank hesabına ürəyinizdən keçən məbləği göndərərək yeni kitablarımın və ən əsası şəhidimiz, böyük şəxsiyyət general Həşimova həsr etdiyim kitabın çapında sizin də əməyinizin olmasına səbəb olaraq məni sevindirə bilərsiniz. Var olun, dostlar. Çalışacam ki, inamınızı doğruldum, sizi heç zaman məyus etməyim. Salamat qalın. )

Kapital Bank – 4169 7413 1441 3558

Müəlliflə əlaqə. Whatsapp – 055 820 12 36